Aqil Şahmuradov

# ERMƏNİLƏR CƏNUBİ QAFQAZDA

## (məskunlaşma tarixindən)

- 20308 -
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı - 2015

63.3(5 Азю)+63.3(5 Ита)52-4 + 63.5 (5 Арм)
А 16

**1905.az KİTABI**

**Seriyanın ideya müəllifi və naşiri**
Elxan SÜLEYMANOV,
Şamaxının millət vəkili, AVCİYA-nın prezidenti, Avronest Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü

**Nəşrin elmi redaktoru**
İlyas BABAYEV,
AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor

**Seriyanın tərtibçisi**
Fuad BABAYEV,
siyasi elmlər üzrə fəlsəfə doktoru, əməkdar jurnalist

***A.Ş. Şahmuradov. Ermənilər Cənubi Qafqazda (məskunlaşma tarixindən). Bakı, CBS polygraphic production,2015, 136 s.***

Tarix üzrə fəlsəfə doktoru, dosent, "1905.az" portalının icmalçısı Aqil Şahmuradovun bu kitabında ermənilərin mənşəyi, miqrasiya prosesləri nəticəsində onların Balkanlardan Anadolunun şərqinə gəlmələri, Rusiya imperiyasının yardımı ilə Cənubi Qafqazda məskunlaşmaları, yerli xalqların mədəniyyəti və tarixini mənimsəmək məqsədilə etdikləri saxtakarlıqlarla bağlı məsələlər öz əksini tapmışdır. Kitab tədqiqatçılar, müəllim və tələbələr, Cənubi Qafqazın etnik tarixi ilə maraqlanan oxucular üçün nəzərdə tutulmuşdur.

Kitabın cildinin dizaynında rəssam V.İ. Maşkovun «1828-ci ildə polkovnik Lazarevin sərəncamı ilə 40000 ermənininin İrandan Rusiya ərazisinə köçürülməsi» əsərindən istifadə olunmuşdur.

ISBN: 978 – 9952 – 488 – 51 -7

4702060102
---------------- qrifli nəşr

*036 – 2014*
*2.6.1.2*

© *www.1905.az 2015*
© ***A. Shahmuradov 2015***



**Dəyərli Oxucu!**

Mən tarixçi Aqil Şahmuradovun "Ermənilər Cənubi Qafqazda (məskunlaşma tarixindən)" əsərini məmnuniyyətlə oxudum. Və bu əsərin "1905.az kitabı" kimi, özü də eyni zamanda 3 dildə, Azərbaycan dili ilə yanaşı həm də ingilis və rus dillərində işıq üzü görməsi məni çox sevindirir. www.1905.az portalı Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının resursudur. Və ikinci ildir ki, 12 dildə erməniliyin saya gəlməz yalanlarını ifşa edir...

Bəli, erməniliyin yalanları olduqca çoxdur. Və bu yalanların ifşa edilməsində tarixi faktlardan istifadə olunmalıdır. Yazılı mənbələr, mətnlər tarixi biliklərin əsasını təşkil edir. Bu mənbələr zamanın dilini eşitmək imkanı yaradır, hadisələrin xronoloji ardıcıllığını verir, bir növ öyrəndiyimiz dövrün mənzərəsini canlandırır. Başqa sözlə, tariximizin bu və ya digər kəsimi haqqında bütöv təəssürat yaradacaq və üzərinə digər mənbələri – arxeoloji, etnoqrafik və s. dair məlumatları yığa biləcəyimiz karkası yaradır.

Bu gün də Tarix yazılır.

Bu kitabın işıq üzü görməsindən bir neçə həftə əvvəl, AŞPA Bürosunun 26 noyabr 2015-ci ildə Sofiyada keçirilən iclasında Azərbaycanla bağlı vacib qərar qəbul edildi. Bu qərar "Azərbaycanın Dağlıq Qarabağ və digər işğal edilmiş ərazilərində zorakılığın artması" və "Azərbaycanın sərhədyanı bölgələrinin sakinlərinin qəsdən sudan məhrum edilməsi" qətnamələrinin təsdiq üçün Assambleyanın 2016-cı ilin yanvar sessiyasında müzakirəyə çıxarılmasını nəzərdə tutur. Qeyd edilən qətnamələrin müzakirəsi Assambleyanın 27 yanvar 2016-cı il tarixli plenar iclasının gündəliyinə daxil edilib. Bu qətnamələr ay-

rı-ayrılıqda müzakirə edilərək, bir yerdə səsə qoyulacaq.

Azərbaycan torpaqlarının Ermənistan işğalından azad olunmasını tələb edən hər iki qətnamə mənim müəllifliyimlə təqdim edilmiş qətnamə təklifi əsasında hazırlanıb.

Əlbəttə, kiçik "Ön söz"də bu böyük uğurun, bu böyük hadisənin bütün təfərrüatlarından söhbət açmaq mümkün deyil. Bəlkə, buna heç ehtiyac da yoxdur. Sadəcə istərdim ki, həqiqətin bizim tərəfimizdə olduğunu və işğal altında olan torpaqlarımızın azad olması üçün mübarizəmizin davam etdiyini bir daha vurğulayım.

Ermənilik elmi dairələrdə sınaqdan keçirdiyi, özünəməxsus tərzdə sübut etdiyi yalanları siyasətə gətirir. Obrazlı desək, cəbhə xətti həm də akademik dəhlizlərdən keçir və biz buna etinasız yanaşmamalıyıq. Erməniliyin istifadə etdiyi qondarma tarixi mənbələrin və təsəvvürlərin ifşası təkcə bizim üçün deyil, bütün sivilizasiyalı dünya üçün mühüm əhəmiyyət kəsb edir.

İnanıram ki, bu kitab ermənilərin Cənubi Qafqazda məskunlaşmaları tarixinə çox faydalı ekskurs kimi təkcə Azərbaycan oxucusunun deyil, həm də xarici auditoriyanın diqqətini çəkəcək.

*Elxan SÜLEYMANOV*
*Şamaxının millət vəkili, AVCİYA-nın prezidenti, Avronest Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü*
*15 dekabr 2015-ci il*





## GİRİŞ

Erməni müəlliflərin müxtəlif vaxtlarda yazdıqları, kifayət qədər saxta dəlillərlə müşayət olunan, əsasən qonşu xalqların tarixini və mədəniyyətini mənimsəməyə xidmət edən əsərlərlə tanış olduqda, bu müəlliflərin əsas məqsədinin ermənilərin tarixini süni surətdə qədimləşdirmək, onları Anadolu və Cənubi Qafqazın avtoxtonları kimi təqdim etmək olduğu aydın hiss olunur, lakin ermənilərin son dövrlərdəki fantastik "kəşfləri" heç bir elmi məntiqə sığmır. Məsələn, Suren Ayvazyan Kiyev və Novqorodun ermənilər tərəfindən inşa edildiyini, Yuri Dolqorukinin rus deyil, erməni olduğunu iddia edir və ya erməni rəssam Armine Xaçatryan dünyaca məşhur italiyalı rəssam Leonardo da Vinçinin erməni olduğunu "sübut edir" və s. Məlumatsız oxucu erməni müəlliflərin ustalıqla quraşdırdıqları və saxta dəlillərə daha çox əsaslanan işləri ilə tanış olduqdan sonra Adəm və Həvvanın erməni övladları olduqlarına, İsa peyğəmbərin ermənilərlə tanış olduqdan sonra xristianlığın təbliğinə başladığına, ədəbiyyat, musiqi, rəssamlıq, heykəltaraşlıq, mədəniyyət və incəsənətin digər sahələrinin mənşəyinin ermənilərlə bağlı olduğuna inanmaqdan başqa yolu qalmır.

Zamanın, siyasi proseslərin gedişinə uyğun olaraq dəyişmək, ikiləşmək, tez-tez bu və ya digər tərəfə əyilmək erməniləri başqalarından fərqləndirən xüsusiyyətlər sırasındadır. Məsələn, ermənilər 1978-ci ildə Azərbaycan Respublikası Ağdərə (keçmiş Mardakert) rayonunun Marağa kəndində, ilk 200 erməni ailəsinin İrandan bura köçürülməsi

münasibətilə abidə ucaltmışdılar. Başqa sözlə, ermənilər əcdadlarının Dağlıq Qarabağa 1828-ci ildə gəldiklərini etiraf edirdilər. SSRİ-i dövründə ermənilər belə addımlarla özlərini hamının, o cümlədən azərbaycanlılar və gürcülərin dostu kimi təqdim etməyə üstünlük verir, bu yolla Azərbaycan və Gürcüstanın həm iqtisadi, həm də siyasi həyatında kifayət qədər geniş təmsil olunmağa nail olmuşdular. Keçən əsrin 80-ci illərinin sonlarında sövet dövləti dərin siyasi və iqtisadi böhrana daxil oldu, dünyada ilk sosialist dövlətinin süquta doğru getdiyi artıq məlum idi. Bunu hiss edən ermənilər "dostluq" ritorikasını və simalarını dəyişdilər, Azərbaycan ərazilərini parçalamaq üçün riyakar fəaliyyətlərinə başladılar. Deməli, onların Cənubi Qafqaza gəlmə olduqlarını xatırladan hər şey məhv edilməli idi və yoxa çıxan abidələr sırasında Marağa abidəsi də vardı.

Ermənilərin saxtakarlıqla məşğul olduqlarını sübut edən faktları kifayət qədər artırmaq olar, lakin onların bu yolla real tarixi gizlədə biləcəklərinə inanmaq mümkün deyil, çünki erməni saxtakarlığına qarşı öz yaradıcılıqlarında yalnız həqiqi tarixi faktlara əsaslanan tədqiqatçılar deyil, həm də, gürcü mütəfəkkiri İ. Çavçavadzenin sözləri ilə desək, "daşlar da fəryad edir". SSRİ-nin süqutu, Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi ermənilərin azərbaycan xalqına qarşı törətdikləri ədalətsizliklərin və faciəli hadisələrin real qiymətləndirilməsi üçün əlavə imkanlar yaratmışdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli fərmanında



qeyd olunduğu kimi: "Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır"[1].

1 "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı (26 mart 1998-ci il) // http://files.preslib.az/site/soyqirim/31mart_az.pdf

# I. ERMƏNİLƏRİN MƏNŞƏYİ HAQQINDA

## M. Xorenasidən başlayan erməni saxtakarlığı

Ermənilərin etnogenezi, milli identikliyi, linqvistik xüsusiyyətləri, tarixi və s. haqqında müxtəlif vaxtlarda və bir-birinə zidd olan fikirlər irəli sürülmüşdür. Bəzi müəlliflər, daha çox erməni müəlliflər ermənilərin tarixi başlanğıcını bəşər sivilizasiyasının ilk çağlarına aparır və onların mənşəyini bilavasitə Anadolu və Qafqaz ilə bağlayır, bu ərazilərin avtoxton əhalisinin məhz ermənilər olduğunu iddia edirlər və bu zaman daha çox etibarlı tarixi mənbələrə deyil, həqiqiliyi kifayət qədər şübhə doğuran mifik-dini xarakterli məlumatlara əsaslanırlar. Digər müəlliflər tarixi həqiqəti bərpa etməyə cəhd edir, bu gün erməni adlanan xalqın əcdadlarının göstərilən coğrafiyaya müxtəlif tarixi hadisələrlərin təsiri altında və ayrı-ayrı dövrlərdə baş vermiş miqrasiya prosesləri nəticəsində gəldiklərini ön plana çəkirlər. Bəziləri isə, yuxarıda qeyd olunan yanaşmaları birləşdirməyə çalışır, ermənilərin etnogenezində həm Anadolu və Qafqazın avtoxton tayfalarının, həm də gəlmə etnik elementlərin iştirak etdiyini bildirirlər.

Ermənilərin mənşəyi barədə konsepsiyaların tez-tez dəyişməsinə regionda cərəyan edən siyasi proseslərin, Cənubi Qafqazda, Yaxın və Orta Şərqdə öz geosiyasi və geoiqtisadi maraqlarını təmin etməyə çalışan, bu zaman ermənilərdən bir vasitə kimi istifadə edən və onları böyük fəlakətlərə sürükləyən iri dövlətlərin rəqabəti və mübarizəsi də təsir göstərmiş və göstərməkdə davam edir.



www.1905.az

Ermənilərin bir xalq kimi Anadolu yaylasında təşəkkül tapdığını iddia edənlərin əsas istinad nöqtəsi M. Xorenasinin, tamamilə mifik xarakter daşıyan, tarixi reallıqlarla heç bir əlaqəsi olmayan "Ermənistan tarixi" kitabıdır. Bu kitabda erməni tarixinin Nuh peyğəmbərin dövründən başlandığı, ermənilərin isə Nuh peyğəmbərin oğlu Yasəfin nəslinə aid olduqları iddia olunur: "Yafəsdən Qamer, Qamerdən Tiras, Tirasdan Torqom, Torqomdan Hayk, Haykdan Aramenak, Aramenakdan Aramais, Aramaisdən Amasiya, Amasiyadan Gelam, Gelamdan Qarm, Qarmdan Aram, Aramdan Gözəl Ara dünyaya gəlmişdir"[2]. Bu siyahıda yer almış şəxslərdən hər hansı birinin tarixiliyini, əlaqədar mənbələrin yoxluğu səbəbindən sübut etmək qeyri mümkündür. "Bu şəcərə bütövlükdə (Hayk-Aramenak, Aram-Ara) miflərdən təşkil olunmuşdur..."[3]

M.Xorenasinin "Ermənistan tarixi" kitabının əfsanələr üzərində qurulduğu, kitabı rus dilinə tərcümə edərək, 1858-ci ildə Moskvada nəşr etdirmiş N.O.Emin tərəfindən də etiraf edilir. Əsərin mənbəşünaslıq bazasına toxunan tərcüməçi qeyd edir ki, üç kitabdan ibarət olan (dördüncü kitabın itdiyi bildirilir) və ilk insanın yaranmasından 433-cü ilədək olan dövrü əhatə edən "Ermənistan tarixi" çoxsaylı mənbələr əsasında yazılmışdır. Buna baxmayaraq, sadalanan mənbələrdən biri – suriyalı Mar Abas Katina - əsas mənbə hesab edilir. Bildirilir ki, M.Xorenasi qədim dövr tarixini, "müxtə-

2 История Армении Моисея Хоренского. М., 1858, с. 36.
3 Акопян Эд.А. "История Армении" Мовсеса Хоренации в оценке К. Патканяна. с. 72. // http://lraber.asj-oa.am/2157/




*Ön Asiya e.ə. III - II minillikdə*
Mənbə: Yusifov Y. Qədim Şərq tarixi. Bakı, 2007, s. 57.

*Xəritədə E.ə. III-II minilliklərdə Ön Asiyada məskunlaşmış etnoslar göstərilmişdir: şumerlər, akkadlar, assurlar, elamlar, arattalılar, kassilər, kutilər, lullubilər, aramilər, hurrilər, mitanilər, kasklar və s.*

lif mənbələrdən əxz olunduğu və buna görə də, həqiqətə uyğunluğu ilə hər yerdə eyni dərəcədə seçilmədiyi" qeyd olunan bu mənbə əsasında yazmışdır[4]. Başqa sözlə, N.Emin Mar Abas Katinanın əsərinin etibarlı mənbə olmadığına eyham vurur.

N.Eminin bildirdiyinə görə, Mar Abas Katinanın e.ə. 140-120-ci illər arsında ərsəyə gətirdiyi və dörd kitabdan ibarət olan əsəri əsasən haldey əsatirləri əsasında yazılmışdır və M. Xorenasi həmin əsərin yunan dilinə tərcümə olunmuş variantından istifadə etmişdir. O, qeyd edir ki, "I kitabın IX bölümündən XIII bölümünə qədər – Haykdan Arama qədər - yəni Assuriya monarxiyasının yaranmasına qədər Mar Abasda rəsmi mənbə yoxdur"[5].

Bəzi müəlliflər M.Xorenasinin "Ermənistan tarixi" əsərinin saxta olduğunu vurğulayırlar. Bu mənada fransız müəllif Karrierin fikirləri diqqəti cəlb edir. O, sübut edir ki, M.Xorenasi erməni patriarxlarını Bibliya nümunəsində təsvir edir və bu mənada onun əsəri saxtakarlıqdan başqa bir şey deyildir[6].

Əslində, Mar Abas Katinanın əsərini ermənilərin xeyrinə uyğunlaşdıraraq M.Xorenasi tərəfindən mənimsənildiyini, bu zaman sonuncunun məqsədyönlü fəaliyyət göstərdiyini, yəni konkret sifariş yerinə yetirdiyini güman etmək olar. M.Xorenasinin sifarişlə işlədiyini bildirən V.T.Sirotenko yazır: "Qədim Ermənistan tarixçisi, erməni naxarارı Saka Baqratuninin sifarişi ilə işləyən Moisey

4 История Армении Моисея Хоренского., с. 6.
5 Yenə orada.
6 Боркгауз. Моисей Хоренский www. krotov.info/lib_sec/22_h/or/ensky_1858.htm





Xorenasi "Ermənistan tarixi" əsərini yazmışdır. Moisey Xorenasi bu əsəri tərtib edərkən Mar Abas Katinanın "Ermənistanın ilkin tarixi"ndən istifadə etmişdir"[7].M.N.Tixomirov da qeyd edir ki, "Rəvayətə görə, Ermənistanın nüfuzlu knyazlarından biri ona Ermənistanın tarixini yazmağı təklif etmişdi"[8].

E.A.Akopyan M.Xorenasinin məlumatlarının doğruluğunun Gudşmid, Karrier, Katrmer və başqa müəlliflər tərəfindən şübhə altına alındığını qeyd edir[9]. M.Xorenasini "düzgün tarixçi", "əsl vətənpərvər" adlandırmasına baxmayaraq, K. Patkanyan da onun əsərini üstüörtülü şəkildə şübhə altına alır: "Əgər Xorenasi qeyri-yunan olan hər şeyə şübhə ilə yanaşmasaydı, xalq deyimlərinə daha çox diqqət ayırsaydı, yalnız çətin başadüşülən eyhamlarla məhdudlaşmasaydı, onda onun kitabı ikiqat udardı"[10].

M.Xorenasinin ənənəvi olaraq V əsrdə yaşadığı bildirilir. "Ermənistan tarixi" müəllifinin yaşadığı dövrə diqqət yetirilməsi tədqiq olunan mövzu ilə bağlı bəzi məqamlara aydınlıq gətirmək baxımından əhəmiyyətlidir. Belə ki, M.Xorenasinin öz kitabında təsvir etdiyi bəzi hadisələr V əsrə qədər deyil, sonrakı dövrlərə aiddir. Q.A.Xalatyants bil-

7 Умеров Э. Ш.Мовсес Хоренаци - письменный источник по истории государства "Magna Bulgaria" с II в. до н. эры по VII в. н. эры // Ученые записки Таврического национального университета имени В. И. Вернадского. Серия "Филология Социальные коммуникации". Том 26 (65). № 1, ч. 1. 2013 г. с. 460.
8 Тихомиров М. Н. Источниковедение истории СССР с древнейших времен до конца XVIII в. М., 1962,. с. 32.
9 Акопян Эд.А.. Указ. соч., с. 69.
10 Yenə orada, s. 70.

dirir ki, M.Xorenasinin "Ermənistan tarixi"nin ilk çap variantı 1695-ci ildə, zəngin erməni koloniyasının olduğu Amsterdamda işıq üzü görmüşdü və "...Qərbi Avropa alimlərinin Xorenasi ilə ilkin tanışlığı zamanı, onun Tarixi... sərt və amansız tənqidə məruz qalmışdır"[11]. Q.Xalatyantsa görə, Berlin Kral Kitabxanasının rəhbəri, XVII əsr fransız şərqşünası, erməni dilinin mükəmməl bilicilərindən olan La Kroz M. Xorenasinin əsərində yer almış anaxronizmlərə əsaslanaraq, onun V əsrdə deyil, IX və ya X əsrdə yaşadığını bildirir. Fransız müəllif qeyd olunan anaxronizmlərə misal olaraq, bizim eranın VI əsrində tarix səhnəsinə çıxmış bulqarların Xorenasi tərəfindən e.ə. II əsrə, yenə bizim eranın VI əsrində əsası qoyulmuş Bayberd qalasının I əsrə aid edilməsini göstərir. La Krozun fikirlərini XVII əsrin sonu – XVIII əsrin əvvəllərində yaşamış hollandiyalı ermənişünas İoakim Şreder də bölüşmüşdür[12]. M.Xorenasinin V əsrdən sonrakı dövrdə yaşaması ilə bağlı fikirlər Y.A.Manandyan, İ.M.Dyakonov, A.P.Novoseltsev və başqaları tərəfindən də müdafiə olunur.

Bütün bunlar onu deməyə imkan verir ki, ermənilərin başqa xalqların tarixini və mədəniyyətini mənimsəmək, özlərinə saxta tarix yaratmaq adətləri M. Xorenasidən başlamışdır və onun "Ermənistan tarixi" kitabı ciddi tarixi mənbə kimi nəzərdən keçirilə bilməz.

11 Халатьянц Г.А. Армянский эпос в "Истории Армении" Моисея Хоренского. М., 1896, с. 4.
12 Yenə orada, s. 4-6.





## Ermənilərdən uzaq Hayasa

Müasir ermənilərin tarixini qədimləşdirmək niyyətində olanların həvəslə istinad etdikləri mənbələrdən biri, e.ə. XIV əsrdə Het dövlətinin şimal vilayəti olmuş Hayasadır.

1966-cı ildə rus dilində nəşr olunmuş "Ermənistan" kitabının müəllifləri erməniləri hayasalıların birbaşa davamçıları hesab edir, "hay" adının da bununla bağlı olduğunu bildirirlər[13].

Tarixi hadisələrə özünün fantastik yanaşması ilə seçilən S.Ayvazyan Hayasanın erməni dövləti olmasını özünəməxsus şəkildə "sübut" etmişdir. O, Metsamorda aşkarlanmış yazıları e.ə. XIX əsrə aid piktoqrafik yazı kimi təsnifləndirərək, onları erməni dilində oxumuş, bundan başqa, guya Metsamor qayaüstü yazıları ilə sinxron olan və üzərində hayasa heroqlifləri həkk olunmuş pulları elm aləminə təqdim etmişdi. S. Ayvazyanın, Ermənistan SSR Elmlər Akademiyasının Xəbərlərində 1964-cü ildə işıq üzü görmüş bu "elmi kəşfi" 1967-ci ildə B.Mkrtıçyan tərəfindən Çexoslovakiyanın "New Orient" jurnalında da çap etdirilmişdi. Bütün bunları fantastik adlandıran B. Piotrovski S. Ayvazyan və B. Mkrtıçyanın saxtakarlıqlarını üzə çıxararaq, e.ə. XIX əsrə aid edilən Metsamor yazılarının həqiqətdə ərəb dilində qəbirüstü yazı olduğunu, yuxarıda qeyd olunan pulların isə, XII – XIII əsrlərdə Azərbaycan Atabəylər dövləti tərəfindən kəsildiyini, orta əsrlərdə indiki Ermənistan ərazisində və Cənubi Qafqaza qonşu vilayətlərdə geniş

13 Шнирельман В.А. Войны памяти: мифы, идентичность и политика в Закавказье. М., 2003, с. 78.

yayıldığını bildirmişdir[14].

Keçən əsrin 70-ci iilərində Hayasa ilə bağlı məqalələr çap etdirən V.N.Xaçatryana görə, hayasa dili hind-avropa dil ailəsinə aiddir, Hayasa çarları və allahlarının het mətnlərində yer almış və hind –avropa dillərinə aidiyyəti olmayan adları isə alınma ola bilər və bu səbəbdən də, onlar nümunə ola bilməz, lakin müəllif sonradan bu barədəki fikirlərini dəyişərək Hayasa çarları və allahlarının adlarını da erməniləşdirir[15]. V.N.Xaçatryan Hayasa ilə bağlı toponimlərə müraciət edərək, belə bir nəticə əldə edir: "...Nairi (Hayasa) toponimlərinin erməni paralelləri özündə erməni dilinin elementlərini ehtiva edir. Bu hayasalıların (nairililərin) hay tayfaları olmasına işarə edir"[16]. Şübhəsiz ki, V.N.Xaçatryanın məsələyə yanaşması son dərəcə qüsurludur, çünki onun metodologiyası ilə, yəni qədim toponimlərin müasir erməni dili ilə müqayisə edilməsi yolu ilə elmi həqiqəti bərpa etmək mümkün deyil. Bu məsələyə diqqət yetirən V.A.Şnirelman qeyd edir ki, "Bu, hayasalıların etnik mənsubiyyəti haqqında uzaq gələcəyə yönəlmiş nəticələrin əldə olunmasında onun üçün əsas olmuşdur... Eyni zamanda, nə Caukyan, nə də Dyakonov Ermənistan yaylasında qədim hind-avropa (o ki, qaldı erməni) toponimləri tapmamışlar"[17]. V.N.Xaçatryan "mənim sözlərimi məqsədyönlü

14 Пиотровский Б. Письмо в редакцию. Ист.-филол. журн. 1971 № 3, с. 302-303.

15 Шнирельман В.А. Указ. соч., с. 82.

16 Хачатрян В. Наири и Армина. Вестн. обществ. наук АН Арм. ССР 1976, № 8, с. 71..

17 Шнирельман В.А. Указ. соч., с. 82.



www.1905.az

şəkildə saxtalaşdırır"[18] deyən İ.M.Dyakonov onun fikirlərini əsassız hesab edir: "V.N.Xaçatryanın "Hayasa" toponimlərinin çoxu qədim Hayasa ilə heç bir əlaqəyə malik deyil – məsələn Qiarnianini, müasir Qarnini götürsə: hansı qədim mənbələrdə bu rayon Hayasaya aid edilir? Heç birində. Onda nəyə görə bu, "Hayasa" adıdır, özü də hayasalıların erməni dilində danışdıqlarını bildirən?"[19] Bu bir daha göstərir ki, erməni müəlliflərinin saxtakarlığı sərhəd tanımır.

İfrat millətçilik mövqeyində duran R.A.İşxanyan ermənilərin əcdadlarının hələ e.ə. IV minillikdə tarix səhnəsində olduqlarını, e.ə. III minillikdə Akkad hökmdarlarının erməniləri tanıdıqlarını və onları işğal etmək istədiklərini bildirir[20]. Ermənilərə dünyanın ən qədim xalqları sırasında yer verən R.A.İşxanyanın fikirlərini elmdə "inqilab" adlandırmaq olar.

"Hayasa" toponimi ilə "hay" etnonimi arasındakı zahiri oxşarlığı əsas götürən bəzi müəlliflər linqvistik materiallardan özlərinəməxsus şəkildə istifadə edərək, müxtəlif konfiqurasiyalar qurur, mülahizələr irəli sürür, nəyin bahasına olursa-olsun hayları Hayasaya bağlamağa çalışırlar. Q.B. Caukyan qeyd edir ki, "Tədqiqatçıların bir hissəsi erməni dilini hayasa dilinin birbaşa davamı hesab edirlər, lakin nə Hayasa ölkəsinin adı ilə ermənilərin özlərinə verdikləri ad arasındakı uyğunluqdan başqa, bu hipotezin xeyrinə hər-hansı tutarlı arqu-

18 Дьяконов И.М. К праистории армянского языка (о фактах. Свидетельствах и логике). Ист.-филол. журн. 1983. №4, с. 156.

19 Yenə orada, s. 157.

20 Шнирельман В.А. Указ. соч., с. 88.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

ment gətirmirlər, nə də gətirilmiş faktlar, Q.Kapantsyanda olduğu kimi, bu müddəanın sübutu ola bilməz"[21].

Q.B.Caukyan hayasa dilinin erməni mənşəli olduğunu, 1987-ci ildə bu barədə məqalə çap etdirmiş S. Petrosyan tərəfindən də "sübut" edildiyini bildirir və dərhal da qeyd edir ki, "zəifliyi və arqumentlərin azlığı üzündən bu məqalə sübutedici qüvvədən məhrumdur"[22].

Hayasa məsələsinə Q.B.Caukyanın özü daha "inandırıcı" üsulla yanaşır, belə ki, hayasa dilinin bilavasitə erməni mənşəli olmasını iddia etməyən bu müəllif, orada ermənilərin "mövcudluğunu" sübut etmək üçün başqa yol tutur. O, Hayasanın etnik cəhətdən rəngarəng olduğunu, müxtəlif dilli tayfalar tərəfindən məskunlaşdırıldığını və ermənilərin bu tayfalardan birini təşkil etdiyini "sübut" etməyə meylli görünür, lakin faktların buna imkan verməməsi onu ehtimallara əsaslanmağa vadar edir. "Ümumiyyətlə, Hayasanın əhalisi yekcins ola bilməzdi və hett-luviya və frakiya elementləri ilə yanaşı, erməni elementinin olması da mümkündür. Bunu, xüsusilə Hayasanın ermənilərin adı ilə bağlı olduğu və hay adının bilavasitə hind-Avropa qatından gəldiyi halda ehtimal etmək olar. Bu halda Hayasaya aid bir sıra adların erməni mənşəli olduğunu güman etmək olar"[23].Fikrini inkişaf etdirən erməni akademik vurğulayır ki, "Biz hələ 1961-ci ildə, əhəmiyyətli sayda Hayasa – qədim Anadolu

21 Джаукян Г.Б. О соотношении хайасского и армянского языков // Историко-филологический журнал, Ереван, 1988. № 1, с. 60
22 Yenə orada, s. 61.
23 Yenə orada.







*Het qanunlarından fraqment (mixi kitabə)*
Mənbə: Дьяконов И.М. Предыстория армянского народа. История Армянского нагорья с 1500 по 500 г. до н.э. Хурриты, лувийцы, протоармяне. Ереван, 1968, с. 58.

paralelləri əsasında Hayasa dilinin qədim Anadolu mənşəli olması ideyasına gəlmişik, beləliklə o, erməni dilinin birbaşa əsası deyil, onun əsas substratıdır. Hal-hazırda bu fikrin doğruluğuna bizim inamımız tərəddüdlüdür". Bu tərəddüdün səbəblərindən bəhs edən Q.B.Caukyan dilin xarakterini müəyyənləşdirərkən adlara – antroponimlərə, teonimlərə və toponimlərə əsaslandığını, bunların isə heç də həmişə həlledici əhəmiyyətə malik olmadığını bildirir. Fikrini əsaslandırmaq üçün erməni dilini nümunə kimi göstərən müəllif vurğulayır ki, adlarda başqa dillərdən alınan təbəqə kifayət qədər böyük ola və hətta üstünlük təşkil edə bilər[24].

Hayasa dilinin erməni dili üçün substrat olması haqqında Q.B.Caukyanın iddiasının heç bir əsası yoxdur, o səbəbdən ki, birincisi hayasa dilinin özü ilə bağlı bütün məsələlərə aydınlıq gətirmək mümkün olmamışdır, ikincisi və ən əsası, e.ə. II minilliyin ortalarında Anadoluda erməni və ya protoerməni dilinin daşıyıcısı olan etnik birlik mövcud olmamışdır.

Hayasalıların dil mənsubiyyətinin həll olunmadığını bildirən İ.M.Dyakonov xüsusi olaraq vurğulayır ki, "heç bir tədqiqatçı onların erməni dilinə mənsubluğu haqqında əsaslandırılmış məlumatlar təqdim edə bilməz"[25]. Bu baxımdan, Q. Kapantsyan, S.Petrosyan, Q.B.Caukyan və baxışlarına görə bu müəlliflərə yaxın olan digərlərinin Hayasanı bu və ya digər yollarla ermənilərə bağlamaq cəhdləri uğursuz addımdır və heç bir elmi əsasa malik deyildir.

24 Yenə orada, s. 62.

25 Дьяконов И.М. Предыстория армянского народа. История Армянского нагорья с 1500 по 500 г. до н.э. Хетты, лувийцы, протоармяне. Ереван, 1968, с. 84.





Yuxarıda qeyd olunduğu kimi, Hayasa Het dövlətinin tərkibinə daxil olmuşdur. Bu dövlətin formalaşdığı ərazinin ən qədim əhalisi elmdə protohetlər adlanır. E.ə. II minillikdə burada, dillərinə görə protohetlərdən fərqli olan və nesitlər (Halis çayından cənubda yerləşən Nesa və ya Neşa ölkə və şəhər adından götürülmüşdür) adlandırılan yeni tayfalar meydana gəlmişdi. Hind-Avropa dillərinə yaxın olan nesit dilindəki bir çox söz yunan, latın, qədim hind və qədim slavyan dillərindəki analoji sözlərlə müqayisə oluna bilər. Öz növbəsində, Het dövləti müxtəlif dillərdə danışan protohet, palay, luviya və nesit tayfaları tərəfindən yaradılmışdır. Uzun sürən proses nəticəsində nesit dili önə çıxmış və Het dövlətinin hüdudlarında het-nesit etnik birliyi formalaşmışdır[26]. Bu proseslərdə erməni dilinə və ermənilərə yer yoxdur, çünki onlar bu dövrdə mövcud olmamışlar.

Hayasa və erməni dilləri arasında qohumluq əlaqələri sübut olunmamışdır, "Hayasa" toponimi ilə "hay" etnonimi arasındakı müəyyən uyğunluq belə, bu terminlər arasında üzvi əlaqənin olmasını sübut etmir[27]. Başqa sözlə, ermənilərin, özlərinin olmadıqları dövrdə mövcud olmuş Hayasaya iddia etmələrinin heç bir elmi əsası yoxdur və bu iddia ciddi elmi dairələr tərəfindən rədd edilir.

26 Авдиев В.И. История Древнего Востока. М., 1953, с. 329-330.

27 Дьяконов И.М. Указ. соч., с. 211.




*Ön Asiya e.ə. II - minillikdə*
Mənbə: История Древнего Востока. Под ред. В. И. Кузищина. М., 2003, с. 182.

*Xəritədə e.ə. II minillikdə Ön Asiyada mövcud olmuş dövlətlər və etnik birliklər göstərilmişdir: Luviya, Artsava, Vilusa, Lidiya, Lukka, Friqiya, Het, Hayasa, Kolxa, Kuriani, Taoxi, Suxme, Alzi, Uruatri, Mitani, Assuriya, Biyani, Manna və s.*

## Urartu və ermənilər

Tarixi xronoloji ardıcıllıqla saxtalaşdırmaqda davam edən və özlərinə aid olmayanı mənimsəmək cəhdlərindən əl çəkməyən ermənilərin uydurma yollarla sahib çıxmağa və erməniləşdirməyə çalışdıqları növbəti dövlət Urartudur.

Urartu adına ilk dəfə Assur çarlarının kitabələrində rast gəlinir. E.ə. XIII əsrin əvvəllərində I Salmanasara aid mətnlərdə Urartu adı tayfa ittifaqını bildirən Uruatri formasında işlədilir. E.ə. X-IX əsrlərin qovşağında II Adadnirariyə aid mətnlərdə Uratri terminine rast gəlinir. Bu adın Urartu forması isə e.ə. IX əsrdən işlədilir və "yuxarı ölkə" mənasını verir [28].

Urartu dövləti e.ə. IX –VI əsrlərdə mövcud olmuş, əsasən Anadolunun bir hissəsini, Cənubi Qafqazın qərb rayonlarını, Van, Urmiya və Göyçə gölləri arasındakı ərazini əhatə edirdi. Dil və mədəniyyət baxımından urartulular hurri-het ənənələrini davam etdirirdilər.

Urartu və hurri dilləri arasında qohumluq əlaqələri artıq şübhə doğurmur [29]. Buna baxmayaraq, mif yaradıcılığını davam etdirən erməni müəlliflər onlara heç bir aidiyyəti olmayan qədim Urartu irsinə sahib çıxmağa çalışırlar. Məsələn, Gevorq Emin ermənilərin Urartu ərazisində, bu dövlətin meydana gəlməsindən əvvəl yaşadıqlarını və Urartunun erməni çarları tərəfindən yaradıldığını iddia edir. S.Ayvazyan Urartu dili ilə müasir erməni dili arasında "fonetik

28 Пиотровский Б.Б. Ванское царство (Урарту). М., 1959, с. 32.
29 Меликишвили. Г. А. Урартские клинообразные надписи. Вестник древней истории, 1953, № 1, с. 292-293.





uyğunluq" tapmış, erməni mixi kitabələrində əlifba yazısının olduğunu və ermənilərin finikiyalılardan daha tez əlifba yaratdıqlarını söyləmişdir. O, əvvəlcə Hayasa, Nairi, Urartu və Ermənistanın eyni dövlət olduğunu bildirir, sonradan isə ümumiyyətlə Urartu adlı dövlətin mövcud olmadığını, onun ərazisində əsrlər boyu Ermənistan dövlətinin inkişaf etdiyini bildirir[30].

K.Patkanyan da urartuluları ermənilərlə eyniləşdirir[31].

V.N.Xaçatryan Hayasanı "erməniləşdirdikdən" sonra Urartuya çatır. O, Urartu dövlətinin, əsassız olaraq erməni hesab etdiyi nairililərin (hayasalıların) e.ə. IX əsrin ortalarında çar Armenin hakimiyyəti altında urartulular və şubarlarla birləşməsi nəticəsində meydana gəldiyini və onun əhalisinin çox hissəsini məhz nairililərin təşkil etdiyini iddia edir. Urartuda rəsmi sənədləşmənin hakim elitanın dilində aparılmasına baxmayaraq, V.N.Xaçatryan nairililərin öz dillərini (yəni erməni dilini) qoruyub saxladıqlarını, urartuluların ağalığına qarşı fasiləsiz olaraq mübarizə apardıqlarını, urartulular və şubarların nairililər tərəfindən assimilyasiyaya uğradıldıqlarını və nəticədə erməni xalqının formalaşdığını göstərir. İ.M.Dyakonova görə, tarixdə nairi adlı tayfa ittifaqı mövcud olmamışdır, Nairi coğrafi addır, V.N.Xaçatryanın iddiaları isə heç bir sübuta əsaslanmır və faktik materialın təhrif olunmasıdır[32].

V.N.Xaçatryandan fərqli olaraq, A.Mnatsakanyan təkcə Urartu əhalisini deyil, həm də hakim elitanı

30 Шнирельман В.А. Указ. соч., с. 77-80.
31 Акопян Эд.А.. Указ. соч., с. 70.
32 Шнирельман В.А. Указ. соч., с. 82-84.




*Ön Asiya e.ə. I minilliyin birinci yarısında*
Mənbə: Авдиев В.И. История Древнего Востока. М., 1953, с. 472-473

*Xəritədə e.ə. I minilliyin birinci yarısında Ön Asiyanın şimalında mövcud olmuş dövlətlər göstərilmişdir: Lidiya, Kariya, Likiya, Arzava, Pala, Kaska, Het, Kummux, Mitanni, Alzi, Urartu, Assuriya və s.*

ermənil əşdirir[33] və bu zaman S.T.Yeremyanın fikirlərini təkrarlayır. Sonuncu e.ə. VII əsrdə Urartunun erməni sülaləsi tərəfindən idarə olunduğunu bildirir və bunu erməni dövlətçiliyinin başlanğıcı hesab edir, Araz və Ararat vadilərini erməni dövlətçilik ənənələrinin formalaşdığı ərazi kimi qiymətləndirir[34]. Başqa sözlə, S.T.Yeremyan erməniləri regionun aborigenləri sırasına daxil etməyə cəhd edir.

Araz və Ararat vadilərinin ermənilər tərəfindən məskunlaşdırılması ideyası X.Samvelyan, A.Arutyunyan, S.P.Poqosyan, A.R. İonnisyan, B.N. Arakelyan, V.A.Parsamyan, M.İ.Nersisyan tərəfindən də müdafiə olunur. Onlardan bəziləri məskunlaşma prosesini e.ə. V əsrə aid edir və e.ə. 316-cı ildə bu ərazidə Ayrarat dövlətinin yarandığını iddia edir, digərləri bu dövlətin daha tez, e.ə. VI əsrin birinci yarısında yarandığını bildirir, başqaları isə Araz və Ararat vadilərinin ermənilər tərəfindən urartuluların köçürmə siyasəti nəticəsində məskunlaşdırıldığını önə çəkir və s[35]. Fikirlərin üst-üstə düşməməsi və ziddiyyətli xarakter daşıması sübhəsiz ki, müəlliflərin sərəncamında ciddi faktların və mənbələrin olmaması və onların məsələyə volyuntarist yanaşmaları ilə bağlıdır.

Erməni müəlliflərdən M.A.Katvalyan da erməni xalqının formalaşmasını Urartu ilə bağlayır, o, bu dövlətin mərkəzini Van gölündən şimalda yerləşdirir (V.A. Şnirelman müasir tədqiqatçılardan heç kimin buna risk etmədiyini bildirir), onun qənaətinə görə, Urartu adı Ararat adından törəmiş və aborigen

33 Yenə orada, s. 85.
34 Yenə orada, s. 70.
35 Yenə orada, s. 75.





əhali (ermənilər nəzərdə tutulur) Urartu çarlarına qarşı mübarizə aparmamış (V.N.Xaçatryan bunun əksini iddia edirdi), dövlətin əhalisi xarici təhlükəyə, Assuriya təhlükəsinə qarşı birləşmişdi[36].

R.A.İşxanyan Urartu məsələsinin "asan həlli yolunu" tapmışdır. O, Urartudan imtina edir, ermənilərin e.ə. IX – VII əsrlərə aid tarixini "Van çarlığı" ilə bağlayır. Eyni zamanda qeyd edir ki, "Ermənilərin və ya erməni xalqının tarixini erməni dilinin meydana gəldiyi vaxtlardan başlamaq lazımdır, yəni erməni dilinin daşıyıcıları - həm qədim dövrdə, həm orta əsrlərdə, həm də hal-hazırda ermənilərdir (və ya erməni xalqıdır)"[37]. Erməni dili və dövlətinin sinxronluğu ideyasını irəli sürərkən R.A. İşxanyan nəzərə almır ki, e.ə. IX–VII əsrlərdə erməni xalqı kimi, erməni dili də mövcud olmamışdır. E.Q.Tumanyan qədim erməni dilinin bizim eranın V əsrində formalaşdığını bildirir[38].

Erməniləri qədimləşdirmək naminə tarixi saxtalaşdırmaq işinə öz imzasını atmış A. Petrosyan da etiraf edir ki, Urartu yazıları erməni dilində deyildir, bununla belə o, müasir ermənilərin əcdadlarının Urartu ərazisində ilk vaxtlardan yaşadıqları, dövləti yaradan urartuluların özlərinin isə gəlmə olmaları barədə fikirlərə şərik çıxır. Ardini, Kumenu və Şivinini Urartu panteonunun baş allahları hesab edən A.Petrosyan, onlardan birinci ikisini Haldi və Teyşebani, üçüncünü isə Van şəhəri ilə əlaqələndirir. Eyni zamanda Vanın cənubdan gələnlər (urartulular nəzərdə tutulur) tərəfindən işğal olunduğunu bildi-

36 Yenə orada, s. 84-85.
37 Yenə orada, s. 87-88.
38 Туманян Э.Г. Древнеармянский язык. М., 1971, с. 5.

rir, buna əsaslanaraq Urartu dilinin və hakim sülalənin vətəni kimi, bu dövlətin tərkibinə daxil olmayan cənub rayonlarını göstərir, Urartu dövlətinin və mədəniyyətinin də məhz bu azsaylı cənublular tərəfindən yaradıldığını, onların dövlətdə hakim təbəqəni təşkil etdiklərini bildirir: "Abidələr, gil kitabələr və s. daxil olmaqla, Urartu mədəniyyəti ölkənin geniş əhali kütlələri tərəfindən deyil, əsasən dövlətin yüksək təbəqələri tərəfindən yaradılmışdır. Məğlub olmuş ölkələrdə şəhərlər və qalalar imperiyaya loyal, lakin etnik cəhətdən homogen olmayan, bəzən uzaq vilayətlərdən köçürülmüş əhali tərəfindən məskunlaşdırılırdı. Saxsıdan başlamış məbədlərə qədər Urartu mədəniyyət abidələri bu mərkəzlərdə cəmlənmişdir". A.Petrosyana görə, yerdə qalan əhali dövlətin birbaşa nəzarətindən kənarda yaşayır, onlar özlərinin mahiyyət etibarı ilə Uurartu mədəniyyətindən fərqli olan əvvəlki mədəniyyətlərini, həyat tərzini saxlayır və eyni zamanda Urartu dövləti ilə düşmənçilik edirdilər[39].

Urartu dövlətinin e.ə. IX-VI əsrlərdə mövcud olduğu və A.Petrosyanın qeyd etdiyi kimi, Urartu dövlətinin və mədəniyyətinin hakim təbəqə tərəfindən yaradıldığı, bu dövlətin imperiyaya çevrildiyi və orada köçürmə siyasətinin həyata keçirildiyi nəzərə alınsa, onda digər etnosların üç əsr ərzində özlərini kifayət qədər güclü olan hakim təbəqənin siyasi-hərbi və mədəni təsirindən necə qoruduqları sualı meydana çıxır. A.Petrosyan bu məsələlərin üzərindən sükutla keçir.

39 Петросян А. О происхождении армянского народа: проблема идентификации протоармян (критический обзор) // Армянский гуманитарный вестник. 2/3, 2009, с. 70-71.



www.1905.az



*Urartu döyüşçüləri hərb arabasında (Karmir Blur)*

Mənbə: www. historic.ru

Həqiqətdə Urartu mədəniyyəti əsasən şəhərlərdə, köçürmə nəticəsində bu şəhərlərdə məskunlaşan əhalinin də iştirakı ilə inkişaf edirdi. Qeyd olunan şəhərlərin bəziləri coğrafi cəhətdən indiki Ermənistan Respublikasının ərazisində lokallaşdırılsa da, ermənilərin əcdadlarını Urartu mədəniyyətinin yaradıcıları sırasına daxil etmək düzgün deyildir, çünki onlar e.ə. VII əsrdə, friqiyalıların bir qolu kimi başqa istiqamətə, Fərat çayı sahillərinə miqrasiya etmişdilər, həm də tabe vəziyyətdə olduqları üçün regionda gedən proseslərə təsir imkanlarından məhrum idilər. O ki qaldı Urartuya daxil olan müxtəlif tayfaların öz mədəniyyətlərini və həyat tərzlərini qoruyub saxlamalarına, bu tezisin də həqiqəti əks etdirdiyini hesab etmək olmaz, çünki burada urartu-hurri qohumluğu əsasında güclü bir mədəniyyət formalaşmışdı. Bu mədəniyyətin təsir imkanları o dərəcədə güclü idi ki, hətta Uratunun mövcud olduğu ərazi gələcəkdə Əhəməni dövlətinin nəzarətinə keçdikdə belə, "kütləvi xalq mədəniyyəti bir çox hallarda Urartu ənənələrini davam etdirirdi"[40]. Belə bir şəraitdə xırda və dağınıq tayfaların Urartuya siyasi-hərbi və mədəni müqavimət göstərməsi sadəcə mümkün deyildi.

İ.M.Dyakonov da Urartunu qüdrətli dövlət hesab edirdi. E.ə. VIII əsrin ortalarına doğru "...Urartu gücünə görə az qala Assuriyanı üstələyəcəkdi. Urartu inzibati sistemi o dərəcədə təkmil idi ki, mümkündür ki, Assuriyada uyğun islahatların keçirilməsi üçün nümunə olmuşdu... Arme-Şubriya və Hubuşkiya is-

40 История Древнего Востока. Под. ред. В.И. Кузищина. М., 2003 с. 215.



www.1905.az



Van gölü sahilində Urartu qalası
Mənbə: Авдиев В.И. История Древнего Востока. М., 1953 с. 475.

tisna olmaqla, Erməni yaylası bütövlükdə, Mərkəzi və Qərbi Zaqafqaziyanın əhəmiyyətli hissəsi urartulular tərəfindən işğal olunmuşdu, urartulular Yuxarı Fərat vadisində hələlik möhkəmlənə bilməmişdilər, lakin artıq Yuxarı Suriya İttifaqının "himayədarı" kimi qəbul edilmişdilər"[41].

Gürcü mütəfəkkiri İ.Q.Çavçavadze Urartunu erməni dövləti kimi təqdim edənlərə "fəryad edən daşların" dili ilə etiraz edir. O, Q.Qolmstremə istinadən bildirir ki, Dəclə və Fərat çaylarının yuxarılarında, Van, Urmiya, Göyçə gölləri ətrafında çoxlu sayda tayfa yaşayırdı. E.ə. X – IX əsrlərə aid Assuriya mənbələrində "nairi" adlandırılan bu tayfalar, e.ə. IX əsrdə bir dövlətdə, Urartu dövlətində birləşdilər. Mərkəz kimi əvvəlcə İrəvan çökəkliyini seçən, lakin sonradan strateji amilləri nəzərə alaraq onu Van gölü ətrafına köçürən urartulular öz mədəniyyətlərini assur-babillərdən əxz etmişdilər. Assur kitabələri Urartu mədəniyyəti, burada şəhərlərin və sarayların meydana gəlməsi, kanalların çəkilməsi və s. haqqında məlumat verir,[42] lakin bu kitabələr ermənilərin mənşəyini urartulular ilə bağlamaq üçün əsas ola bilməz[43].Bundan başqa, İ.Q.Çavçavadze fransız alimi Lenorman və ingilis alimi Raulinsin tərəfindən müdafiə olunan maraqlı bir fikrə də istinad edir: urartu dili və mixi yazılar ermənilərə deyil, alarodilərə aiddir, "nə bu dil, nə xalq erməni dili və xalqı ilə heç bir qohumluğa malik deyil"[44].

41 Дьяконов И.М. Указ. соч., с. 162-163.
42 Чавчавадзе И.Г. Армянские ученые и вопиющие камни.Тифлис 1902, с. 85-86.
43 Yenə orada, s. 94.
44 Yenə orada, s. 94-95.





Linqvistik və mədəni xüsusiyyətləri baxımından urartulular hurrilərə yaxın idilər. İ.M.Dyakonov ilk vaxtlarda urartulular və hurrilərin bir etnos olduqlarını güman edir[45].

Etnik dövlət və dil uyğunluğu məsələsi emosiya və hisslərə qapılaraq mif yaradıcılığı ilə məşğul olan ermənilərin əsərlərində qaranlıq qalan məqamlardandır. Onların "erməniləşdirdikləri" qədim dövlətlərin əhalisi çox vaxt erməni dilinin daşıyıcıları olmurdu. Məsələn, qədim erməni dili haqqında irihəcmli əsərin müəllifi olan E.Q.Tumanyan erməni dilinin tarixini üç mərhələyə bölür: qədim dövr (V-XI əsrlər), orta dövr (XII-XVI əsrlər) və yeni dövr (XVII əsrdən hal-hazıradək). Göründüyü kimi, müəllif qədim erməni dilinin başlanğıc nöqtəsi kimi V əsri götürür. O, bu haqda qeyd edir ki, "Orijinal erməni əlifbası və onunla birlikdə ədəbiyyatı bizim eranın IV əsrinin sonu – V əsrinin əvvəllərində meydana gəlmişdir. Qədim erməni dili günümüzə çoxsaylı abidələrdə, daha çox tarixi, fəlsəfi və dini janrlarda gəlib çatmışdır. Bizim eranın V əsrinin, daha dəqiqi, onun birinci yarısının abidələri daha nümunəvi hesab olunur". Daha qədim zamanlara gəldikdə isə, E.Q. Tumanyanın bildirdiyinə görə, e.ə. VII – II əsrlərdə ermənilər qonşu tayfaları assimilyasiyaya uğradır, bu zaman İran, yunan, Suriya və s. dillərdən çoxlu sayda söz erməni dilinə keçirdi, ermənilərin bu dövrdə əlifbası olmadığı üçün, onlar saray işlərində, təhsildə və ibadət zamanı yunan, suriya və fars dillərindən istifadə edirdilər[46]. Əgər, bəzi erməni müəlliflərin iddia et-

45 Дьяконов И.М. Указ. соч., с. 17.
46 Туманян Э.Г. Указ. соч., с. 5-6.

dikləri kimi, onların dövlətçilik ənənələri e.ə. III minillikdən başlayırsa, ermənilərin Hayasa, Urartu və s. kimi qədim dövlətləri mövcud olmuşdusa, onda bu "qüdrətli" xalqın yazı mədəniyyəti hansı səbəbdən bizim eranın V əsrinə qədər gecikmişdir? Cavab sadədir. Qeyd olunan dövlətlərin ermənilərlə heç bir əlaqəsi olmamışdır. Ermənistan adlı coğrafi ərazidə isə müxtəlif inkişaf səviyyəsində olan çoxlu sayda müxtəlif tayfalar yaşayırdı.

Erməni dili ilə bağlı oxşar sual K.Patkanyan tərəfindən də qoyulur: "E.ə. V əsrə qədər ermənilərin özlərinin əlifbası, çox güman ki, yazılı ədəbiyyatı olmamışdır, baxmayaraq ki, bütün qonşularının çoxdan yazısı olduğu halda, geniş bir dövlətin, bir çox yüzilliklər ərzində yazıda öz dilindən istifadə etməməsini təsəvvür etmək çətindər... Digər tərəfdən, V əsrədək ermənilərdə ədəbi dilin tamamilə istisna təşkil etməsini ehtimal edərək, V əsrin birinci yarısında onun qəfildən, tam mükəmməl şəkildə... meydana gəlməsini nə ilə izah etməli?[47]"

Ümumiyyətlə, məqsədləri ermənilərin Van gölü ətrafındakı ərazilərə və Cənubi Qafqaza miqrasiya prosesləri nəticəsində gəlmələri haqqındakı konsepsiyalara kölgə salmaq olan bu müəlliflərin fikirləri tarixi həqiqətlə kolliziya yaradır, bu səbəbdən də, onlar öz iddialarını əsaslandırmaqda çətinlik çəkir, çox vaxt bir-birini təkzib edirlər. Bu o dərəcədə aşkar bir haldır ki, hətta erməni müəlliflərin özləri də bunu etiraf etmək məcburiyyəti ilə üzləşirlər. Məsələn,

47 Патканов К.П. Ванские надписи и значение их для истории Передней Азии // Журнал Министерства Народного Просвещения Январь 1875, часть CLXXVII, с. 172.Լրաբերգիտությունների հասարակական





B.A. Arutyunyan son dövrlər Ermənistan tarixşünaslığı haqqında danışarkən qeyd edir: "Ermənilərin mənşəyi haqqında Balkan nəzəriyyəsi ciddi tənqidə məruz qalmış, nəyin bahasına olursa-olsun Urartunun Ermənistan ilə identikliyini sübut etməyə cəhdlər olmuşdur"[48]. Bəli, məhz nəyin bahasına olursa-olsun, yəni məqsəd vasitəni müəyyənləşdirir.

Tarixi vətən axtarışında olan ermənilər bu sahədə artıq müəyyən "uğurlar" da əldə etmişlər. Fidanyanlar, sarkisyanlar, yüzbaşyanlar, yeremyanlar tərəfindən bu vaxta qədər ondan çox "Ermənistan dövləti" kəşf edilmişdir. Onların hazırladıqları xəritələrdə Birinci Ermənistan, İkinci Ermənistan, Üçüncü Ermənistan, Dördüncü Ermənistan, Dərin Ermənistan, Daxili Ermənistan, Böyük Ermənistan, Yustinian Ermənistanı, Mesopotamiya Ermənistanı, Kiçik Ermənistan, Kilikiya Ermənistanı, Qərbi Ermənistan, Şərqi Ermənistan, Baqratidlər Ermənistanı, Bizans Ermənistanı, Türkiyə Ermənistanı, Persiya Ermənistanı və s. özünə yer almışdır[49]. Öz erməni həmkarlarının yolu ilə gedən A.Şaginyan erkən orta əsrlərdə Qara dəniz, Xəzər dənizi və Aralıq dənizi arasındakı coğrafiyada əsasən "erməni dövlətlərinin" mövcud olduğunu iddia edir və bunu özünün hazırladığı xəritələr vasitəsilə "sübut etməyə" çalışır[50].

Ermənilərin tarixi saxtalaşdıraraq Urartuya sahib çıxmaq istəklərini motivasiya edən səbəblərdən

48 Арутюнян Б.А. Историческая наука в Армении в 1988-1998 гг. Краткий очерк. // = Herald of the Social Sciences, № 2, 2004, с. 66.
49 Мусульманский М. Почему армяне не являются автохтонами Каваза? // İrs, № 34, 2008, с. 40.
50 Шагинян А.К. Раннесредневекоая география Армении и стран Южного Кавказа. СПб, 2014.

biri də, tarixin erkən dövrlərində onların öz dövlətçilik ənənələrindən məhrum olmaları və dünyanın müxtəlif ölkələrinə səpələnmələri ilə bağlıdır. Urartu və regionun digər qədim dövlətlərini "özəlləşdirmək" ermənilərə daha çox, öz qonşularına qarşı əsassız ərazi iddiaları irəli sürərkən tarixi hüquq anlayışına istinad etmək üçün lazımdır.





## Ermənilərin mənşəyi haqqında

Ermənilərin mənşəyi haqqında danışarkən "erməni", "Ermənistan", "hay", "Hayastan" etno-toponimlərinə aydınlıq gətirmək zərurəti meydana çıxır. Məlumdur ki, ermənilər özlərini "hay" etnonimi, yaşadıqları ölkəni isə "Hayastan" toponimi ilə identifikasiya edirlər. Ermənistandan kənarda bu xalq "erməni", "armyanin", "virmen" və s., ölkə isə "Ermənistan", "Armeniya", "Virmeniya" və s. adlar ilə tanınır.

"Ermənistan"ın coğrafi termin olması elmə çoxdan məlum olan bir faktdır. "Tarixin atası" Herodot Ermənistanı Fərat çayının başlanğıcında[51], Assuriyanın yuxarılarında lokallaşdırır[52].

F.Maklerə görə Ermənistan ən qədim zamanlardan coğrafi məkan kimi tanınmış və bu ərazi heç də həmişə ermənilər tərəfindən məskunlaşmamışdı. Burada yaşayan əhali bizim klassik erməni dili və ya qrabar kimi tanıdığımız dildə danışmamışdır[53].

Erməni müəlliflərindən K. Patkanyanın əldə etdiyi nəticəyə görə "Ermənistan dövlət kimi bəşər tarixində xüsusi vacib rol oynamamışdır və ölkənin adı yalnız coğrafi termin idi..."[54].

Erməni müəllif L. Nalbandyan qeyd edir ki, e.ə. IX əsrdə Ermənistan adlı torpaq Urartu tərəfindən işğal edilmiş və bu ərazilərin əhalisi ari ol-

51 Геродот. История, М., 2001, с. 79.
52 Yenə orada, s. 85.
53 Frederic Macler, La Nation armenienne, son passe, ses malheurs, Paris, 1924, p. 18.
54 Патканов К.П. Указ. соч., с. 149.

mamışdı. E.ə. VIII və VII əsrlərdə Urartuya yeni xalqların müdaxilə etdiyini diqqətə çatdıran müəllif, bu yeni xalqları friqiyalılar və ermənilərlə eyniləşdirir[55]. Göründüyü kimi, L. Nalbandyan da e.ə. IX əsrdə Ermənistanı ermənilərin yaşamadığı bir coğrafiya kimi göstərir.

Ararat vilayəti və Vanda ən qədim zamanlardan gürcülərin yaşadığını iddia edən F.Lenormana görə, onlar e.ə. VII-VI əsrlərdə özlərinə yeni vətən əldə etmiş Friqiya erməniləri tərəfindən sıxışdırılmışdılar. "Assuriya kitabələrində Ermənistan sakinləri urartulular adlanır, belə ki, bu zaman Ermənistanda həqiqi ermənilər yox idi, aydındır ki, urartulular – araratlılar və ya aloridilər ermənilərin hücumlarına qədər Ermənistanı məskunlaşdıran tayfalar olmuşlar, yəni gürcü idilər"[56]. Regionun ən qədim zamanlardan gürcülərə məxsus olması tezisinin ayrıca tədqiqat obyekti olduğunu nəzərə alaraq, qeyd edək ki, F.Lenorman da Ermənistan ərazisinin ermənilərin ilkin vətəni olmadığı fikrini müdafiə edir.

2003-cü ildə V. İ. Kuzişinin redaktəsi altında rus dilində nəşr olunmuş "Qədim şərq tarixi" kitabının müəllifləri də "Ermənistan"ın coğrafi ad olması faktına diqqət yetirmişlər: "Armina, Ermənistan: görünür bu ad, hərfi mənası "Arame ölkəsi" olan Arme adından əmələ gəlmişdir". Armina, e.ə. VII əsrin sonlarında meydana gəlmiş sonrakı Het çarlığı Melid-Kammanunun cənub-şərq vilayəti olmuş, sonradan Midiya və Persiya dövlətlərinin nəzarətinə keçmiş, e.ə. VI əsrdə burada müstəqil erməni çarlığı meydana gəlmiş və keçmiş Urartunun digər vilayətləri ilə birlikdə Persiyanın tərkibinə daxil olmuşdu. Zərdüştilik Ermənistana əhəmiyyətli təsir göstərirdi[57].

E.ə. I minilliyin ortalarına qədər Ermənistan adlanan coğrafiyada qeyri hind-avropa dil ailələrinə, əsasən də sami (semit) dil ailəsinə mənsub olan müxtəlif tayfalar yaşamışlar. "Erməni" və ya "armen" adı, yaşadıqları ərazinin adına uyğun olaraq, ümumilikdə bu tayfalara verilən adlardır. Başqa sözlə, e.ə. I minilliyin ortalarına qədər Ermənistan adlı ərazidə yaşamış "erməni" və ya "armen" tayfalarının müasir ermənilərin əcdadları olan haylarla heç bir əlaqəsi yoxdur. Haylar sonradan bu əraziyə gəlmiş və Urartunun süqutu nəticəsində zəif düşən yerli əhali ilə toqquşaraq onlara üstün gəlmiş və burada məskunlaşmışlar.

Bəzi erməni müəlliflər tarixi gerçəkliyin əksinə gedərək, ermənilər və hayları eyniləşdirməyə çalışır və bu zaman bir-birinə zidd olan fikirlər irəli sürməkdən özlərini sığortalaya bilmirlər. Rus yazıçısı M.Qorkinin sözləri ilə desək, "faktlar yaman tərs şeydir". Məsələn, erməni xalqının formalaşması prosesinin e.ə. XII əsrdə başlandığını iddia edən K. Patkanyan armen və hay tayfalarının hər ikisini erməni tayfası kimi qəbul edir: "Erməni dövlətinin nüvəsi Araz ətrafında, erməni tayfaları-

55 Nalbandian L., The Armenian Revolutionary Movement. Los Angeles, 1963, p. 3-4.

56 Патканов К.П. Ванские надписи и значение их для истории Передней Азии // Журнал Министерства Народного Просвещения. Январь 1874, часть CLXXI, с. 111.

57 История Древнего Востока. Под. ред. В.И. Кузищина. М., 2003, с. 214.

nın məskunlaşdığı Ermənistanın özündə formalaşmışdır. Ermənilər Arazı keçərək və öz sərhədlərini genişləndirərək cənubi Ermənistanda hay tayfaları ilə toqquşdular. Güman olunur ki, ermənilər haylar tərəfindən məğlub edilmiş, onların xalq adı birdən hər iki tayfa üçün ümumi olmuşdu[58]."Göründüyü kimi, K.Patkanyan armen və hay tayfalarının bir-birinə düşmən münasibət göstərdiklərini söyləsə də, əcdadları kimi qəbul etdiyi bu iki tayfanın hansı səbəbdən bir-birinə düşmən kəsildiyini izah edə bilmir.

Beləliklə, haylar Van gölü sahillərinə gələrək, zaman keçdikcə yerli əhalinin mədəniyyətinə yiyələnmiş və yeni məskunlaşdıqları ərazinin adına uyğun olaraq, başqaları tərəfindən "erməni" və ya "armen" adlandırılmağa başlamışlar. Başqa sözlə, özlərini hay adlandıranlar başqaları üçün erməni oldu.

Haylara gəldikdə isə, onların Van gölü ətrafı rayonlara miqrasiya prosesləri nəticəsində, friqiyalılarla birlikdə gəlmələri faktı öz təsdiqini tapır. Bunun əksini sübut etməyə çalışanların əsaslandıqları dəlillər isə heç bir tənqidə tab gətirmir.

Herodota görə "...şərqdə lidiyalılarla sərhəddə friqiyalılar... friqiyalılardan sonra kappadokiyalılar gəlir... Onların qonşuları – torpaqları Aralıq dənizinə qədər uzanan kilikiyalılar... burada kilikiyalılar ermənilərlə, ermənilər matienlərlə sərhəddirlər"[59]. "Tarixin atası" bunun ardınca qeyd

58 Патканов К.П. Ванские надписи и значение их для истории Передней Азии // Журнал Министерства Народного Просвещения. Июнь 1875, часть CLXXIX, с. 311.

59 Геродот. Указ. соч., с. 320.





edir ki, "Friqiya torpaqlarından köçən ermənilər Friqiya silahlarına malik idilər"[60].

Herodotun verdiyi məlumatları əhəmiyyətli mənbə hesab edən rumın tədqiqatçı Vlad Benetsyanu da erməniləri friqiya mənşəli hesab edir. "Hətta e.ə. ikinci minillikdə Fessaliyanın şimalında ermənilərin və friqiyalıların yaşadıqları dövrə aid məlumatların yoxluğunu diqqətə alaraq, biz onların qohumluğunun təsdiq olunmasını tamamilə mümkün hesab edirik. Qədim tarixin öyrənilməsi əhəmiyyətli dərəcədə Miletli Hekatey və ya Heredot kimi ciddi tarixçilərin verdikləri məlumatlara əsaslanır, erməniləri friqiyalılara qohum xalq kimi təqdim edərkən, onların yalan məlumat vermələri bizə inanılmaz görünür. Son tədqiqatlar Herodotdan alınan məlumatların düzlüyünü dəfələrlə təsdiq etmişdir"[61].

Rusiya İmperator Arxeoloji Cəmiyyətinin həqiqi üzvü, S.Peterburq və Brüssel universitetlərinin professoru, Bizans və erməni tarixi üzrə tədqiqatların müəllifi N.Q.Adonts e.ə. VIII əsrdə skiflər və saklar tərəfindən sıxışdırılan kimmerlərin şərqdən qərbə doğru hərəkət etdiklərini və Dunay sahillərinə üz tutduqlarını, oradan isə Frakiyaya keçdiklərini, friqlər və ermənilərin də daxil olduqları Frakiya tayfalarını özləri ilə götürərək, Kiçik Asiya istiqamətində irəlilədikləri haqqında məlumat verir. "...alimlər hesab edirlər ki, ermənilər, ilkin olaraq Frakiyada yaşamış friqiya tayfalarına aid olmuşlar. Hesab olunur ki, onlar kim-

60 Yenə orada, s. 427-428.

61 Бэнэцяну В. Некоторые вопросы этногенеза армян. // Историко-филологический журнал, 1961, № 2, с. 101-102.

merlərin hərəkət dalğasının əhatəsinə düşərək, oradan Kiçik Asiyaya köç etmiş və sonra özlərinin friqiyalı soydaşlarından ayrılaraq, irəli getmiş və Fəratın sağ qolu olan Alisa çayının yuxarılarında məskunlaşmışlar"[62].

Rus qafqazşünası İ.İ.Şopenə görə "ermənilər mahiyyətcə gəlmədirlər. Bu – Anadolunun şimal vadilərinə keçmiş friqiyalıların və ioniyalıların nəslindəndir"[63].

İ.Q.Çavçavadze e.ə. IX əsrin sonu VIII əsrin əvvəllərinə aid edilən Van mixi kitabələrində xatırlanan etnosların arasında erməniləri tapmır. "...e.ə. VIII yüzilliyin sonlarına qədər və ya... e.ə. VI əsrin əvvəllərinə qədər Van ətrafında ermənilər haqqında heç bir işarə yox idi... necə ki, bu, hal-hazırda elm adamları tərəfindən etiraf olunur, necə ki, bu, hətta erməni professoru Patkanov tərəfindən yazılı şəkildə təsdiq olunur"[64].

XIX əsrin 60-cı illərinin əvvəllərində Mesrop adlı keşiş Eçmiədzinin şimali-qərbində bir neçə mixi kitabə aşkar etmiş və onlar ermənilərin tarixi abidələri kimi qiymətləndirilmişdi, lakin sonradan müəyyən olunmuşdu ki, "mixi kitabələr erməni dili ilə heç bir əlaqəsi olmayan dildə yazılmışdır"[65], lakin bunun erməni müəlliflər üçün heç bir əhəmiyyəti yox idi. Tarixi həqiqətlərə irrasional yanaşma nümayiş etdirən "erməni alimlərin ayrılmaz keyfiyyəti - inadkarlıq yolu ilə öz məqsədlərinə nail olmaqdır... onlar öz hesablamalarına daxil olmayan hər şey barədə susmağa çalışırlar, hətta

62 Мусульманский М. Указ. соч., с. 42-43.63 Yenə orada, s. 42.
64 Чавчавадзе И.Г Указ. соч., с. 100-101.
65 Yenə orada, s. 110.





bu, danılmaz həqiqət olsa belə"[66]. Onlar bu inadkarlığı Urartuya aid olan Van kitabələrinə münasibətdə də nümayiş etdirmişlər. Erməni mif yaradıcıları e.ə. IX-VIII əsrlərin məhsulu olan kitabələri saxtakarlıq yolu ilə mənimsəməyə çalışmış, bunun üçün bu kitabələrin yaşını süni surətdə azaldaraq, onları e.ə. VI əsrə aid etmişlər. Məqsəd aydın idi. "Van kitabələri əhəmənilərdən əvvəlki dövrə aiddir, ermənilər isə Ermənistanda məhz əhəmənilər zamanında üzə çıxmışlar, buna qədər onlar orada olmamışlar, - buna görə də, erməni alimləri sübut etməyə çalışırlar ki, yazılar Assuriya dövrünə deyil, əhəmənilər dövrünə aiddir"[67].

Erməniləri hind-avropa dil ailəsinə aid edən Pasdermacyan, onların e.ə. VII və ya VI əsrlərdə kimmerlər və friqiyalılarla birlikdə qərbdən Balkanlara və Kiçik Asiyaya, oradan isə şərqə, Qafqaza doğru irəlilədiklərini etiraf edir[68].

Erməni filoloqu, akademik M.X.Abeqyan da ermənilərin köç nəticəsində Kiçik Asiyaya gəlmələri haqda söylənilən fikirlərə şərik çıxır: "Ermənilərin əcdadları bizim eradan çox əvvəl Avropada, yunan və frakiyalıların əcdadlarının yaxınlığında yaşayırdılar. Onlar oradan Kiçik Asiyaya keçmiş, güman olunur ki, bir müddət friqiyalılarla qonşuluqda yaşamışlar, belə ki, yunan yazıçısı Heredot erməniləri friqiyalılardan törəmiş koloniya hesab edir"[69].

Bütün bu fikirlər ermənilərin mənşəyi məsələ-

66 Yenə orada, s. 111.
67 Yenə orada, s. 112.
68 Pasdermadjian H., Histoire de l'Armenie, p. 23, Paris, 1949, p. 23.
69 Мусульманский М. Указ. соч., с. 43.

sinə işıq salır, onların hal-hazırda yaşadıqları ərazilərə gəlmə olduqlarını sübut edir.





# II.CƏNUBİ QAFQAZA ERMƏNİ KÖÇLƏRİ

## XVIII əsrədək olan dövrdə ermənilər və Cənubi Qafqaz

Müasir ermənilərin əcdadları e.ə. VII-VI əsrlərdə friqiyalıların bir qolu kimi Balkanlardan gələrək, əvvəlcə Fərat çayının yuxarılarında məskunlaşmış, sonradan isə şimala doğru hərəkət edərək Van gölü sahillərində özlərinə yeni vətən tapmışdılar. Burada baş verən proseslərə ciddi təsir göstərmək imkanına malik olmayan ermənilər çox vaxt regiondakı iri dövlətlərin (Əhəmənilər, Roma, Sasanilər, Bizans və s.) tabeçiliyində olmuş, onların hərbi yürüşlərində iştirak etmiş və məqam düşdükdə öz ağalarının yardımı ilə qonşu xalqlar üzərinə hücum edərək, onların torpaqlarında məskunlaşmağa can atmışlar. Ermənilərin Cənubi Qafqaza ilkin gəlişləri də məhz hərbi yürüşlərlə bağlıdır. "Ermənilərin ilk dəfə Cənubi Qafqazda peyda olmaları təxminən e.ə. II əsrdən sonralara təsadüf edir. Onların regiona daxil olmaları ilə yerli dövlətlərə və xalqlara qarşı təcavüzkar fəaliyyətləri də başlanır"[70]. "Ermənilər Zaqafqaziya vilayətlərində Artaksiya və Zariadriyanın işğalçılıq müharibələrindən tez olmayaraq, yəni e.ə. II əsrdən sonra meydana gələ bilərdilər... "[71].

---

70 Mahmudov Y. Şükürov K. Qarabağ: Real tarix, faktlar, sənədlər. Bakı, 2005. s. 18.

71 Алиев И. Лжеистория – очередная попытка оправдать агрессию. Баку, 2003, с. 26.




*Qafqaz Albaniyası (5-8 əsrlər)*
Mənbə:www.azerbaijan.az

*Xəritədə V-VIII əsrlərdə tarixi Azərbaycan dövləti olan Qafqaz Albaniyasının sərhədləri və vilayətləri göstərilmişdir.*

Erməni tarixçiləri (S.T.Yeremyan, B.A.Ulubab-yan, A.Ş.Mnatsakanyan və başqaları) çox vaxt bu yürüşlər zamanı hücum obyekti olan əraziləri öz əcdadlarının əzəli torpaqları kimi qələmə verməyə, regionun avtoxton xalqlarının mədəniyyətini və tarixini mənimsəməyə çalışır və həqiqi tarixi faktlara söykənmədikləri üçün uğursuzluğa düçar olurlar. Bu uğursuzluq həm də ermənilərin, yüz illər bundan əvvəl formalaşmış etno-psixoloji xarakteri ilə bağlıdır. Möhkəm dayaqlara malik olan sistem yaratmaq, dövlətçilik ənənələri formalaşdırmaq qabiliyyəti, vətən hissi onlara yaddır. Bu məsələyə toxunan erməni tarixçisi Qevorq Aslan qeyd edir: "Ermənilərdə dovlətcilik olmamışdır. Onlar vətən hissi və siyasi bağlarla bağlı deyillər. Erməni vətənpərvərliyi yalnız yaşadıqları yerlə bağlıdır"[72].

Cənubi Qafqazın alloxtonları olduqları halda, ermənilərin bu gün azərbaycanlılar və gürcülərin əzəli torpaqlarına iddia etmələri nonsensdir. Onların sahib çıxmaq istədikləri ərazilər arasında Qafqaz Albaniyası, xüsusilə onun Kür çayından cənubdakı əraziləri xüsusi yer tutur. Saxtakarlığı elmi metod səviyyəsinə qaldırmış bəzi erməni tarixçiləri Kür və Araz çayları arasındakı ərazilərin Ermənistan torpaqları olduğu, bu coğrafiyada indiki ermənilərin əcdadlarının yaşadığı, Qafqaz Albaniyasının cənub sərhədlərinin isə Kür çayı boyunca keçdiyi haqda cəfəng fikirləri

72 "Gəldim, gördüm,...mənimsədim" (Azərbaycan mədəni ənənələrinin mənimsənilməsi erməni ənənəsi haqqında). Bakı, 2010, s.3 //http://www azembassy.com.ua/docs/356_Geldim,%20gordum,%20menimsedim%20 (az,ru,eng).pdf



elmi dövriyyəyə daxil etmişlər [73]. Z.Bünyadov, İ.Əliyev, F.Məmmədova, Q.Qeybullayev[74] və başqaları antik dövr və orta əsr müəlliflərinin əsərlərinə əsaslanaraq bu fikirlərin uydurma olduğunu sübut etmişlər.

Şimalda Böyük Qafqaz dağlarının cənub ətəklərindən cənubda Araz çayına qədər ərazini əhatə edən Qafqaz Albaniyası e.ə IV–III əsrlərin qovşağında meydana gəlmiş, mövcudluğu VIII əsrin əvvəllərinə, ərəb işğallarına qədər davam etmişdi. Etnik tərkibinə gəldikdə, Qafqaz Albaniyası türk, qafqaz və iran dilli etnoslar tərəfindən məskunlaşmışdı. Ölkənin kifayət qədər rəngarəng olan etnik xəritəsində albanlar, qarqarlar, maskutlar, saklar, kəngərlər, utilər, leqlər, lpinlər, basillər, xəzərlər, gellər və s. mühüm yer tuturdu[75]. Bu tayfaların içərisində albanlar daha üstün mövqedə olmuş, bu səbəbdən də alban etnonimi ümumi şəkildə onların hamısına aid edilmişdi.

E.ə. II əsrdən Azərbaycan və Gürcüstan torpaqları vaxtaşırı olaraq ermənilərin hücumlarına məruz qalır, onlar qısa müddətə olsa da, müəyyən əraziləri işğal edə bilirdilər. İ.Əliyev R.H.Hevse-

73 Акопян А. А. Албания — Алуанк в греко-латинских и древнеармянских источниках. Ереван, 1987; Еремян С. Г. Раннефеодальные государства Закавказья в III–VII вв. Очерки истории СССР, (III–IX вв.), М., 1958,; Улубабян Б. Л. Очерки истории восточного края Армении (V — VII вв.). Ереван, 1982; Мнацаканян А. Ш. О литературе Кавказской Албании. Ереван, 1969.

74 Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989; Алиев И. Нагорный Карабах: История. Факты. События. Баку, 1989; Мамедова Ф. 'Политическая история и историческая география Албании. Баку, 1985; Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. Т.1,Баку, 1991.

75 Гейбуллаев Г.А.. Указ. Соч., с. 71-245; Мамедов Т.М. Кавказская Албания. Баку, 1993, с. 32-43.

nin fikirlərinə istinad edərək, ermənilərin ekspansiyasının genişlənməsini Əhəməni imperiyasının süquta uğraması ilə əlaqələndirir[76].

E.ə. II əsrdə erməni çarı I Artaşes Kür çayının sağ sahilində yerləşən və sak, uti və qarqar alban tayfalarına məxsus olan torpaqları işğal etmişdilər [77].Ermənilərin işğalçılıq siyasətinin növbəti mərhələsi, uzun müddət Parfiya sarayında girov olmuş II Tiqranın Ermənistanda hakimiyyətə gəlməsi ilə başlayır. E.ə. 95-ci ildə parfiyalılar tərəfindən erməni taxtına oturdulan II Tiqran işğalçılıq siyasəti həyata keçirmiş və Albaniyanın bir sıra sərhəd vilayətlərini ələ keçirmişdi[78]. Erməni işğallarına toxunan Strabon qeyd edirdi ki, "...Əvvəllər kiçik bir ölkə olan Ermənistan Artaksiya və Zariadriyanın müharibələri nəticəsində böyümüşdür... Onlar ətrafdakı xalqların vilayətlərinin bir hissəsini qopararaq birlikdə öz ərazilərini genişləndirmişlər, konkret olaraq, onlar midiyalılardan Kaspiana, Favnitida və Basoropedanı, iberlərdən Pariadranın dağətəyini, Xorzen və Kür çayının o tayında yerləşən Qoqarenanı; həliblərdən və mossiniklərdən Karenitida və Kiçik Ermənistanla həmsərhəd və ya onun bir hissəsi olan Kserksenanı; kataonlardan Akilisenanı və Antitavr ətrafındakı vilayəti və nəhayət, suriyalılardan Taronitidanı qoparmışdılar"[79]. Bu işğallar qısa müddətli olmuş və bütün

76 Алиев И. Карабах в древности. // История Азербайджана по документам и публикациям. Баку, 1990, с. 25.
77 Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании М.-Л., 1959, с. 58.
78 Армения в III-I вв. до н.э. //Всемирная история. Энциклопедия Т.2., 1957 // http://interpretive.ru/dictionary/447/word/armenija-v-iii-i-v-do-n-ye
79 Алиев И. Указ. Соч., с. 25.





cəhdlərinə baxmayaraq ermənilər ələ keçirdikləri ərazilərdə möhkəmlənə bilməmişdilər. Başqa sözlə, albanlar öz etnik indentikliyini qoruyub saxlaya bilmişdilər.

Rus müəllifi V.L. Veliçko da Qafqaz Albaniyasının ermənilərlə məskunlaşmadığı fikrini müdafiə edir. O, birmənalı şəkildə qeyd edir ki, "Qafqaz Albaniyası qeyri-erməni mənşəli xalqlar tərəfindən məskunlaşmışdır"[80].

IV əsrin əvvəllərində ermənilər xristianlığı qəbul etdilər. Bu zamandan başlayaraq kilsə ermənilərin həm dini, həm siyasi, həm iqtisadi, həm də mədəni həyatının mərkəzinə çevrildi. Dövlətçilik ənənələri zəif olan ermənilər bunu kilsənin ətrafında birləşməklə kompensasiya etməyə çalışırdılar. Öz növbəsində, erməni kilsəsi də tez bir zamanda siyasi mərkəzə çevrilmiş, dini işlərdən daha çox siyasi işlərlə məşğul olmağa başlamışdı. Erməni kilsəsinin fəaliyyət istiqamətlərindən birini qonşu xalqları dini təsir altına salaraq, assimilyasiyaya uğratmaq, başqa sözlə erməniləşdirmək təşkil edirdi. Onun hədəf kimi götürdüyü etnoslardan biri də albanlar idi. IV əsrdən başlayaraq Qafqaz Albaniyasının ərazisində də xristianlığın yayılmağa başlaması bunun üçün müəyyən şərait də yaradırdı.

VII-VIII əsrlərdə Qafqaz Albaniyasının ərəblər tərəfindən işğal edilməsi onun əhalisinin bir hissəsinin erməniləşdirilməsi üçün əlavə imkanlar meydana gətirdi. Bir tərəfdən, vahid dövlətin ləğv edilməsi, onun vilayətlərinin yeni, yerli əhali

80 Величко В.Л. Кавказ. Русское дело и междуплеменные вопросы. Баку, 1990, с. 66.

üçün yad olan dini-siyasi sistemin tərkib hissəsinə çevrilməsi əhalinin müqavimət imkanlarını zəiflədirdi. Digər tərəfdən, gənc imperiya olan Ərəb Xilafəti düzən ərazilərdə işğalları çox sürətlə həyata keçirsə də, dağlıq ərazilərdə ciddi çətinliklərlə, çox vaxt isə uğursuzluqlarla üzləşirdi. Eyni vəziyyət Qafqazda da təkrarlanırdı. Xəzərlərlə yüz ildən çox müharibə aparmasına baxmayaraq, ərəblər Dərbənd keçidindən şimalda nəzərəcarpacaq hərbi uğurlara imza ata bilməmişdilər. Qafqaz Albaniyasında da, ərazinin çox hissəsi asanlıqla islamlaşmaya məruz qalsa da, Qarabağın dağlıq hissəsi bu mənada istisna təşkil edirdi.

Bundan başqa, alban xristian kilsəsinin Bizansla olan əlaqələri, ikiüzlü və xain erməni keşişlərinin bundan ərəblərə yarınmaq üçün istifadə etmələri, erməni katolikosu İlyanın Əbd ül-Malik Əmir Mömininə məktub göndərərək, alban katolikosu Nersesi gözdən salması, sonda Nersesin tutduğu vəzifədən uzaqlaşdırılmasına və alban kilsəsinin erməni qriqorian kilsəsinin təsiri altına düşməsinə gətirib çıxarmışdı. Nəticədə, Qarabağın dağlıq hissəsinin alban əhalisi qriqorianlaşmaya məruz qalmışdı[81] (*Bu barədə sonuncu fəsildə geniş məlumat verilir*).

Dağlıq Qarabağda yaşayan albanlar erməni katolik kilsəsinin təsirinə düşdükdən sonra getdikcə öz etnik identikliyini itirmiş və ermənniləşmişlər. Bu məqam regionun tarixi ilə yaxından məşğul olan tədqiqatçıların diqqətindən yayınmamışdır.

81 Bünyadov Z.M. Göstərilən əsəri, s. 85-100.







*ARMENIA CAPTA – Ram edilmiş Ermənistan*
*Roma imperatoru Avqustun (e.ə. 23 – b.e. 14) Ermənistan üzərində qələbəsi münasibətilə e.ə. 20-ci ildə zərb edilmiş sikkə.*
Mənbə: www.cngcoins.com



*ARMENIA ET MESOPOTAMIA IN POTESTATEM P(opuli) R(omani) REDACTAE – Ermənistan və Mesopotamiyanın Roma xalqının hakimiyyəti altına qayıtması*
*Roma imperatoru Trayanın (98-117) Ermənistan və Mesopotamiyanı işğal etməsi münasibətilə təxminən 116-117-ci illərdə zərb edilmiş sikkə*
Mənbə:www.forumancientcoins.com

Məsələn, V.L.Veliçko hələ XX əsrin əvvəllərində bu barədə yazırdı: "Hal-hazırda, nə vaxtsa Aqvan katolikosuna aid olan xristianlar erməni hesab edilir, onlarla qaynayıb qarışaraq, onların xarakterini mənimsəmişlər"[82].

Albaniyada erməni təsirinin yayılmasına A.P. Novoseltsev də münasibət bildirmişdi. Hunlar, savirlər, bulqarlar, xəzərlər "dəfələrlə Cənubi Qafqaza, hər şeydən əvvəl Qafqaz Albaniyasına hücum etmişlər. Sonuncuların yazısının və yerli dillərdən birində ədəbiyyatının olmasına baxmayaraq, tarixşünaslıq, görünür, yalnız qədim erməni dilində mövcud olmuşdur və ümumiyyətlə VII-VIII əsrlərdə Albaniyada erməni mədəni təsiri çox böyük olmuşdur, alban süjetləri erkən orta əsrlərdə qədim erməni ədəbiyyatına möhkəm daxil olmuşdu"[83].

Beləliklə, albanların bir hissəsinin əvvəlcə qriqorianlaşması, bunun təsiri altında isə erməniləşməsi nəticəsində Cənubi Qafqazda alban mənşəli erməni icması formalaşdı. Sonrakı əsrlərdə, ticarət iqtisadi əlaqələrin genişlənməsi, Qarabağ erməniləri ilə Göycə gölündən şərqdə məskunlaşmış ermənilər arasında əlaqələrin davam etməsi, həmçinin regionda cərəyan edən hərbi-siyasi proseslər nəticəsində erməni elementi Cənubi Qafqazın müxtəlif yerlərində, əsasən də Qərbi Azərbaycan torpaqlarında, Göyçə gölü ətrafında görünməyə başlamışdı. Buna baxmayaraq, ermənilər, əzəli sakinləri müsəlman-türklər olan bu ərazilərdə əha-

82 Величко В.Л. Указ. Соч., с 66.
83 Новосельцев А.П. Хазарское государство и его роль в истории Восточной Европы и Кавказа // http://gumilevica.kulichki.net/NAP/nap0114 htm#nap011text323.



www.1905.az

linin cüzi bir hissəsini təşkil edirdilər.

Alban mənşəli ermənilərin Balkan mənşəli ermənilər (haylar) ilə heç bir genetik əlaqəsi yox idi. Onların qeyri-identik olmalarını sübut edən kifayət qədər fakt mövcuddur. Bu, onların antropoloji xüsusiyyətləri ilə də sübut olunur. Aparılmış tədqiqatlar göstərir ki, ermənilərlə onların indi yaşadıqları ərazilərin qədim əhalisi arasında əhəmiyyətli antropoloji fərqlər mövcuddur[84].

Qarabağ erməniləri diş sisteminin quruluşuna görə daha çox azərbaycanlılara və ləzgilərə, az dərəcədə isə adıgeylərə oxşayırlar. Bu göstəriciyə görə onlar, əcdadları, hal-hazırda Türkiyə və İranın tərkibinə daxil olan cənub vilayətlərindən (qədim Urartu ərazisindən) gələn və müasir Ermənistan ərazisində məskunlaşan ermənilərdən çox uzaqdırlar[85].

Bütün bunlar, özlərini Cənubi Qafqaz avtoxtonları sırasına aid edən ermənilərin azərbaycanlılara və gürcülərə qarşı irəli sürdükləri ərazi iddialarının əsassız olduğunu sübut edir.

XVII əsr – XVIII əsrin əvvəllərində onların bir hissəsi Dağlıq Qarabağa gəlmiş və nəticədə burada, sonradan "Xəmsə məlikləri" adını almış beş məliklik - Vərəndə, Giləbörd, Xaçın, Dizaq, Gülüstan - meydana gəlmişdi.

Vərəndə məlikliyi 1603-cü ildə Göyçə mahalından gələnlər, Giləbörd məlikliyi 1637-ci ildə Zəngəzur mahalından gələnlər, Dizaq məlikliyi XVIII əsrin əvvəllərində Loridən gələnlər, Gülüstan mə-

84 Пиотровский Б.Б. Ванское царство (Урарту), М., 1959, с 14.
85 Этническая одонтология СССР. М., 1979, с. 135.

likliyi yenə həmin dövrdə Şirvandan, Qəbələnin Nic kəndindən gələnlər tərəfindən yaradılmışdı. Yerli ermənilər isə XVIII əsrin əvvəllərində Xaçın məlikliyini təşkil etmişdilər[86]. Göründüyü kimi, Dağlıq Qarabağda təşəkkül tapmış beş məlikliklərdən yalnız biri, Xaçın məlikliyi yerli əhali tərəfindən yaradılmışdı, digərlərinin sakinləri isə bura ətraf rayonlardan gəlmişdilər. Bu qədim albanlar zaman keçdikcə tamamilə erməniləşmiş, "bizdə riyakarlıq ana bətnində olarkən yaranır"[87] deyən erməni şairi Yeqişe Çarensin mənsub olduğu xalqa məxsus xüsusiyyətləri (riyakarlıq, xəyanət, satqınlıq, mütilik və s.) mənimsəmiş, qonşuluqda yaşayan müsəlman əhalinin torpaqlarına, əmlakına, hətta mədəniyyətinə göz dikmiş və regionda cərəyan edən bir çox faciəli hadisələrin səbəbkarı olmuşlar.

Ermənilərin Gürcüstan ərazisində məskunlaşmaları da e.ə. II əsrə gedib çıxır. VII əsrdən, ərəb işğalları zamanından başlayaraq, bu proses daha intensiv xarakter almışdı. Ərəblərin regiona gəlməsi ilə xalkedonçu ermənilər təqiblərə məruz qalmış, onların bir hissəsi Kvemo-Kartli və Xereqidə məskunlaşmış və tezliklə gürcüləşmişdilər[88].

Gürcü müəlliflər Ş.Tetvadze və O.Tetvadze haqlı olaraq, Cənubi Qafqazda ərəblərin ermənilərə daha çox etibar etdiklərini vurğulayırlar. Bundan istifadə edən ermənilər bütövlükdə Kartliyə iddia edirdilər. IX-X əsrlərdə onların yeni dəstələri,

86 Mahmudov Y. Şükürov K. Göstərilən əsəri, s. 28-29.
87 "Gəldim, gördüm,...mənimsədim", s. 3.
88 Тетвадзе Ш., Тетвадзе О. Армяне в Грузии (с древних времен до сегодняшнего дня) Тбилиси, 2008, с. 12-13.





ərəblərin yardımı ilə Kartlidə məskən salmış və bu proses sonrakı əsrlərdə də davam etmişdi[89].

## XVIII əsrdə Cənubi Qafqazda erməni faktoru

1700-1721-ci illər Şimal müharibəsində qələbə nəticəsində Baltik dənizinə çıxış əldə edən Rusiya Xəzər və Qara dəniz hövzələrinə can atır, öz təsir dairəsini cənub istiqamətində genişləndirməyə çalışır, yeni xammal mənbələri və satış bazarları uğrunda mübarizə aparırdı. Rusiyanın bu planlarından bəhrələnməyə çalışan erməni kilsəsi və onun təsiri altında olan Qarabağ məlikləri Rusiyanın köməyi ilə Xəzər dənizinin qərb sahillərində məskunlaşmağı, Qarabağda xristian-erməni dövləti yaratmağı arzulayırdılar. Öz riyakarlıqlarını açıq ortaya qoyan ermənilər qədim Azərbaycan torpaqlarına sahib çıxmaq üçün ruslara istənilən xidməti göstərməyə, onların istənilən təxribatlarında yer almağa hazır idilər. Erməni tarixçisi K. Patkanyanın qeyd etdiyi kimi, "Ermənilər bəşər tarixində hec zaman xüsusi rol oynamamışlar. Bu, siyasi termin yox, ayrı-ayrı erməni məskənlərinin səpələndiyi coğrafi vilayətin adıdır. Ermənilər həmişə yaşadığı torpaqların pis sahibləri olmuşlar, ancaq onlar çox məharətlə öz yaxınlarını sataraq güclülərə xidmət göstərmişlər..."[90].

Xəzərin qərb sahillərində möhkəmlənməyə çalışan I Pyotr ermənilərin qul psixologiyasını vaxtında qiymətləndirmiş və öz planlarında onlara yer ayırmışdı. "Öz ticarətini şərqə yaymağı arzu-

89 Yenə orada, s. 15.
90 "Gəldim, gördüm,...mənimsədim", s. 3.

layan Pyotr ermənilləri diqqətdən kənarda saxlaya bilməzdi". O, ermənilərə cəlbedici vədlər verir, onları Rusiya ərazisinə köçməyə həvəsləndirirdi [91].Bu çağırışlara cavab olaraq, çoxlu sayda erməni Rusiyaya köç etmiş və onlar burada xüsusi qayğı ilə əhatələnmişdilər. Məsələn, erməni Lazarevlər ailəsi məhz bu dövrdə Rusiyaya köç etmiş, Moskva və S.Peterburqda mülk sahibi olmuş, Rusiyanın hər iki paytaxtında və başqa şəhərlərində erməni kilsələri tikmiş, tipoqrafiyalar təşkil etmişdilər [92].Sonrakı dövrlərdə Cənubi Qafqazın ruslar tərəfindən işğal edilməsində, bunun ardınca on minlərlə ermənin bu regiona, xüsusilə Azərbaycan torpaqlarına köçürülməsində həm Lazarevlər ailəsi, həm onların tikdirdikləri kilsələr xüsusi fəallıq nümayiş etdirmişdilər. Lazarevlərə məxsus tipoqrafiyalarda azərbaycanlılar, gürcülər və Cənubi Qafqazın digər xalqları əleyhinə böhtanla dolu, saxtalaşdırılmış faktlara əsaslanan çap materialları sərhəd tanımadan tirajlanırdı.

Xristianlıq ermənilər üçün, əsrlərlə yanaşı yaşadıqları müsəlmanlara qarşı düşmənçilik siyasəti aparmaq, xristian dininin hakim olduğu iri dövlətlərin köməyi ilə onlara arxadan zərbə vurmaq vasitəsinə çevrilmişdir. Hələ XVIII əsrin əvvəllərində, V.L.Veliçkonun fırıldaqçı adlandırdığı erməni İsrail Ori rus çarı I Pyotru, pravoslavların və rus-slavyan işinin düşmənləri kimi qələmə verdiyi müsəlmanlara qarşı mübarizəyə çağırırdı. Şimal müharibəsinə başı qarışan I Pyotr bu çağırışa

91 Глинка С.Н. Описание переселения армян Аддербиджанских в пределы России. М., 1831, с. 16-17.
92 Yenə orada, s. 17.





mənfi cavab verdikdə, Tasitin "həm xarakterinə, həm də coğrafi vəziyyətinə görə əzəldən ikiüzlü" adlandırdığı ermənilərin nümayəndəsi[93] İ.Ori bu müharibədə rusların tərəfində iştirak etmək üçün icazə istəmiş, lakin gözlədiyi cavabı ala bilməmişdi. Onun bu hiyləsinə uymayan rus çarı "onun burada heç bir işi yoxdur" cavabını vermişdi[94].

Buna baxmayaraq, İ.Ori öz məkrli iddialarından əl çəkmədi. O, 1701-ci il oktyabrın 28-də arximandrit Minas Vardapetlə birlikdə Bavariya kürfüstünün elçisi kimi, qiymətli hədiyyələrlə I Pyotrun qəbulunda olmuşdu. İ.Ori erməni dövləti yaratmaq üçün 25 min nəfərlik ordu göndərməyi təklif etmiş, məlumat toplamaq və ermənilər arasında təbliğat aparmaq üçün 1707-ci ildə Səfəvilər dövlətinə səfər etmişdi. 1711-ci ildə Həştərxana gələn İ.Ori burada ölür[95].Buna baxmayaraq, rus hökuməti özlərinin Qafqaz siyasətində etibarlı alət olan ermənilərdən imtina etməmişdi.

I Pyotrun 1722-1723-cü illəri əhatə edən Xəzər yürüşündə əsas məqsəd Xəzərətrafı əraziləri ələ keçirmək və burada möhkəmlənmək idi, lakin bu işi yalnız silah gücünə həyata keçirməyin asan olmayacağı aydın idi. Bu səbəbdən də, I Pyotr ermənilərdən istifadə etmək qərarına gəldi. O, İstanbuldakı rus səfiri A.Rumyantsevə Osmanlı dövləti ərazisində yaşayan erməniləri Xəzər dənizinin qərb sahillərinə köçməyə razı salmağı tapşırmışdı. Plana görə, Dərbənddən Rəştə qədər olan Azərbay-

93 Величко В. Л. Указ. соч., с. 71-72.
94 Yenə orada, s. 77.
95 Arzumanli V., Mustafa N.. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım.Qaçqınlıq. Bakı, 1998, s. 13.




*Azərbaycan xanlıqları (XVIII əsrin ikinci yarısı)*
Mənbə: www. azerbaijan.az



*Xəritədə XVIII əsrin ikinci yarısında Azərbaycanın inzibati vahidləri və onların sərhədləri göstərilmişdir.*

can torpaqlarında yaşayan müsəlman əhali buradan çıxarılmalı, onların torpaqları ermənilərə verilməli idi.[96] I Pyotrun Xəzər yürüşü öz məqsədinə çatmasa da, məhz bu yürüş zamanı Azərbaycanın şərq rayonlarına gələn ermənilərin bir qismi burada qalmış və beləliklə də, onlar Cənubi Qafqazda yayılma areallarını genişləndirmişdilər.

Rusiya ilə Səfəvi dövləti arasında 1723-cü il sentyabrın 12-də imzalanmış müqaviləyə görə Gilan, Mazandaran, Astarabad əyalətləri, Bakı və Dərbənd şəhərləri Rusiyanın tabeliyinə keçmişdi. I Pyotr noyabrın 10-da verdiyi fərmanla ermənilərin köçürülməsi üçün bu ərazilərdə yer ayrılmasına göstəriş vermişdi. Rus çarı "xristianlıq naminə" erməniləri mərhəmətdə saxlamaq və himayə etməyi qərara almışdı. I Pyotrun ölümündən sonra, I Yekaterina da ermənilərin yüksək mərhəmətə və himayəyə götürülməsi haqqında fərman vermişdi[97].

Rusiyada II Yekaterinanın hakimiyyəti illərində ermənilərin Cənubi Qafqazdakı özbaşınalığı daha geniş vüsət almışdı. Regionda xristian elementinin gücləndirilməsinə xüsusi fikir verən, Dərbənddə möhkəmləndikdən sonra Şamaxı və Gəncəni ələ keçirməyi, Şamaxı və Siqnaxdakı ermənilərdən qoşun toplayaraq, İrəvan üzərinə getməyi planlaşdıran II Yekaterina, Azərbaycan torpaqlarında Rusiyanın himayəsi altında Erməni çarlığı yaratmağı da ermənilərə vəd etmişdi[98], lakin regionda cərəyan edən hərbi-siyasi proseslər (rus-türk müharibələri, Ağa Məhəmməd şah Qacarın fəaliyyəti və s.), həmçinin Qarabağ xanı İbrahimxəlil xanın diplomatik çevikliyi rus-erməni planlarının reallaşmasına imkan verməmişdi.

96 Марджанлы М. Армянство. Россия Кавказ. М., 2011, с. 8.
97 Arzumanli V., Mustafa N.. Göstərilən əsəri. s. 14.
98 Марджанлы М. Указ. соч., с. 9.





XVIII əsrin sonlarında ruslar Cənubi Qafqaz istiqamətində daha böyük qüvvə ilə irəliləməyə başladılar. Azərbaycan xanlıqlarının təbəələri olan ermənilər xain simalarını bir daha göstərərək onlara bələdçilik edir, üsyan qaldıraraq xanların hakimiyyətini daxildən zəiflətməyə çalışırdılar.

Gürcüləşmiş erməni nəslindən olan arxiyepiskop İosif (Rusiyada Arqutinski-Dolqoruki kimi tanınırdı) 1796-cı ildə Dərbənd xanlığının işlərinə müdaxilə etməyə, xanlığın müsəlman əhalisini ermənilərin qarşısında alçaltmağa çalışmış, bununla da yerli əhalini özünə qarşı qaldırmışdı. Qafqazın işğalı ilə məşğul olan qraf Zubovun etirazlarını nəzərə almayan erməni arxiyepiskop, Eçmiədzin patriarxının razılığı ilə Qarabağda və Cənubi Qafqazın digər ərazilərində yaşayan ermənilərə məktub göndərmişdi. Məktubda qeyd olunurdu ki, rus qoşunları "erməniləri müsəlman zülmündən azad etmək və onları müstəqil etmək" üçün Persiyaya daxil olmuşdur və bu məktub öz rolunu oynamış, ermənilər arasında gərginliyə səbəb olmuşdu[99].

Ermənilərin bu qəbildən olan təxribatları XIX əsrin əvvəllərində Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğalı prosesində də davan etmişdi.

99 Величко В.Л. Указ. соч., с. 79.

## XIX əsrin birinci yarısında ermənilərin Cənubi Qafqaza köçürülməsi

XIX əsrin ilk onillikləri ərzində baş vermiş Rusiya-İran və Rusiya-Türkiyə müharibələri nəti-cəsində Azərbaycanın Araz çayından şimaldak əraziləri Rusiyanın, cənubu isə İranın nəzarəti keçdi. İstər çar Rusiyası, istərsə də şah İranı sahi olduqları Azərbaycan torpaqlarında müstəmlək idarə-üsulu yaratmış, azərbaycanlıların cənubd farslaşması, şimalda isə ruslaşması istiqamətin də çeşidli tədbirlər həyata keçirirdilər. Xanlıqla ləğv edildi, əhalinin tarixi-etnik, mədəni-psixolo xüsusiyyətləri nəzərə alınmadan yeni inzibati-əra zi vahidləri yaradılırdı.

Cənubi Qafqazda dayaqlarını möhkəmlətməy çalışan çar Rusiyası regionda demoqrafik vəziy yətin xristianların, hər şeydən əvvəl ermənilər xeyrinə dəyişməsinə ciddi önəm verirdi. XIX əs rin birinci yarısında rus imperatorları olmuş istər Aleksandr, istərsə də I Nikolay öz sələflərinin yol ilə gedərək, ermənilərə xüsusi münasibət bəsləyi onların Türkiyə və İran ərazisindən Cənubi Qafqa za köçürülərək, azərbaycanlıların və gürcülərin torpaqlarında yerləşdirilməsini təmin edirdilər Çoxsaylı tarixi faktlar erməniləri köçürmə prose sinin davamlı olaraq və mərhələlərlə həyata keçi rildiyini sübut edir.

1801-ci ildə I Alekasandr rus taxtına çıxdıqdan sonra ermənilər Dərbənd ətrafında məskunlaşma üçün ondan xahiş etmişdilər. Sadiq qullarının bu xahişinə müsbət yanaşan rus imperatoru 1802-ci





il dekabrın 21-də imzaladığı fərmanla buna icazə vermişdi[100]. Rusiya hakimiyyət orqanları Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Qarabağın erməniləşdirilməsinə xüsusi diqqət yetirirdilər. Qafqaz Arxeoloji Komissiyasının Aktlarına istinad edən X.D. Xəlilov 1805-ci ildə Qarabağda 10 min ailənin yaşadığını, üç il sonra, 1808-ci ildə isə onların sayının 7.474-ə düşdüyünü qeyd edir. Rusiya-İran müharibəsinin gedişində ailələrin bir qismi öz daimi yaşayış yerlərini tərk etmək məcburiyyətində qalmışdılar.[101]

1810-cu ildə Qarabağ xanlığının ərazisində 12 min ailə yaşayırdı, onlardan 2.500 ailə xristian-qriqorian ailəsi idi.[102] Başqa sözlə, regionda müsəlman əhali mütləq üstünlüyə malik idi, belə ki, ailələrin 79%-dən çoxunu müsəlman, təxminən 21%-ni xristian ailələri təşkil edirdi.

Rus məmurları Yermolov və Mogilyovski tərəfindən 1823-cü ildə tərtib olunmuş Qarabağ əyalətinin vergi dəftərində Qarabağda 20.095 ailənin yaşadığı göstərilir. Bu ailələrdən 15.729-u azərbaycanlı, 4.366-sı isə erməni ailəsi idi. Azərbaycanlı ailələrin 1.111-i şəhərdə, 14.618-i isə kənddə, erməni ailələrin isə, 421-i şəhərdə, 3.945-i kənddə yaşayırdı.[103] Statistik materiallardan göründüyü kimi, 1810-cu il ilə müqayisədə, XIX əsrin 20-ci illərinin əvvəllərində Qarabağın demoqrafik vəziyyətində

---

100 Марджанлы М. Указ. соч., с. 10.

101 Xəlilov X.D. Qarabağın etnik tarixindən. // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və huquq seriyası, 1988, № 3, s. 41-42.

102 Мархулиа Г., Нуриева Ш. "Многострадальная Армения": мифы и реальность. Баку, 2011. с. 94.

103 Xəlilov X.D. Göstərilən əsəri, s. 41-42.




*Cənubi Qafqazın Rusiya və İran arasında bölüşdürülməsi (1813, 1828)*
Mənbə:www.topwar.ru

*Xəritədə 1800-1828-ci illərdə Cənubi Qafqaz ərazilərinin Rusiyaya birləşdirilməsi ardıcıllığı göstərilmişdir.*

ciddi dəyişiklik baş verməmişdi. Mütləq üstünlük yenə də ailələrin 78%-dən çoxuna sahib olan azərbaycanlıların tərəfində idi. Erməni ailələrinin xüsusi çəkisi isə 22%-ə yaxın idi.

Azərbaycanlı-müsəlman əhali Naxçıvan və İrəvan xanlıqlarında da mütləq çoxluğa malik idi. Məsələn, erməni müəllifi V. Parsamyanın məlumatlarına görə, İrəvan xanlığının Rusiyaya birləşdirilməsinə qədər burada yaşayan 169.155 nəfər əhalinin 84.089 nəfəri və ya 49,7% -i müsəlman, 57.305 nəfəri və ya 33,8% -i erməni, 26.911 nəfəri və ya 16%-i kürd, 850 nəfəri və ya 0,5%-i digər millətlərin nümayəndələri idi[104].

1826-1828-ci illər Rusiya-İran, 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrindən sonrakı dövrdə, rus hökumətinin köçürmə siyasətinin nəticəsi olaraq, Cənubi Qafqaz əhalisinin tərkibində ermənilərin xüsusi çəkisi getdikcə artmağa başladı.

Erməniləri Cənubi Qafqaza köçürmək planları haqqında hələ 1826-1828-ci illər Rusiya-İran müharibəsi zamanı məlum idi. S.N.Qlinka qeyd edir ki, rus zabiti Bulakski imperator Nikolayın planlarından xəbərdar idi. "O, bilirdi ki, Araz çayı Rusiya və Persiya arasında sərhəd olacaq və... ermənilərin Arran vilayətində ictimai mövcudluğu təsdiq olunacaq"[105].

Cənubi Qafqazda Rusiya işğalını həyata keçirən əsas simalardan biri olan qraf Paskeviç "ermənilərə siyasi təsiri artırmaq arzusu" ilə rus ordusunun erməni mənşəli polkovniki Lazarevi dəvət etmişdi[106].

104 Мархулиа Г., Нуриева Ш. Указ. соч., с. 98-99.
105 Глинка С Н. Указ. соч., с. 36.
106 Yenə orada.





Məqsəd sonuncunun köməyi ilə erməniləri Şimali Azərbaycana köçməyə vadar etmək, Azərbaycan xanlıqlarının ərazisində yaşayan ermənilərdən ibarət "beşinci kolon" formalaşdırmaq idi.

Bir məqamı da qeyd etmək lazımdır ki, Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsinə qədər Cənubi Azərbaycan xanlıqları ərazisində yaşayan ermənilərin iqtisadi vəziyyəti regionun digər xalqları ilə müqayisədə kifayət qədər yüksək idi. Onlar ticarət sahəsində daha fəal idilər, bununla yanaşı, "öz rifahlarını yüksəltmək üçün başqa yollar da açırdılar"[107].

Ermənilər iqtisadi-ticarət sahəsində uğur qazanmaqla yanaşı, dinlə bağlı adət-ənənələrin yerinə yetirilməsində də azad idilər, "sərbəst ibadət etmək ermənilərə qadağan edilməmişdi"[108].Dini həyatda yeganə məhdudiyyət kilsə zənglərinin səsləndirilməsi ilə bağlı idi və bu məhdudiyyətin özü də sərt formada həyata keçirilmirdi. Eçmiədzin monastrında, Səlmasdakı kilsələrin birində kilsə zəngləri səsləndirilirdi[109].Müqayisə üçün qeyd etmək olar ki, XIX əsrin əvvəllərində Rusiya imperiyasında müsəlmanların xristian əhali əhatəsində icma şəklində yaşadıqları ərazilərdə məscid tikintisinə bəzən çətinliklərlə də olsa icazə alınsa da, orada azan vermək haqda düşünmək belə olmazdı. Deməli, ermənilər Cənubi Azərbaycan xanlıqlarının ərazisində yaşadıqları zaman, orada müsəlman əhalinin mütləq üstünlüyünə baxmayaraq və bütün etnoslar üçün ümumi olan çətinliklər istisna

107 Yenə orada, s. 13
108 Yenə orada, s. 14-15
109 Yenə orada, s. 15

olmaqla, ciddi xarakterli hər hansı müstəsna problemlə üzləşmirdilər, əksinə bəzi sahələrdə, xüsusilə ticarətdə başqaları ilə müqayisədə xeyli irəli getmişdilər. Buna baxmayaraq, onlar çar Rusiyasının təbliğatına uyur və Araz çayından şimaldakı torpaqlara göz dikirdilər.

Rusiya-İran müharibəsinin gedişində Qarabağa daha 18 min erməni ailəsi köçürülmüş və onlar Qarabağın dağlıq hissəsində - Marağalı, Canyataq, Yuxarı Çaylı, Aşağı Çaylı və s. kəndlərin ərazisində yerləşdirilmişdi[110].

1826-1828-ci illər Rusiya-İran müharibəsinin sonunda imzalanmış Türkmənçay müqaviləsinin on beşinci maddəsinə əsasən Cənubi Azərbaycan ərazisində yaşayan məmur və sakinlər bir il ərzində daimi yaşayış yerlərini tərk edərək, ailələri ilə birlikdə Rusiya vilayətlərinə köçə, əmlaklarını heç bir gömrük haqqı ödəmədən özləri ilə apara və ya sata bilərdilər. Onların malik olduqları daşınmaz əmlaka gəldikdə isə, onun satılması və ya haqqında hər hansı digər bir qərarın verilməsi üçün beş illik müddət müəyyənləşdirilmişdi[111].

Köçürmə əməliyyatına rəhbərlik rus ordusunun erməni mənşəli zabiti Lazarevə həvalə edilmişdi, lakin rus yazıçısı və diplomatı A.S. Qriboyedov Lazarevin ermənilər arasında tanınmadığını, onun lazımsız bəyannamələr hazırlamaqla məşğul olduğunu bildirir, bu prosesdə Arqutinski, Qamazov və başqa zabitlərin daha fəal olduğunu vurğulayırdı[112].

110 Ermənilərin köçürülməsi rusdilli mənbələrdə // http://1905.az
111 Под стягом России: Сборник архивных документов. М., 1992, с 320.
112 Грибоедов А.С. Горе от ума, письма и записки. Баку, 1989, с. 387



www.1905.az

Qeyd etmək lazımdır ki, Cənubi Azərbaycanda yaşayan ermənilərin heç də hamısı Rusiya təbəəçiliyinə keçməyə həvəs göstərmirdilər. Bu sırada, sayları kifayət qədər çox olan və xristianlığın nestorian təliminə aid olanları xüsusi olaraq qeyd etmək lazımdır.

Rus hökuməti yaşayış yerini dəyişməkdə tərəddüd edənləri bu prosesə cəlb etmək fikrindən əl çəkmir, onlara müxtəlif vədlər verirdi. Məsələn, köçməyə razı olanlar ticarət azadlığı əldə edir, torpaq sahəsinə sahib olmaq hüququ qazanır, altı il müddətinə vergilərdən, üç il müddətinə zemstvo mükəlləfiyyətlərindən azad edilir və s[113]. Rusların xristian əhalinin köçürülməsində canfəşanlıq etməsi onların imperiya maraqlarından irəli gəlirdi. Çar hakimiyyət orqanları, bir tərəfdən, müəyyən hissəsi kifayət qədər varlı olan on minlərlə ərməni köçürməklə, onsuz da zəif olan İran iqtisadiyyatına zərbə vurmaq, onu əhəmiyyətli sayda işçi qüvvəsindən məhrum etmək, digər tərəfdən isə, köçürülən erməniləri Cənubi Qafqazda yerləşdirmək və onları yerli əhalinin hesabına torpaqla təmin etməklə, bu regionda özünə sosial-iqtisadi dayaq yaratmağa çalışırdı.

Türkmənçay müqaviləsinin imzalanmasından sonra, 1828-ci il martın 9-da rus qoşunları müharibənin gedişində işğal etdikləri Təbriz şəhərini tərk etdilər. Bu hadisənin ardınca "Türkmənçaya qonşu müxtəlif kəndlərdən ermənilər Qarabağa doğru hərəkət etdilər"[114].Bu iri miqyaslı köçün, yalnız başlanğıcı idi.

113 Глинка С.Н. Указ. соч., с.47
114 Yenə orada, s. 48.

olmaqla, ciddi xarakterli hər hansı müstəsna problemlə üzləşmirdilər, əksinə bəzi sahələrdə, xüsusilə ticarətdə başqaları ilə müqayisədə xeyli irəli getmişdilər. Buna baxmayaraq, onlar çar Rusiyasının təbliğatına uyur və Araz çayından şimaldakı torpaqlara göz dikirdilər.

Rusiya-İran müharibəsinin gedişində Qarabağa daha 18 min erməni ailəsi köçürülmüş və onlar Qarabağın dağlıq hissəsində - Marağalı, Canyataq, Yuxarı Çaylı, Aşağı Çaylı və s. kəndlərin ərazisində yerləşdirilmişdi[110].

1826-1828-ci illər Rusiya-İran müharibəsinin sonunda imzalanmış Türkmənçay müqaviləsinin on beşinci maddəsinə əsasən Cənubi Azərbaycan ərazisində yaşayan məmur və sakinlər bir il ərzində daimi yaşayış yerlərini tərk edərək, ailələri ilə birlikdə Rusiya vilayətlərinə köçə, əmlaklarını heç bir gömrük haqqı ödəmədən özləri ilə apara və ya sata bilərdilər. Onların malik olduqları daşınmaz əmlaka gəldikdə isə, onun satılması və ya haqqında hər hansı digər bir qərarın verilməsi üçün beş illik müddət müəyyənləşdirilmişdi[111].

Köçürmə əməliyyatına rəhbərlik rus ordusunun erməni mənşəli zabiti Lazarevə həvalə edilmişdi, lakin rus yazıçısı və diplomatı A.S. Qriboyedov Lazarevin ermənilər arasında tanınmadığını, onun lazımsız bəyannamələr hazırlamaqla məşğul olduğunu bildirir, bu prosesdə Arqutinski, Qamazov və başqa zabitlərin daha fəal olduğunu vurğulayırdı[112].

110 Ermənilərin köçürülməsi rusdilli mənbələrdə // http://1905.az
111 Под стягом России: Сборник архивных документов. М., 1992. с. 320.
112 Грибоедов А.С. Горе от ума, письма и записки. Баку, 1989, с. 387





Qeyd etmək lazımdır ki, Cənubi Azərbaycanda yaşayan ermənilərin heç də hamısı Rusiya təbəəçiliyinə keçməyə həvəs göstərmirdilər. Bu sırada, sayları kifayət qədər çox olan və xristianlığın nestorian təliminə aid olanları xüsusi olaraq qeyd etmək lazımdır.

Rus hökuməti yaşayış yerini dəyişməkdə tərəddüd edənləri bu prosesə cəlb etmək fikrindən əl çəkmir, onlara müxtəlif vədlər verirdi. Məsələn, köçməyə razı olanlar ticarət azadlığı əldə edir, torpaq sahəsinə sahib olmaq hüququ qazanır, altı il müddətinə vergilərdən, üç il müddətinə zemstvo mükəlləfiyyətlərindən azad edilir və s[113]. Rusların xristian əhalinin köçürülməsində canfəşanlıq etməsi onların imperiya maraqlarından irəli gəlirdi. Çar hakimiyyət orqanları, bir tərəfdən, müəyyən hissəsi kifayət qədər varlı olan on minlərlə erməni köçürməklə, onsuz da zəif olan İran iqtisadiyyatına zərbə vurmaq, onu əhəmiyyətli sayda işçi qüvvəsindən məhrum etmək, digər tərəfdən isə, köçürülən erməniləri Cənubi Qafqazda yerləşdirmək və onları yerli əhalinin hesabına torpaqla təmin etməklə, bu regionda özünə sosial-iqtisadi dayaq yaratmağa çalışırdı.

Türkmənçay müqaviləsinin imzalanmasından sonra, 1828-ci il martın 9-da rus qoşunları müharibənin gedişində işğal etdikləri Təbriz şəhərini tərk etdilər. Bu hadisənin ardınca "Türkmənçaya qonşu müxtəlif kəndlərdən ermənilər Qarabağa doğru hərəkət etdilər"[114].Bu iri miqyaslı köçün, yalnız başlanğıcı idi.

113 Глинка С.Н. Указ. соч., с.47.
114 Yenə orada, s. 48.

Arazdan şimala köçürülən ermənilərin çoxu silah ehtiyatı görmüşdülər. S.N. Qlinka bunu farsların mümkün hücumlarından müdafiə tədbiri kimi qiymətləndirir[115]. Əslində, müharibənin qalibi olan və regionda vəziyyətə tam nəzarət edən rus ordusunun müşayəti altında həyata keçirilən köçürmə əməliyyatına kiminsə mane olacağını düşünmək çətindir. Ermənilərin silahlandırılması gələcəyə hesablanmış bir hadisə idi. Həqiqətən də, bir müddətdən sonra bu silahlardan Naxçıvanda, İrəvanda, Qarabağda azərbaycanlı əhalini əzəli torpaqlarından sıxışdırıb çıxarmaq, onları qorxutmaq, terrora məruz qoymaq üçün istifadə olunmuşdu. Başqa sözlə, köçürmə prosesində iştirak edən rus-erməni zabitləri erməniləri şüurlu surətdə silahlandırırdılar. Bütün bunlar bu ərazilərdə ermənilərin sayının artmasına gətirib çıxarırdı.

1827-1828-ci illərdə Naxçıvan xanlığındakı 4.600 ailədən 4.170-i və ya 90%-i azərbaycanlı ailələri idi, lakin ermənilərin bu ərazilərə köçürülməsi nəticəsində 1.400 azərbaycanlı ailəsi bu əraziləri tərk etmişdi, 1832-ci ildə köçmüş azərbaycanlı ailələrin sayı 2.791-ə bərabər idi, nəticədə əhalinin ümumi sayında azərbaycanlıların xüsusi çəkisi artıq 60%-ə düşmüşdü[116].

1829-cu ildə Naxçıvan şəhərində 3.641 nəfər azərbaycanlı yaşayırdısa, artıq 1.829 nəfər erməni yaşayırdı. Həmin ildə Naxçıvan mahalında isə 5.553 nəfər azərbaycanlı, 7.974 nəfər erməni, Ordubad şəhərində 3.224 nəfər azərbaycanlı, 179

115 Yenə orada, s. 57.
116 Мархулиа Г., Нуриева Ш. Указ. соч., с. 97.







*Türkmənçay müqaviləsinin imzalanması. Rəssam: V. İ. Maşkov*

Mənbə: www feb-web.ru

nəfər erməni, Ordubad mahalında 3.985 nəfər azərbaycanlı, 3.550 nəfər erməni, Dərələyəz mahalında 4.960 nəfər azərbaycanlı, 3.508 nəfər erməni yaşayırdı[117].

1828-ci ildə İrəvan və Naxçıvan xanlıqları hesabına yaradılmış Erməni vilayətində 1.111 yaşayış məntəqəsi vardı, bu məskənlərdən 62-də ermənilər yaşayırdı, 359 müsəlman kəndində sakinlərin bir hissəsi məhv edilmiş, yerdə qalanları isə daimi yaşayış yerlərini tərk etmişdilər[118].Deməli, Erməni vilayətindəki bütün kəndlərin cəmi 5,5 %-də ermənilər yaşayırdı. Belə vəziyyət, şübhəsiz ki, rus hökumətini qane edə bilməzdi.

Müsəlman kəndlərinin boşaldılması və orada ermənilərin yerləşdirilməsi nəticəsində əhalinin ümumi tərkibində azərbaycanlıların xüsusi çəkisi ildən-ilə azalırdı. Yuxarıda qeyd olunduğu kimi, artıq 1828-ci ildə 359 müsəlman kəndi və ya Erməni vilayətindəki bütün kəndlərin 32 %-dən çoxu boşaldılmışdı və bu proses sonrakı illərdə də davam etmişdi. Nəticədə, "əgər Erməni əyalətində 1828-ci ildə Azərbaycan türklərinin xüsusi çəkisi 73,8% təşkil edirdisə, 1834-1835-ci illərdə bu rəqəm 46,2%-dək düşdü"[119].

1832-ci ildə həyata keçirilmiş kameral hesablamalara görə, Qarabağ əyalətində 32,4 min nəfər azərbaycanlı, 17,4 min nəfər erməni yaşayırdı[120].

Ermənilərin köçürülməsi prosesində məcbu-

117 Зелинский С.П. "Три магала: Нахичеванский, Ордубадский и Даралагезский. Географо-статистическое и сельскохозяйственное описание". // "Сборник сведений о Кавказе", т. VII, Тифлис, 1880, с. 248
118 Мархулиа Г., Нуриева Ш. Указ. соч., с. 97.
119 Ermənilərin köçürülməsi rusdilli mənbələrdə.
120 Yenə orada.





retmə hallarına da yol verilirdi. İran taxt-tacının vəliəhdi Abbas Mirzənin 1828-ci il aprelin 27-də polkovnik Lazarevə göndərdiyi məktubda qeyd edirdi: "...Ermənilər sizin qoşunlar olan yerlərdən köçdülər, onları istəklərinə əsasən könüllü adı ilə götürdülər... necə olur ki, bir neçə min ailə öz istəyi ilə səmimi və könüllü olaraq, yersiz və heç nəsiz qalmaq üçün minillik vətənini, mülkünü, bağını, evini atır... Din xadiminin köçməsi bunun əsas səbəbidir, bu vilayətdən bütün din xadimlərinin köçürülməsi Eçmiədzinin birincisindən irəli gəldi, əks təqdirdə o, onları rütbə və inancdan kənarlaşdıracağını vəd edirdi..."[121].

X.D.Xəlilov S.P.Zelinskinin məlumatlarına istinadən qeyd edir ki, Türkmənçay müqaviləsinə əsasən Cənubi Qafqaza 8.249 erməni ailəsi köçürülmüş və onlar İrəvan quberniyası, Qarabağ əyaləti və Şamaxı qəzasında məskunlaşdırılmışdı[122].

S.N.Qlinkanın məlumatına görə, təkcə Urmiya və Səlmas xanlıqlarından beş mindən çox ailə Arazdan şimala köçürülmüşdü. Erməniləri Naxçıvan və İrəvan xanlıqlarının ərazisində məskunlaşdırmaq nəzərdə tutulsa da, ruslar tərəfindən işğal olunmuş bu ərazilərdə kifayət qədər ərzaq olmadığı üçün, onları Qarabağ xanlığına göndərdilər[123]. Ümumilikdə Cənubi Azərbaycandan 40 min erməni köçürülmüşdü. Bu köç İrana 32 mln. rubl ziyan vurmuşdu[124]. V.L.Veliçko 1828-ci il Türkmənçay müqaviləsinin imzalanmasından sonra İrandan 40

121 Глинка С.Н. Указ. соч., с. 77.
122 Xəlilov X.D. Göstərilən əsəri, s. 42.
123 Глинка С.Н. Указ. соч., с. 86-87.
124 Yenə orada, s. 94.

min nəfər, 1829-cu il Ədirnə müqaviləsinin imzalanmasından sonra isə Türkiyədən 100 min nəfər ermənininin Cənubi Qafqaza köçürüldüyünü, sonrakı dövrdə bu prosesin fasiləsiz və güclü axınlarla davam etdiyini bildirir[125].

Digər bir rus müəllifi N.İ.Şavrov qeyd edir ki, 1828-ci ildən 1830-cu ilədək Cənubi Qafqaza 40 min nəfərdən çox İran, 84600 nəfər Türkiyə ermənisi köçürülərək, Yelizavetpol, İrəvan, Tiflis quberniyalarında, Borçalı, Axaltsix və Axalkalak qəzalarındakı xəzinə torpaqlarında yerləşdirilmişdi. Müəllif, köçürmədən əvvəl Yelizavetpol və İrəvan quberniyalarında ermənilərin sayının çox cüzi olduğuna da diqqəti cəlb edir. Yuxarıda qeyd olunan quberniya və qəzalarda erməniləri məskunlaşdırmaq üçün 200 min desyatin xəzinə torpağı ayrılmış, bundan başqa, 2 mln. manat dəyərində torpaq müsəlmanlardan satın alınmışdı. Ermənilər üçün ayrılmış torpaqlar daha çox Dağlıq Qarabağda və Göyçə gölü sahillərində yerləşirdi. N.İ. Şavrov köçürülən ermənilərin sayı ilə bağlı rəqəmlərin həqiqəti əks etdirmədiyini bildirir. O, qeyd edir ki, rəsmi olaraq köçürülmüş 124 min nəfər ermənidən savayı, on minlərlə erməni qeyri-rəsmi olaraq köçürülmüş və ümumilikdə Cənubi Qafqaza köçürülən ermənilərin sayı 200 min nəfərdən çox olmuşdu[126].

Çar hökuməti Azərbaycana köçürülən ermə-

125 Величко В.Л. Указ. соч., с. 81.

126 Шавров Н.И. "Новая угроза русскому дело в Закавказье: предстоящая распродажа Мутани инородцам" // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1988, № 3 s. 55.



www.1905.az

niləri əvvəlcə Bərdədə yerləşdirməyi planlaşdırırdı, lakin onların köçdən əvvəl dağlıq ərazilərdə yaşadıqlarını nəzərə alaraq və aran zonasının istisinə dözməyərək tələf olacaqlarından ehtiyatlanaraq, ilkin planından əl çəkmiş və yerli əhalinin müqavimətinə baxmayaraq, onları Qarabağın dağlıq hissəsində və Şuşa şəhərində yerləşdirməyi qərara almışdı[127].

Ermənilər təkcə Azərbaycan torpaqlarına deyil, indiki Gürcüstan ərazisinə də köçürülürdü. Rus hökuməti Osmanlı ərazisindən köçürülən ermənilərin bir hissəsini Gürcüstanın Axalkalak qəzasında (Cavaxetiya) yerləşdirmişdi və tez bir zamanda burada gəlmələrin sayı yerli əhalinin sayını ötmüşdü[128].Qraf Paskeviç 1828-ci ildə 30 min nəfər ermənini Türkiyədən köçürərək Samsxe, Cavaxetiya, Eruşeti və Palakatsio ərazisində yerləşdirmişdi. 1828-ci ilədək Mesxetiyada əhalinin 90 %-i gürcülər idisə, 1830-cu ildə üstünlük ermənilərin tərəfinə keçmişdi[129].

1828-ci ildə 30 min erməni Paskeviç tərəfindən Mesxetiyə köçürülmüşdü. Ermənilərin yeni məskunlaşdıqları ərazilərdə erməni qriqorian kilsəsinin iştirakı ilə dini məktəblər açılırdı, bu məktəblər gürcü dilli əhalinin kütləvi surətdə erməniləşməsi ilə nəticələnirdi. 1886-cı il dekabrın 27-dən isə Samsxe-Cavaxetiyada kilsə işlərində gürcü dilindən istifadə etmək qadağan edildi. Kilsələrdə erməni dili, təhsildə isə rus dili əsas oldu[130]. Deməli, Samsxe-Cavaxetiyanın tamamilə erməniləşməsi

127 Xəlilov X.D. Göstərilən əsəri, s. 43.

128 Марджанлы М. Указ. соч., с. 58.

129 Yenə orada, s. 60.

130 Тетвадзе Ш., Тетвадзе О. Указ. соч., с. 53.

üçün təxminən 60 il lazım olmuşdu.

1829-cu il dekabrın 3-də Paskeviç tərəfindən yaradılmış və Zavileyskinin rəhbərlik etdiyi xüsusi köçürmə komitəsi Qars, Ərzurum və Bəyazitdən 8 min ailəni Gürcüstana köçürməyi planlaşdırırdı, lakin reallıqda 14 min ailə köçürülmüşdü. Ermənilər Gürcüstan ərazisindəki müsəlman torpaqlarında yerləşdirilirdi. Bunun üçün torpaqlar boşaldılır, müsəlmanları Osmanlı ərazisinə köçürürdülər. 1829-1830-cu illərdə yepiskop Karapet və V. Bebutovun səyləri nəticəsində təkcə Samsxe-Cavaxetiyadan 35 min müsəlman köçürülmüşdü[131].

1830-1831-ci illərdə Gürcüstan ərazisinə Ərzurumdan 7.298, Ərdəhandan 67, Qarsdan 2.264, Bəyazitdən 200 erməni ailəsi köçürülmüşdü[132].

Rus hökuməti köçürülən ermənilərin təkcə məskunlaşması üçün deyil, onların güclü iqtisadi imkanlar əldə etməsi üçün çeşidli tədbirlər həyata keçirirdi. Məsələn, "Knyaz Vorontsov iri həcmli var-dövlətin əsasını qoyan əlverişli müəssisələri onlara, demək olar ki, zorla verirdi"[133].Nəticədə, tez bir zamanda Cənubi Qafqazda ermənilərdən ibarət varlı bir təbəqə formalaşdı, çox vaxt hökumət nümayəndələri belə onların pul kisəsindən asılı olurdu.

## XIX əsrin II yarısı – XX əsrin əvvəllərində Cənubi Qafqazda ermənilər

XIX əsrin birinci yarısında həyata keçirilmiş

131 Yenə orada, s. 51.
132 Yenə orada, s. 55.
133 Величко В.Л. Указ. соч., с. 83





köçürmə siyasətinə baxmayaraq, Azərbaycanın qərb torpaqlarında azərbaycanlı əhali yenə də çoxluq təşkil edirdi, eyni zamanda erməni əhalinin xüsusi çəkisi nəzərəçarpacaq dərəcədə artmışdı. Məsələn, 1851-ci ildə İrəvan şəhərində 12.605 nəfər yaşayırdı. Onlardan 6.488 nəfəri müsəlman, 6.115 nəfəri isə erməni idi[134].Başqa sözlə, şəhər əhalisinin 51,5 %-i müsəlman, 48,5 %-i erməni idi.

Qeyd olunan ildə Şuşa şəhərinin 12.724 nəfər daimi sakini vardı. Şəhər əhalisinin sosial tərkibinə gəldikdə isə, burada 66 nəfər müsəlman, 1 nəfər pravoslav, 75 nəfər erməni-qriqorian ruhani, 52 nəfər kilsə xidmətçisi, 28 nəfər məlik, 1.522 nəfər bəy və məmur, 18 nəfər mülki məmur, 6.114 nəfər xəzinə, 4.833 nəfər mülkədar kəndlisi vardı. Bununla yanaşı, Şuşada 9 məscid, 4 erməni kilsəsi, 1 erməni qadın monastrı, 1 pravoslav kilsəsi fəaliyyət göstərirdi. Şəhərdəki 9 məscidin nəzdində olan məktəblərdə 400 nəfər şagird təhsil alırdı. Bundan başqa, Aliyə sektasına məxsus məktəbdə 58 nəfər müsəlman uşağı, qəza məktəbində isə 110 nəfər təhsil alırdı. Ermənilərə gəldikdə isə, şəhərdə 74 nəfərin təhsil aldığı bir erməni-qriqorian məktəbi fəaliyyət göstərirdi[135].

N.İ. Şavrov ermənilərin Cənubi Qafqaza köçürülməsi prosesinin 1853-1856-cı illər Krım müharibəsindən sonrakı dövrdə də davam etdiyini, lakin köçürülənlərin dəqiq sayının qeydə alınmadığını bildirir[136].

1873-cü ildə Naxçıvan şəhərində azərbaycanlıla-

134 Кавказский календарь на 1852 г. Тифлис, 1851, с. 441.
135 Yenə orada, s. 433-435.
136 Шавров Н.И. Указ. соч., с. 55.

rın sayı 4.694 nəfərə bərabər idisə, ermənilərin sayı 5.167 nəfərə çatmışdı. Qeyd olunan ildə Naxçıvan mahalında 20.836 nəfər azərbaycanlı, 17.468 nəfər erməni, Ordubad şəhərində 3.131 nəfər azərbaycanlı, 360 nəfər erməni, Ordubad mahalında 9.593 nəfər azərbaycanlı, 4.864 nəfər erməni, Dərələyəz mahalında 18.040 nəfər azərbaycanlı, 11.477 nəfər erməni yaşayırdı[137].Beləliklə, qeyd olunan ərazilərdə 1873-cü ildə 56.294 nəfər azərbaycanlı, 39.336 nəfər erməni yaşayırdı, başqa sözlə, azərbaycanlılar regionun əsas etnosu olaraq qalırdılar.

1877-1878-ci illər rus-türk müharibəsindən sonra Cənubi Qafqaza erməni köçünün yeni mərhələsi başlayır. N.İ. Şavrovun hesablamalarına görə, Qars vilayətinə 50 min nəfər erməni və təxminən 40 min nəfər yunan köçürülmüşdü. Bundan başqa, general Ter-Qukasov içərisində Türkiyə erməniləri olan 35 min arabanın Sürməli qəzasına gəlməsini təmin etmişdi. Erməni axınları fasiləsiz olaraq davam etmiş və bu axınlarda Kiçik Asiyadan çıxanlar üstünlük təşkil etmişdi[138].

1877-1879-cu illərdə Cənubi Qafqaza 185 min nəfər erməni köçürülmüşdü[139].Bəzən əhalinin sayı ilə bağlı müxtəlif mənbələrdə və tədqiqat işlərində yer almış statistik materiallar şübhə doğurur. Məsələn, Q.Marxuliya və Ş.Nuriyeva erməni müəllif Z. Korkodyana istinadən qeyd edirlər ki, 1866-cı ildə İrəvanın 27.246 nəfər sakininin 23.626 nəfəri və ya 85,2 %-i azərbaycanlılar idi. 1883-cü ildə isə İrəvan şəhərində yaşayan 18.766 nəfərin 15.992 nəfəri azərbaycanlılar idi[140],bu da əhalinin yenə də 85%-dən çoxunu təşkil

137 Зелинский С.П. Указ. соч., с. 248.
138 Шавров Н.И. Указ. соч., с. 55.
139 Мархулиа Г., Нуриева Ш. Указ. соч., с. 97.
140 Yenə orada, s. 99.





edirdi. 1866 və 1883-cü ilə aid məlumatları müqayisə etdikdə İrəvan şəhərinin əhalisinin 8 min nəfərdən çox, özü də əsasən qeyri-azərbaycanlıların hesabına azaldığı müəyyən olur. Erməniləri köçürmə siyasətinin davam etdiyini nəzərə alsaq, qeyd olunan statistikanın şübhəli olduğu aydın olar. Rəsmi statistikaya görə 1851-ci ildə İrəvanda, 12.605 nəfər yaşayırdı. 1880-ci ilə aid rəsmi statistikaya görə isə, burada 11.938 nəfər yaşayırdı ki, onun da 5.805 nəfəri Azərbaycan türkləri, 5.959 nəfəri isə ermənilər idi[141].Sonuncu rəqəmlər həqiqətə daha uyğun hesab oluna bilər, çünki bir tərəfdən, şəhərdəki əhalinin ümumi sayı ilə bağlı 1851 və 1880-ci illərə aid rəqəmlər arasında kəskin fərq yoxdur, digər tərəfdən isə, 1877-1878-ci illərdə regionda hərbi əməliyyatların getdiyi nəzərə alınsa, onda şəhər əhalisinin sayında yüzlərlə ölçülən geriləmənin olmasını təbii qəbul etmək olar.

Erməniləri müxtəlif yerlərdən Cənubi Qafqaza köçürən Rusiya bununla kifayətlənmir, Osmanlı dövlətini parçalayaraq, onun şərq vilayətlərini Cənubi Qafqazın ermənilər köçürülmüş rayonları ilə birləşdirərək xristian erməni dövləti yaratmağı planlaşdırırdı.

Rusiyanın Hələbdəki konsulluğunun katibi Lundekvist 1879-cu il oktyabrın 1-də Qafqaz hərbi dairəsi qərargah rəisinə göndərdiyi gizli məktubda qeyd edirdi ki, onlar üçün qonşuluqda xristian erməni dövlətinin olması müsəlman türk dövlətinin olmasından daha sərfəlidir. "...ayrı-ayrı xalqların birləşmə ideyasının müasirliyini , həmçinin

141 Сборник сведении о Кавказе. Т. VII, Тифлис, 1880, с. XVIII-XXI

öz xeyrimizi görərək, biz sərhədimizdə erməni dövlətinin yaradılmasına yardım etməliyik"[142]. Rus siyasi elitası arasında bu fikrə ehtiyatla yanaşanlar da vardı. Məsələn, Hələbdəki rus konsulu İvanova görə, erməni dövlətinin yaradılması bütün Qafqazı narahat edəcək nəticələrə gətirə bilər, bu isə Qafqazda Rusiya təsirini və hakimiyyətini ləğv etmək məqsədilə Avropa dövlətlərinin proseslərə müdaxiləsi ilə nəticələnə bilər[143]. Aydın məsələdir ki, daha geniş planda Şərq məsələsini öz xeyrinə həll etməyə çalışan Rusiya və Qərbi Avropa ölkələri, xüsusilə İngiltərə, erməni məsələsindən bir vasitə kimi istifadə edir, Qara və Aralıq dənizi hövzələrinə nəzarət uğrunda onlar arasında sərt rəqabət gedirdi. Rus konsulu İvanov erməni muxtariyyətinin əleyhinə çıxış edərkən, məhz bunu nəzərə almış və ermənilərin deyil, təmsil etdiyi ölkənin maraqlarını önə çəkmişdi. O, hesab edirdi ki, ermənilərə muxtariyyət verilməsi Osmanlı dövlətində yaşayan kürdlərin, ərəblərin və yunanların da oxşar tələblə çıxış etmələrini qaçılmaz edəcək, bu isə xalqlararası gərginliyi, düşmənçiliyi artıracaq və Qərbin, xüsusilə İngiltərənin regiona müdaxiləsi üçün əlverişli şərait yaradacaq[144].

144 Приложение к письму секретаря консульства в Алеппо надворного советника Лундеквиста на имя начальника штаба Кавказского военного округа, 10 октября 1879 г. // «Армянский вопрос» в Турции, с. 317-318.

142 Приложение к письму секретаря консульства в Алеппо надворного советника Лундеквиста на имя начальника штаба Кавказского военного округа, 1 октября 1879 г. // «Армянский вопрос» в Турции (В мемуарах русского генерального штаба). Анкара, 2013, с. 313.

143 Yenə orada. s. 313-314. 144 Приложение к письму секретаря консульства в Алеппо надворного советника Лундеквиста на имя начальника штаба Кавказского военного округа, 10 октября 1879 г. // «Армянский вопрос» в Турции, с. 317-318





XIX əsrin 90-cı illərində bir tərəfdən Rusiyanın, digər tərəfdən İngiltərənin təhriki ilə ermənilərin fəallaşması müşahidə olunurdu. Hər iki dövlət öz nəzarətində olacaq Ermənistan muxtariyyəti və ya dövlətini yaratmağa can atırdı. İngilislərin Türkiyənin şərq sərhədlərində əvvəlcə muxtar, sonra isə müstəqil Ermənistan yaratmaq planları Rusiyada böyük narahatlıq yaradırdı, çünki bu, "erməni məsələsi"ni əldə bəhanə tutaraq Kiçik Asiya istiqamətində irəliləməyi planlaşdıran Rusiyanın qarşısını kəsə bilərdi. Rus polkovniki Jilinski 1895-ci il 11 yanvar tarixli raportunda bu barədə qeyd edirdi: "Əslində bu, Türkiyə üçün əlverişli ola bilərdi, çünki hal-hazırda Bolqarıstanın İstanbula yolumuzu kəsdiyi kimi, bizim ordunun Qafqaz tərəfdən Kiçik Asiyaya müdaxilə imkanlarının qarşısını tam alardı"[145]. Polkovnik Jilinskinin raportu bir daha sübut edir ki, "dostluq", "qardaşlıq" "dini həmrəylik" və s. şüarlarla erməniləri Cənubi Qafqaza köçürərək burada yerləşdirən, hələ də İstanbulun xiffətini çəkən çar Rusiyasının həqiqi məqsədi ermənilərdən istifadə etməklə, Kiçik Asiyanın içərilərinə doğru irəliləmək, ingilislərin regionda söz sahibi olmasının qarşısını almaq idi.

Türkiyə ərazisində erməni muxtariyyətinin yaradılmasını ruslar özləri üçün təhlükə hesab edirdilər. Polkovnik Jilinski bu muxtariyyatın Rusiya imperiyası hüdudlarında (İrəvan quberni-

145 Рапорт старшего делопроизводителя канцелярии Военно-Ученого Комитета Главного штаба Генерального штаба полковника Жилинского управляющему делами Военно-Ученого Комитета, 11 января 1895 г. // «Армянский вопрос» в Турции, с. 336.

yası, Qars vilayəti və Batum) yaşayan ermənilər üçün də cəlbedici olacağını bildirirdi. Ermənilərin iri dövlətlərin əlində vasitə olduğunu bir daha diqqət mərkəzinə çıxaran rus zabiti, onların "böyük xalq" olmaları barədə iddialarını heçə endirir və onlara müəyyən mənada istehza ilə yanaşırdı: "...Şübhəsiz ki, ermənilər də, bütün kiçik xalqlar kimi, alman (ola bilsin ingilis) şahzadəsi başda olmaqla böyük bir çarlıq yaratmaq arzusuna düşəcəklər". Rus polkovniki o fikirlə razılaşırdı ki, "...Əgər Rusiya sərhəddində yarımvəhşi ermənilər kimi narahat element meydana gələrsə, onda sərhəd boyu toqquşmaların sonu olmayacaq... sülhə daimi təhlükə törədəcək"[146] Erməni millətçilərinin sonrakı onilliklər ərzində törətdikləri faciəli hadisələr fonunda, bu sözlərin nə qədər uzaqgörənliklə söylənildiyinə şərh vermək mümkün deyil.

XIX əsrin 90-cı illərinin ortalarında ermənilərin Cənubi Qafqazda yerləşdirilməsi prosesi davam edirdi. Bu dövrdə Türkiyədə baş vermiş erməni üsyanları yatırıldıqdan sonra Cənubi Qafqaza xeyli erməni gəlmişdi. 1894-cü ilədək bura 100 min nəfər erməni köçürülmüşdüsə, 1897-ci ildə gəlmə ermənilərin sayı artıq 900 min nəfərə çatmışdı və onların hamısı Rusiya təbəəliyini qəbul edərək Cənubi Qafqazda məskunlaşmışdılar[147].

1897-ci ildə Rusiyada keçirilmiş siyahıyaalmanın nəticələrinə görə, Qarabağda 54.841 ailə yaşayırdı. Bu ailələrin 29.350-si azərbaycanlılara, 18.616-sı ermənilərə, yerdə qalanlar isə digər

146 Yenə orada. s. 336-337.
147 Шавров Н.И. Указ. соч.,. с. 55-56.





xalqlara mənsub ailələr idi[148].

Ermənilərin sayı indiki Gürcüstan ərazisində də artırdı. Əgər, 1800-cü ildə Gürcüstanda 47 min erməni yaşayırdısa, 1832-ci ildə onların sayı 84 min nəfərə, 1865-ci ildə 122,6 min nəfərə, 1886-cı ildə 172,9 min nəfərə, 1897-ci ildə isə 197 min nəfərə çatmışdı[149].

1896-cı ildə Cənubi Qafqazda təxminən 900 min nəfər erməni yaşayırdısa, 1908-ci ildə onların sayı 1 mln. 300 min nəfərə çatmışdı. N.İ. Şavrovun hesablamalarına görə, sonuncuların 1 mln. nəfəri Cənubi Qafqazın yerli əhalisinə aid deyildi[150].X.D.Xəlilov 1917-ci ildə işıq üzü görmüş "Qafqaz təqvimi"nə istinadən bildirir ki, qeyd olunan ildə Qarabağda yaşayan 574.194 nəfər əhalinin tərkibində azərbaycanlıların sayı 317.861 nəfərə, ermənilərin sayı isə 243.627 nəfərə bərabər olmuşdu[151].Deməli ermənilərin intensiv olaraq məskunlaşdığı regionlardan birində, Qarabağda əhalinin təxminən 55 %-dən çoxu azərbaycanlılar, 42 %-dən çoxu ilə ermənilər idi.

XX əsrin əvvəllərində indiki Gürcüstan ərazisinin erməniləşməsi prosesi də davam edirdi. Rus hökuməti Osmanlı dövlətindən köçürülən erməniləri Axalsix, Axalkalak, Abxaziya, Acariya və Borçalı ərazisində, Tbilisi, Kutaisi, Qori, Borjomi və Batum şəhərlərində yerləşdirildi[152]. 1897-1902-ci illərdə Gürcüstan ərazisinə təxminən 55 min

148 Xəlilov X.D. Göstərilən əsəri, s. 43. 152 Марджанлы М. Указ. соч., с. 58.
149 Тегвадзе Ш., Тегвадзе О. Указ. соч., с. 56.
150 Там же.
151 Халилов Х.Д. Указ. соч., с. 43.
152 Марджанлы М Указ. соч., с. 58.

nəfər erməni köçürülmüşdü. Tbilisidə ermənilərin sayı 46,7 min nəfərdən 124,9 min nəfərə çatmışdı.[153] XX əsrin əvvəllərində Gürcüstanda artıq 252 min nəfər erməni yaşayırdı, onlar əsasən Tbilisi, Cavaxetiya və Borçalıda məskunlaşmışdılar[154].

Beləliklə, XIX əsr – XX əsrin əvvəllərində ermənilərin intensiv surətdə Cənubi Qafqaza köçürülməsi, bir tərəfdən regionda demoqrafik vəziyyəti ermənilərin xeyrinə dəyişdi, digər tərəfdən, Azərbaycan və Gürcüstanın bu gün üzləşdikləri separatizmin meydana gəlməsinə şərait yaratdı.

153 Тетвадзе Ш., Тетвадзе О. Указ. соч., с. 77.
154 Марджанлы М. Указ. соч., с. 60.





# III. ERMƏNİ QRİQORİAN KİLSƏSİNİN MƏNİMSƏMƏ SİYASƏTİ

## Erməni kilsəsi və alban irsi

Erməni xalqının tarixinə diqqət yetirdikdə, onların müstəqil, dayanıqlı, uzunömürlü dövlət sistemi yarada bilmədikləri, xarici qüvvələrin təsiri altında yaratdıqları çarlıq və knyazlıqların isə marginal xarakter daşıdığı, xalqın formalaşmasında və etnomədəni inkişafında ciddi iz qoya bilmədiyi aydın olur. Vahid və güclü siyasi mərkəzin, müəyyən etnik ərazini əhatə edən sosial-iqtisadi ukladın olmaması ermənilərin diaspor xalqı kimi formalaşmasına, onların dünyanın bütün qitələrinə səpələnməsinə səbəb olmuşdur. Mövcud olan bu çatışmazlıqları müəyyən mənada kompensasiya etmək missiyası kilsənin üzərinə düşmüşdür.

Erməni qriqorian kilsəsi meydana gəldiyi vaxtdan ermənilərin dini həyatını tənzimləməklə yanaşı, onların siyasi, iqtisadi, mədəni problemlərini də həll etməyə çalışmış, müəyyən mənada dövlət funksiyalarını öz üzərinə götürmüşdür. Bu səbəbdən də erməni kilsəsi tez bir zamanda bir çox siyasi, hətta hərbi-siyasi proseslərin mərkəzində yer almış, süni erməni tarixinin yaradılmasının həm təşəbbüsçüsünə, həm də icraçısına çevrilmişdi.

Diaspor xalqı olaraq, ermənilərin vahid, möhkəm şəkildə strukturlaşmış, funksional qabiliyyətli, konkret məkanda təşəkkül tapmış etnomədəni sistem formalaşdırması mümkün ola bilməzdi. Əgər, dünyanın müxtəlif regionlarında yaşayan

ermənilərin malik olduqları dəyərlər sistemınə, mədəni inkişaf səviyyəsinə və xüsusiyyətlərinə diqqət yetirsək aydın gözə çarpan pərakəndəliyin, sistemsizliyin şahidi olarıq. Onlar müxtəlif vaxtlarda köç edərək məskunlaşdıqları və hal-hazırda yaşadıqları ölkələrdə yerli mədəniyyətin təsiri altına düşmüs, zaman keçdikcə isə, bu mədəniyyətin ayrı-ayrı elementlərini mənimsəyərək öz adlarına çıxarmağa cəhdlər etmiş və edirlər. Milli identikliyin müəyyənləşdirilməsində şəxs adları əhəmiyyətli rol oynayır. Ermənilər Azərbaycanda azərbaycanlı adlarını, Gürcüstanda gürcü adlarını, İranda fars adlarını, Şərqi Avropada slavyan adlarını və s. asanlıqla qəbul edir, çox vaxt bu adların arxasında gizlənərək, sağlam olmayan niyyətlərini həyata keçirməyə çalışırlar.

Bu müxtəliflikdə və dağınıqlıqda kilsə erməniləri birləşdirən və onlar arasında əlaqənin qorunub saxlanmasını təmin edən yeganə institutdur. Dünyanın digər xalqlarına aid olan dini idarələr bu sahədə erməni kilsəsinə həsəd apara bilər. Qriqorian kilsəsi ermənilərin təkcə dini və milli ruhunu qoruyub saxlamağın qayğısına qalmır, o, həm də onların başqasının mədəniyyətinə yiyələnmək, dəyərlərinə sahib çıxmaq, müxtəlif yollarla ərazisini ələ keçirmək işinə rəhbərlik edir. Eçmiədzinin adı bəşəriyyətə qarşı ən ağır cinayətlərdən biri olan terrorçuluqda belə çəkilir.

Cənubi Qafqaz xalqlarının qədim və müasir mədəniyyətini mənimsəmək, onu erməniləşdirmək və qriqorianlaşdırmaq Eçmiədzinin xüsusi canfəşanlıq göstərdiyi sahələrdəndir. Bu mənada Qafqaz Albaniyasının mədəni-dini irsini saxtalaşdıraraq mənimsəmək onun əsas fəaliyyət istiqamətlərindən birinə çevrilmişdir.



www.1905.az

Qafqaz Albaniyasında xristianlıq IV əsrdən yayılmağa başlamışdı. Tarixin müxtəlif dövrlərində erməni kilsəsi alban kilsəsini öz təsiri altına salmağa, özünə tabe etməyə çalışmışdır. Buna baxmayaraq, alban kilsəsi, 1836-cı ildə I Nikolayın fərmanı ilə erməni-qriqorian kilsəsinə tabe edilənədək, öz müstəqilliyini qoruyub saxlaya bilmişdir. Erməni müəllifi S.Yeremyanın R. Mehdiyevin "Gorus-2010: absurd teatrı" əsərində yer almış fikirləri xüsusi maraq doğurur: "Əksər hissəsi ərəb işğalından əvvəlki dövrlərə təsadüf edilən xristian abidələrinin çoxu qədim Albaniyanın erməniləşmiş hissəsində və hazırda əsasən, erməni əhalisinin yaşadığı qədim Alban vilayəti olan Arsax və Utikdə qorunub saxlanılmışdır"[155].

Ermənilər heç bir əsas olmadan alban abidələrinə, Azərbaycan ərazisindəki qədim alban kilsələrinə sahib çıxmağa çalışırlar. Belə abidələrdən biri, indiki Şəki rayonunun ərazisində yerləşən Kiş apostol kilsəsidir. Bu kilsə Qafqaz Albaniyasında xristianlığın ilkin mərkəzi hesab olunur. "Albaniya tarixi" əsərinin müəllifi, alban tarixçisi M.Kalankatuklu bu kilsəni ümumilikdə Şərqin ən qədim kilsəsi hesab edir: "O, (Yelisey – A.Ş.) Albaniyada xristianlığı təbliğ edib və orada, Kişdə bütün Şərqdə olan kilsələrin ulu anası olan kilsəni bina edib və o zaman ermənilərdə kilsəyəbənzər heç bir şey yox idi. Albanlar öz dəlillərini irəli sürüb er-

155 Mehdiyev R.Ə. Gorus – 2010: absurd teatrı mövsümü. Bakı, 2010, s. 41-42.

mənilərdən ayrıldılar ki, bundan sonra daha heç kəsə tabe olmasınlar"[156]. Göründüyü kimi, müəllif albanlarda kilsə tikintisinin ermənilərə nisbətən daha tez başladığını bildirir. Xristianlığın Albaniyaya qərbdən gəldiyi nəzərə alınsa, başlanğıcda ermənilərin də bu prosesdə iştirakını mümkün hesab etmək olar, lakin onların həqiqi niyyətləri, alban kilsəsini erməni kilsəsinə tabe etmək niyyəti tez bir zamanda üzə çıxmış, bu da albanların ermənilərdən uzaqlaşmasına gətirib çıxarmışdı. Alban tarixçisi bunun sadəcə ayrılma prosesinin olmadığını, dəlillərə əsaslandığını da diqqətdən qaçırmamışdır.

2000-2004-cü illərdə Kiş apostol kilsəsinin ərazisində aparılmış arxeoloji qazıntılar, bu abidənin təkzallı bazilikadan günbəzli memarlığadək beş tikinti mərhələsi keçdiyini üzə çıxarmışdır. Memarlığı Qafqaz Albaniyası memarlığının ilkin xristian mərhələsinə aid olan Kiş məbədi qədim bünövrə üzərində tikilmiş, III-V əsrlərdə onun üzərində kiçik təkzallı bazilika tipli kilsə inşa edilmişdir. VI-VII əsrlərdə bu kilsə memarlıq formasını dəyişmişdir. Kiş kilsəsi 1864 və 1930-cu illərdə ermənilər tərəfindən təmir olunmuşdur, nəticədə abidənin xarici görünüşü dəyişdirilmişdir. Kilsənin üzərində onun müqəddəs apostol Yelisey kilsəsi olduğunu və 1244-cü ildə alban kilsəsinin arxiadiakonu Serafin tərəfindən yenidən qurulduğunu bildirən kitabə də tamamilə pozulmuşdur[157]. Təmir işlərini erməni

156 Kalankatuklu M. Albaniya tarixi. Qoş M. Alban salnaməsi. Bakı 1993, c. 84.
157 "Kiş" məbədı (I əsr) // http://www.scwra.gov.az/structure/56/?







*Kış kilsəsi*

Mənbə:www.scwra.gov.az

üslubunda aparanlar unudurlar ki, abidənin üzərindəki yazını pozmaq olar, lakin onun haqda tarixdə yer almış məlumatları yox etmək qeyri-mümkündür. Necə deyərlər, "əlyazmalar yanmır".

Ermənilərin iddia etdikləri alban abidələrindən biri də Amaras monastrıdır. Azərbaycan Respublikası Xocavənd rayonunun ərazisində yerləşən monastr Qafqaz Albaniyasında xristianlığın yayılmasının əsas mərkəzlərindən biri olmuşdur. IV əsrdə inşa edilmiş bu monastr memarlıq xüsusiyyətlərinə görə də erməni deyil, alban kilsə memarlığının nümunələrindəndir. Amaras monastrının albanlara aid olması tarixi faktlarla da təsdiq olunur. Məsələn, ermənilər Amaras yepiskopuna ünvanladıqları məktubda yazırlar: "...Afina keşişlərinə bənzər və bərabər olan Albaniyanın olduqca nəcib və hörmətli kilsə əyanlarına!... Sizə... bütün hadisələrin gedişatına fikir verən - sənə, Amaras yepiskopu Simeona, Müqəddəs kilsənizin başqa həmfikir yepiskoplarına, azad adamlara və Albaniya xalqının başqa nümayəndələrinə!"[158] Göründüyü kimi, məktub müəllifi olan ermənilər Amaras yepiskopunu erməni deyil, alban xalqının nümayəndəsi kimi qəbul edirlər. "Siz öz məktubunuzda öz imanınız haqqında qısaca danışdınız...", "biz dində və imanda heç də sizdən aşağı deyilik, çünki havarilər və müəllimlər bizə də sizin kimi Zəburu eynilə öyrədiblər"[159] kimi fikirlərin yer aldığı məktubun məzmunu da albanların, o cümlədən Amaras monastrında ibadət edənlərin ermə-

158 Kalankatuklu M. Göstərilən əsəri, s. 85.
159 Yenə orada, s. 86.



www.1905.az



*Amaras monastrı*

Mənbə: www.karabakh.org

nilərə tabe olmadığına dəlalət edir.

Ermənilərin göz dikdiyi digər abidə Azərbaycanın Qax rayonunun Qum kəndində yerləşir. Qum məbədi haqqında ilk məlumat 1898-ci ildə A.S. Xaxanov tərəfindən verilmişdir, Qum bazilikası haqqında geniş məlumat isə P.D.Baranovskiyə məxsusdur. Abidə V əsrdə, Qafqaz Albaniyasının hökmdarı III Mömün Vaçaqanın göstərişi ilə fələstinli xristian missioner Yeliseyin atəşpərəstlər tərəfindən öldürüldüyü yerdə inşa edilmişdir[160].

Ağdərə rayonunda yerləşən Qandzasar monastrı Alban memarlığının incilərindən hesab olunur. Monastr kompleksi XIII əsrdə Qafqaz Albaniyasının Artsax vilayətində inşa edilmişdir. Son antik dövr - erkən orta əsrlərdə Artsaxın əhalisi utilərdən, qarqarlardan, kaspilərdən, sodlardan və gəlmə hunlardan, basillərdən, xəzərlərdən ibarət idi. XIX əsrədək alban xristian əhalinin mühüm siyasi, mədəni və mənəvi mərkəzi olmuşdur[161].

T.İ.Ter-Qriqorian yazır ki, Qandzasar monastrı 1240-cı ildə alban katolikosu Həsən Cəlalyan tərəfindən, onun əcdadlarının dəfn olunduğu yerdə tikilmişdir. 1261-ci ildə Həsən Cəlalyanın özü, sonrakı dövrlərdə onun varisləri də burada dəfn olunmuşdur. 1511-ci ildən isə Qandzasar monastrı alban katolikoslarının iqamətgahına çevrilir. Esai Həsən Cəlalyan 1702-ci ildən 1728-ci ilədək alban və ya Qandzasar katolikosu olmuşdur[162].

160 Qumun unikal abidəsi. Qum bazilikası // http://www.anl.az/down/meqale/azadliq/2012/noyabr/276454.htm.

161 Гандзасарский монастырский комплекс. Историческая справка // История Азербайджана по документам и публикациям. Баку. 1990, с.34-37.

162 Есаи Хасан-Джалалян. Краткая история страны Албанской (1702-1722).Баку, 1989, с. 6.







*Qum məbədi*

Mənbə: www.scwra.gov.az

Göygöl rayonu Çaykənd kəndindəki "Anahit" kilsəsi (erkən xristianlıq dövrü), Gədəbəy rayonundakı "Mahrasa" məbədi (III-IV əsrlər), Şəki rayonundakı "Şəki" məbədi (III-V əsrlər), Şəmkir rayonu Çaparlı kəndindəki "Çaparlı" məbədi (IV-V əsrlər), Zaqatala rayonu Mamrux kəndindəki "Mamrux" məbədi (IV-V əsrlər), Qəbələ rayonu Böyük Əmili kəndindəki "Kilsədağ" məbədi (IV-V) əsrlər, Daşkəsən rayonu "Bayan kəndindəki "Bayan" məbədi (IV-V əsrlər), Qax rayonu Ləkit Kötüklü kəndindəki "Yeddikilsə məbəd kompleksi" (IV-V əsrlər), Zaqatala rayonu Yuxarı Tala kəndindəki "Yuxarı Tala" məbədi (IV-V əsrlər), Qax rayonunun Ləkit kəndindəki "Ləkit" məbədi (IV-VI əsrlər), Mingəçevir şəhərindəki "Mingəçevir məbəd kompleksi" (IV-VII əsrlər), Zaqatala rayonu Zaqatala qoruğundakı "Katex" məbədi (V əsr), Daşkəsən rayonu Quşçu kəndindəki "Quşçu" məbədi (V əsr), Oğuz rayonu Çalut kəndindəki "Çalut" məbədi (V-VI əsrlər), Ağcabədi rayonu Təzəkənd kəndindəki "Təzəkənd" məbədi (V-VI əsrlər), Gəncə şəhərindəki "Gəncə Alban Məbədi" (V-VII əsrlər), Qazax rayonu Aşağı Əskipara kəndindəki "Aşağı Əskipara" məbədi (V-VIII əsrlər), Tovuz rayonu Əsrik-Cırdaxan kəndindəki "Əsrik-Cırdaxan" məbədi (VII-X əsrlər), Şəki rayonu Bideyiz kəndindəki "Bideyiz" məbədi (XI əsr), Gədəbəy rayonu Çaldaş kəndindəki "Çaldaş" məbədi (IX-XI əsrlər), Şəki rayonu Orta Zəyzid kəndindəki "Orta Zəyzid" məbədi (X-XI əsrlər), Gədəbəy rayonu Böyük Qaramurad kəndindəki "Həmşivəng" məbədi (XII əsr), Balakən rayonu Qullar kəndindəki "Arılıqbinə məbəd kompleksi"







*Qandzasar monastrı*

Mənbə:www.karabakh.org

(XIII əsr), Oğuz rayonundakı "Müqəddəs Yelisey məbəd kompleksi" (XIII-XIV əsrlər), Daşkəsən rayonu Dəstəfur kəndindəki "Dəstəfur" məbədi (XV əsr), Daşkəsən rayonu Qabaqtəpə kəndindəki "Qabaqtəpə" məbədi (XV əsr), Balakən rayonu Talalar kəndindəki "Nur" kilsəsi (XVəsr), Daşkəsən rayonunun Bayan kəndindəki "Çiçərvəng" məbədi (XV əsr) və s. Qafqaz Albaniyasının memarlıq incilərindən hesab edilir və onların erməni xristian memarlığı ilə heç bir əlaqəsi yoxdur.

Erkən orta əsrlərdə Qafqaz Albaniyası tez-tez şimal tayfalarının, xüsusilə xəzərlərin hücumlarına məruz qalırdı. Bu qarətçi hücumlar ölkənin sosial-iqtisadi həyatı kimi, dini həyatına da mənfi təsir göstərirdi. Bunu nəzərə alaraq, 531-579-cu illərdə Sasani şahı olmuş I Xosrovun dövründə "Albaniya katolikosluğunun taxtı Çola şəhərindən ölkənin paytaxtı olan Bərdə şəhərinə köçürüldü. Böyük Arran vilayətindən olan Abbas katolikos seçilmişdi. O, katolikos taxtında qırx dörd il oturandan və müqəddəs ömür sürəndən sonra əbədiyyətə qovuşmuşdu"[163].

Alban kilsəsi ilə erməni kilsəsi arasındakı yazışmaların məzmunu da, birincinin müstəqilliyinə dəlalət edir. Bu mənada, erməni katolikosu İovannesin dinin möhkəmlənməsi haqqında Albaniya katolikosu Abbasa yazdığı məktub diqqəti cəlb edir. Məktubda deyilir: "O vaxtdan ki, sizin atalarınız bizim atalarımızla yekdin olub, siz də bizimlə bir imana bağlısınız, biz istəyirik ki, sizin üç və ya dörd yepiskopunuz bizim tərəflərə gəlib

163 Kalankatuklu M. Göstərilən əsəri, s. 76.





həqiqi elmi öyrənsinlər ki, nə bir keşiş həlak olsun, nə də onun kilsəsinə mənsub olan dindarlar itib batsınlar...[164]" Göründüyü kimi, erməni katolikos "sizin atalarınız bizim atalarımız" ifadəsini işlətməklə ermənilərin və albanların eyni kökdən olmadıqlarına eyham vurur. Məktubdan o da aydın olur ki, dini məsələlərə yanaşmada albanlarla ermənilər arasında fikir ayrılığı mövcud olmuş, bu vəziyyət ölümlə nəticələnən toqquşmalara belə gətirib çıxarmışdı.

Regionda baş verən mürəkkəb hərbi-siyasi proseslər fonunda erməni kilsəsi özünün bütövlüyünü qoruyub saxlamaqda çətinlik çəkirdi. Məlumdur ki, 504-cü ildə Ermənistan növbəti dəfə Sasani və Bizans imperiyaları arasında bölüşdürülmüşdü. Bu, eyni zamanda erməni kilsəsinin iki yerə parçalanmasına səbəb olmuşdu. Erməni katolikosu Movses Dvində qərar tutmuşdu, lakin ermənilərin bir hissəsi, yunanların təyin etdiyi İohanın rəhbərliyi altında qriqorian kilsəsinin müstəqilliyini qəbul etmir, ona tabe olmaqdan imtina edirdi. Ümumiyyətlə, erməni qriqorian kilsəsinin müstəqilliyi, onun həqiqiliyi yunanlar tərəfindən ciddi şəkildə şübhə altına alınırdı. Yunan ruhanilərə görə, dünyada kilsə başçılarının oturduğu dörd patriarx taxtı vardır: İsgəndəriyyədə - Markın taxtı, Antakiyada – Matfeyin taxtı, Romada – Lukanın taxtı, Efesdə - İoannın taxtı. Xristian olmaq üçün onlardan birinə və ya hamısına tabe olmaq lazımdır, kilsəyə isə katolikos rəhbərlik etməlidir. Ermənilərin müqəddəs saydıqları Qriqori isə, Qeysəriyyədə arxiyepiskop

164 Yenə orada, s. 80.

rütbəsinə layiq görülmüşdü və katolikos rütbəsi daşımadığı üçün onun müstəqil kilsəyə rəhbərlik etmək hüququ yox idi. Bu səbəbdən də, yunanlar erməniləri müstəqil kilsənin mənsubları deyil, dönük kafirlər adlandırırdılar. Yunanların dəlilləri qarşısında aciz qalan ermənilər vəziyyətdən özünəməxsus şəkildə, saxtakarlıq edərək çıxırlar. Özlərini müqəddəs hesab edən "kilsə əyanları özbaşına və ermənilərin qaba xasiyyətinə uyğun olaraq Abrahamı katolikos təyin etdilər" və onu erməni kilsə taxtına əyləşdirdilər[165]. VII əsrin əvvəllərində baş vermiş bu hadisə erməni saxtakarlığının miqyasını və qriqorian kilsəsinin qeyri-legitimliyini göstərir.

Qafqaz Albaniyasına daxil olan vilayətlərin yepiskopları alban katolikosu tərəfindən təyin olunurdu. Belə vilayətlərdən biri, ermənilərin tabe etməyə çalışdıqları Sünik vilayəti idi. İstər Sünik kilsəsinin üzvləri, istərsə də Sünik əhalisi ermənilərə tabe olmaqdan imtina edir, Sünik yepiskopunun alban katolikosları tərəfindən təyin olunmasını qəbul edirdilər: "...yepiskop Vrtanes Sünik yepiskopluğuna Albaniyanın müqəddəs patriarxı Zəkəriyyə tərəfindən təyin olunmuşdu və bundan sonra Sünik ildən-ilə müqəddəs mərhəməti albanlardan alırdı"[166]. Bu, şübhəsiz ki, Sünikin erməni deyil, alban vilayəti olduğunu göstərən çoxsaylı faktlardan biridir.

Alban kilsəsinin müstəqil fəaliyyət göstərdiyinə toxunan rus müəllifi V.L.Veliçko qeyd edir ki, XIX

165 Yenə orada, s. 83-85.
166 Yenə orada, s. 84.





əsrin əvvəllərinədək Aqvan və ya Qanzasar katolikosu ayrıca mövcud olmuş və Eçmiədzin katolikosu ilə rəqabət aparmışdır[167].

Erməni kilsəsinin qeyri-səmimi siması, onun xristianlıq pərdəsi altında gizlənərək, qonşu xalqlara qarşı təcavüzkar siyasət yeritməsi, nisbətən iri dövlətlərin isə xidmətində durması erməni müəllifi N.S.Vartapetovun da diqqətini cəlb etmişdir: "Xristian bayrağı ilə silahlanaraq Erməni kilsəsi bütün zamanlarda tarixi Albaniyanın və onun ayrılmaz hissəsi olan Qarabağın (Arsax) xalqlarını məhv etmişdir" və "bir vaxtlar tarixi vəziyyətə məharətlə uyğunlaşaraq Bizans imperiyasına, İran sasanilərinə, ərəb xəlifələrinə və monqollara xidmət etdiyi kimi, Səfəvilərə, daha sonra Rusiya imperiyasına xidmət etmişdir"[168].

## Qafqaz albanlarının qriqorianlaşması prosesi

VII əsrdə Qafqaz Albaniyası ərəb işğallarına məruz qaldı. Bu dövrdə öz ibadətlərini, dini ayinlərini müstəqil olaraq həyata keçirən alban kilsəsi yunanlara daha yaxın idi. Ərəblərin Bizansla müharibə vəziyyətində olduğunu, albanların isə onunla normal əlaqələr saxladığını nəzərə alan erməni katolikosu alban kilsəsini özünə tabe etmək üçün bu məqamdan məharətlə istifadə etdi. Bu dövrdə erməni kilsəsinin Albaniya xristianları üzərində təsiri də xeyli artmışdı. Uzun müddət davam edən İran-Bizans, bunun ardınca isə Ərəb-Bi-

167 Величко В.Л. Указ. соч., с. 66.
168 "Gəldim, gordüm,...mənimsədim", s. 3.

zans müharibələri zamanı hərbi əməliyyatların baş verdiyi ərazilərdə yaşayan ermənilərin bir qismi oraları tərk edərək Qafqaz Albaniyasında məskunlaşmışdı[169]. Nəticədə, Cənubi Qafqazın, o cümlədən Azərbaycanın müxtəlif rayonlarında ermənilər görünməyə başlamışdı.

Artıq qeyd olunduğu kimi, albanların yunanlarla olan əlaqələrindən istifadə edən erməni katolikosu onları ərəblərin gözündə alçaltmağa, nüfuzdan salmağa çalışırdı. Bu mənada erməni katolikosu İlyanın ərəb xəlifəsi Əbd ül-Malik ilə yazışması diqqəti cəlb edir. Daha çox casusluğu xatırladan bu yazışmalarda albanlar xəyanətdə günahlandırılır, onların Bizansla ittifaqının Xilafətə qarşı yönəldiyi iddia olunur. Erməni katolikosu xəlifəyə yazırdı: "Partav taxtında oturan indiki Alban katolikosu yunan imperatoru ilə sazişə girib, öz ibadətlərində onun adını çəkir və ölkəni məcbur edir ki, hamı dini etiqadda ona qoşulsun və onun himayəsini qəbul etsin". İlyaya cavab verən xəlifə Əbd ül-Malik qeyd edirdi ki, "Əmr etdik ki, bizim hökmranlığımıza qarşı qiyam edən albanlarda sizin dininizə uyğun dəyişiklik edilsin"[170]. Ərəb xəlifəsinin erməni hiyləsinə uyduğu aydın görünür. Şübhəsiz ki, xəlifə erməni katolikosunun bu "xidmətlərini" lazımınca qiymətləndirmiş, Arran katolikoslarını ona tabe etmişdi.

704-cü ilə aid edilən "Ermənilərin və aqvanların razılığı və möhkəm ittifaqı haqqında erməni katolikosu İlyanın Aqvan kilsəsindən tələb etdiyi

169 Bünyadov Z. Azərbaycan VII – IX əsrlərdə. Bakı, 1989. s. 93.
170 Yenə orada, s. 93-94.





qramota" alban kilsəsinin öz müstəqilliyini itirdiyinə dəlalət edirdi. A.S.Sumbatzadə N.Y.Marra istinadən qeyd edir ki, Albaniya ərəblərin köməyi ilə antixalkedon erməni kilsəsinin əlinə keçmişdi[171].

Xəlifənin xeyir-duasını alan katolikos İlya Partava gəlir, alban katolikosu Nersesi sürgün etmək qərara alınır, lakin sonuncu buna dözməyərək vəfat edir. Bundan sonra çağrılan kilsə yığıncağında Simeon Albaniyanın yeni katolikosu seçilir. Onun dövründə erməni kilsəsinin alban kilsəsinə təsiri artır, kilsə nərdivanında əsas vəzifələr məhz ermənilərin əlinə keçir və onların səyi nəticəsində Albaniyanın dağlıq hissəsində yaşayan albanların qriqorianlaşması prosesi başlayır[172]. Zaman keçdikcə alban mədəniyyət abidələri ya məhv edilmiş, ya da saxtalaşdırılaraq erməniləşdirilmişdir.

Qeyd etmək lazımdır ki, erməni kilsəsi zahirən alban kilsəsi üzərində təsirini genişləndirsə də, mahiyyət etibarilə alban irsinə yiyələnən Eçmiədzin tərəfdarlarının özləri bu mədəniyyətin bilavasitə təsiri altına düşürdülər. Eçmiədzin Sinodunun prokuroru A.Frenkelin qeyd etdiyi kimi, tarix boyu ermənilər müstəqil dövlət yaratmağa, yüksək sivilizasiya dəyərlərini qəbul etməyə qadir olmadıqlarını sübut etmişlər. Onların hər-hansı bir parlaq siması öz adını tarixə yaza bilməmişdir, qanunvericiliklə bağlı hansısa mükəmməl kodeksə malik deyillər. Əksinə, başqa xalqların mədəniyyətini mənimsəyərək yaşamağı özləri üçün

171 Сумбатзаде А.С. Азербайджанцы – этногенез и формирование народа. Баку, 1990, с. 93-94.
172 Bunyadov Z. Göstərilən əsəri, s. 93.

həyat normasına çeviriblər. "Çox maraqlı faktla üzləşirik: Tiflis ermənilərі (gürcü təsiri), Akulis. Yelizavetpol və Qarabağ erməniləri (İran təsiri) və Axalsix və Axalkalak erməniləri (Türkiyə təsiri) - demək olar ki, bir-birini başa düşmürlər və onlar arasında nigahlar təsadüfi haldır"[173].

Erməni qriqorian kilsəsinin təsiri altında Albaniyanın dağlıq hissəsində əhalinin erməniləşdiyi F.Nağıyev, Z.Aleksidze, ieromonax Aleksiy (Nikonorov), T.Papuaşvili, K.Trever və T.Maysak tərəfindən də qeyd edilir[174]. İeromonax Aleksiyə görə, Nerses Bakur alban katolikosluğundan uzaqlaşdırıldıqdan sonra alban ruhaniləri öz vəzifələrindən kənarlaşdırılır, ərəblər üçün əlçatmaz olan dağlıq ərazilərdə yaşayan albanlar qriqorianlaşırdılar. Albanlar qriqorianlaşma prosesinə müqavimət göstərirdilər. Belə ki, erməni dilindən əsasən alban əyanlar istifadə edirdi, geniş əhali kütlələri isə bu dili bilmirdilər.

Erməni kilsəsi alban ruhunun öldürülməsinə xüsusi fikir verirdi. Z.Aleksidze bildirir ki, VII-X əsrlərdə ərəb işğalçıları və erməni kilsəsi alban yazılarını məhv edirdilər. Məhv etməzdən əvvəl Alban tarixinə aid əsərləri erməni dilinə tərcümə edirdilər, bu səbəbdən də, onlar bizə erməni dilində çatmışdır.

Qarabağın dağlıq hissəsində yaşayan albanların qriqorianlaşmasında erməni əlifbasının yaradılması böyük rol oynamışdır. Əslində Qafqaz albanları əlifbadan ermənilərə nisbətən daha tez istifadə etmişlər. Mesrop Maştots V əsrdə qrabarı məhz alban əlifbası əsasında yaratmışdı. Sonradan dini məzmunlu kitablar erməni dilinə tərcümə edilmiş və yayılmışdı. Erməni dilində olan ədəbiyyat alban kilsəsinə müəyyən təsir göstərsə də, albanlar XIX əsrədək özünüdərk hissini qoruyub saxlaya bilmişdilər.

173 Справка прокурора Эчмиадзинского Синода А. Френкеля представленная в 1907 г. Святейшему Синоду // История Азербайджана по документам и публикациям Баку. 1990, с. 78.
174 Ахундов Ф. Разрушители фальсификаций. Т.1,Баку, 2012, с.82-8





## Cənubi Qafqazın Rusiya tərəfindən işğalı və erməni kilsəsi

Təbəəsi olduqları ölkəyə xəyanət ermənilərin xarakterik xüsusiyyətlərindəndir və bu xarakterin formalaşmasında erməni kilsəsinin rolu kifayət qədər böyükdür. Eçmiədzin kilsəsinin1826-1828-ci illər Rusiya-İran müharibəsi zamanı nümayiş etdirdiyi davranış bunu deməyə əsas verir. Məsələn, 1827-ci ildə rus qoşunları Təbrizə daxil olduqda, "rus silahı xaçın silahıdır" deyən erməni arxiyepiskopu Nerses öz nümayəndəsi yepiskop Stefanı ora göndərmiş[175] və ruslara qul xidməti göstərməyə, əsrlərlə yanaşı yaşadıqları xalqa arxadan zərbə vurmağa hazır olduqlarını sübut etmişdi.

"Nerses yürüşlər zamanı rus polklarında iştirak etmiş, onları müşayət etmiş və çətin anlarda şəxsən fəaliyyət göstərmişdi"[176] və bu zaman müsəlmanların qətlə yetirilməsində, onların torpaq və əmlakının ələ keçirilməsində şəxsən iştirak edən arxiyepiskop xristianlığın öldürmə, oğurlama və s.

175 Глинка С.Н Указ. соч., с. 22
176 Yenə orada, s. 35.

qadağalarına əməl etməyi lazım bilməmişdi.

Cənubi Qafqazın rus işğalı prosesində müsəlman məscidlərinin kilsələrə çevrilməsi hallarına da rast gəlinirdi. Məsələn, 1827-ci il oktyabr ayının 1-də İrəvan, Zəngi çayı üzərindəki şəhər və qala ruslar tərəfindən alındı və bundan sonra əsas məscid pravoslav kilsəsinə çevrildi[177].

1828-ci ilin aprelində, erməni Loris-Melikovun rəhbərlik etdiyi ordu Anadoluda işğallar həyata keçirdi, Qars qalasını mühasirəyə aldı. Bütün bu proseslərdə katolikos fəal iştirak edirdi. İrəvandan toplanmış könüllülər Eçmiədzin katalikosu tərəfindən fanatizm səviyyəsinə çatdırılmışdı. Bununla yanaşı, Türkiyənin erməni əhalisi qiyama vadar edilir, müsəlmanlar terrora məzuz qalırdı. Ermənilər rus ordusuna yardımlarını əsirgəmirdilər.

İrəvan şəhəri rusların əlinə keçdikdən sonra burada yaradılmış və şəhərdəki rus qarnizonunun komandiri Krasovskinin rəhbərlik etdiyi müvəqqəti hökumətin tərkibinə arxiyepiskop Nerses də daxil edilmişdi. Krasovskinin Nersesə verdiyi qeyri məhdud səlahiyyətlər sayəsində ermənilər istədiklərinə nail olurlar. Əhaliyə paylamaq üçün verilən 4500 çetvert taxılın böyük hissəsi sayca azlıq təşkil edən ermənilərə paylanmışdı. Müsəlmanlar dövlət himayəsindən məhrum edilmişdilər. Bununla əlaqədar Paskeviç baş Qərargah rəisinə göndərdiyi məktubunda yazırdı: "Mən təsəvvür etməzdim ki, Krasovski yalnız Nersesin iradəsi ilə hərəkət edəcək, mənim ona verdiyim təlimata məhəl qoymayıb, yenicə ələ keçirilmiş əyalətin idarə edilməsi qayğısına qalmayacaq, bütün əhalinin dörddə üçünü təşkil edən müsəlmanlara himayədarlıq etməyəcək, lazımi vəsait ayırmayacaq." Yerli müsəlmanlar arasında narazılığın artması səbəbindən Nerses İrəvan müvəqqəti idarəsindən uzaqlaşdırılmışdı[178]. Buna baxmayaraq, ruslara göstərdiyi xidmətlərinə görə o, hətta Müqəddəs Aleksandr Nevski ordeni ilə təltif edilmişdi[179]. Şübhəsiz ki, bu, yaşadığı ölkəni satdığına, ona xəyanət etdiyinə görə onun əldə etdiyi yeganə mükafat deyildi.

Qafqazı işğal etdikdən sonra Rusiya regionda dayaqlarını möhkəmlətmək, öz ərazilərini Osmanlı dövlətinin hesabına genişləndirmək məqsədilə buradakı xristian əhalidən, xüsusilə də ermənilərdən geniş istifadə edirdi. Bu münasibətdən yararlanmağa çalışan erməni kilsəsi və onun ayrı-ayrı nümayəndələri regionun müsəlman əhalisinə qarşı təxribatlar törədir, onları tarixi vətənlərindən sıxışdırmaq üçün istənilən vasitədən istifadə edirdilər. XVIII əsrin sonlarında Qukas (Luka) Eçmiədzin katolikosu seçildi, başqa sözlə bu vəzifəni ələ keçirdi, çünki katolikos xalq tərəfindən seçilməli olduğu halda, o, yalnız Eçmiədzin ruhaniləri tərəfindən seçilmişdi. Katolikosun bu yolla seçilməsində əsas məqsəd, təcrid olunmuş alban patriarxı İsrailə zərbə endirmək və onun Eçmiədzin taxtına seçilməsinin qarşısını almaq idi. Ümumiyyətlə, Eçmiədzin tərəfindən sıxışdırılan alban patriarxlığı, Qarabağ və Gəncənin Rusiyaya birləşdirilməsin-

177 Абаза В.А. История Армении. М., 1888, с. 4.

178 Arzumanli V., Mustafa N., Göstərilən əsəri, s. 22.

179 Глинка С.Н. Указ. соч., с. 35.

dən sonra tədricən ləğv edildi[180]. Alban patriarxına göstərilən yad münasibət, etinasızlıq alban kilsəsinin müstəqil siyasət yeritməsi ilə bağlı idi.

1828-ci il Türkmənçay, 1829-cu il Ədirnə müqavilələrinin imzalanmasından sonra ermənilərin dini-siyasi həyatında Eçmiədzinin rolu daha da artdı. Onların Türkiyə və İrandan Cənubi Qafqaza köçürülməsi prosesində erməni kilsəsi fəal iştirak edirdi. İrandakı erməni ruhanilər məhz Eçmiədzinin tələbi ilə Araz çayından şimaldakı torpaqlara köçmüşdülər, Ərzurum arxiyepiskopu Karapet 70 min nəfər ermənininin köçünü təşkil etmişdi[181]. Səlmas xanlığından ermənilərin köçürülməsində erməni arxiyepiskopu Yenox fəal iştirak edirdi[182].

1836-cı ildə alban kilsəsi I Nikolay tərəfindən Eçmiədzinə tabe edildi. Bu, erməni kilsəsinin təsir dairəsini xeyli genişləndirmiş, yeparxiyalar yaradılmağa başlanılmışdı. Müqayisə üçün qeyd etmək olar ki, 1828-ci ilədək Qafqazda xalis erməni yeparxiyası mövcud deyildi, lakin 1836-cı ildən sonra altı yeparxiya meydana gəldi, onların üçü alban yeparxiyası idi. Xalis erməni yeparxiyaları Qafqazdan kənarda yerləşirdi[183].

Ermənilərin müstəqilliyi uğrunda mübarizə apardığını iddia edən və erməni hərəkatının, üsyanlarının, terrorunun mərkəzinə çevrilən Eçmiədzinin, əslində özü müstəqil deyil, Rusiyadan aslı vəziyyətdə idi və bu hal Türkiyə ərazisində yaşayan ermənilərin narazılığına səbəb olurdu.

180 Величко В.Л. Указ. соч., с. 79-80.
181 Yenə orada, s. 81.
182 Глинка С.Н. Указ. соч., с. 62.
183 Мархулиа Г., Нуриева Ш. Указ. соч., с. 51.







*İrəvan şəhəri, 1796. Rəssam: S.Q.Sergeyev*

Mənbə: www. erevangala500.com

Türkiyə ermənilərinin müstəqillik uğrunda apardıqları mübarizəyə toxunan rus diplomatı İvanov qeyd edirdi ki,"...Onlar Eçmiədzin katolikosunda bunun təminatını, rus hökumətində isə əsas maneəni görürdülər, çünki Ararat vilayəti bizim hüdudlarımızda yerləşir və katolikosun özü, kimin təbəəsi olmasından aslı olmayaraq, rütbəsinə təsdiq olunarkən Rusiyaya sədaqət andı içir və beləliklə Rusiya təbəəsinə çevrilir"[184].

İstanbul erməniləri Eçmiədzini Rusiyanın təsirindən xilas etməyə çalışırdılar. Onlar 1865-ci ildə erməni katolikosu seçilmiş IV Gevorkdan Rusiyaya sədaqət andı içməməyi, kilsələrdə rus imperatorunun adını çəkməməyi və s. tələb etmişdilər. İlk mərhələdə bu tələblər rədd olunsa da, bunun gələcəkdə mümkün olmayacağını ruslar da başa düşürdülər, çünki katolikos, təbəəliyindən aslı olmayaraq, bütün ermənilər tərəfindən seçilməli idi və buna əməl olunmaması proseslərə müdaxilə, Rusiya əleyhinə çıxışlar üçün Fransa və İngiltərəyə bəhanə verə bilərdi. İstanbuldakı Fransa səfirliyinin nümayəndəsi Belen 1865-ci ildə rus diplomatı İvanova bildirmişdi ki, "Fransa və İngiltərə Ermənistanı rus təsiri və Kiçik Asiyaya müdaxiləsi əleyhinə dayağa çevirməyə və Qafqazda Polşa yaratmağa çalışır"[185]. Həqiqətən də, ruslar tarixən

184 Приложение к письму секретаря консульства в Алеппо надворного советника Лундеквиста на имя начальника штаба Кавказского военного округа, 10 октября 1879 г. // «Армянскии вопрос» в Турции . с. 318.

185 Приложение к письму секретаря консульства в Алеппо надворного советника Лундеквиста на имя начальника штаба Кавказского военного округа, 10 октября 1879 г. // «Армянский вопрос» в Турции .с. 318-319.



www.1905.az



*Ermənilərin 1978-ci ildə Azərbaycan Respublikasının Ağdərə (keçmiş Mardakert) rayonunun Marağa kəndində, ilk 200 erməni ailəsinin İrandan bura köçürülməsi münasibətilə ucaldılmış "Marağa-150" abidəsi.*



*Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin başlanmasından sonra "Marağa-150" abidəsi üzərində ermənilər tərəfindən aparılmış dəyişikliklər*

Mənbə: Шуша во времена царской России www. shusha.info

onların sadiq xidmətçisi olmuş Eçmiədzinin təsir altından çıxa biləcəyindən ehtiyat edirdilər, çünki bu həm də Xəzər, Qara və Aralıq dənizi hövzələrində təsir dairəsini genişləndirmək üçün onların məharətlə istifadə etdikləri "erməni kartı"nın itirilməsi demək olardı.





# NƏTİCƏ

Erməni mütəxəssisi Levon Dabeqyan yazırdı: "... ermənilər öz milli varlığı ucun birbaşa ... turklərə borcludurlar. Əgər biz bizanslılar və ya başqa avropalılar arasında qalsaydıq, erməni adı ancaq tarixi kitablarda saxlana bilərdi"[186]. Bəli, yüz illər ərzində Osmanlı dövlətinin təbəələri olmuş, burada onlara qarşı son dərəcə dözümlü münasibət nəticəsində həm iqtisadi, həm də siyasi sahədə kifayət qədər uğur qazanmış, İstanbulda ticarətin nəzərə çarpacaq hissəsi üzərində nəzarəti ələ keçirmiş ermənilər, sonda xəyanət yolu seçdilər, iri dövlətlərin əlində vasitəyə çevrilərək osmanlılara qarşı təxribatlar törətməyə başladılar. Birinci Dünya müharibəsi illərində isə, türklərə namərdcəsinə arxadan zərbə endirdilər, düşmən tərəfə kömək etdilər və iki milyon nəfərdən çox türk insanını qanına qəltan etdilər. Bu gün də uydurma "erməni soyqırımı" adı altında Türkiyəyə qarşı öz düşmənçilik siyasətlərini davam etdirirlər.

Oxşar mənzərə Cənubi Qafqazda da təkrarlandı. Birinci Dünya müharibəsinə qədər bir milyon nəfərdən çox erməni Cənubi Qafqaza köçürülülərək, türk-müsəlman və gürcü ərazilərində yerləşdirildi. Yerli əhali tərəfindən sakitliklə qarşılanan ermənilər tez bir zamanda öz mənfur niyyətlərini və xəyanətlərini burada da nümayiş etdirdilər. 1918-ci ilin mart-aprel aylarında Bakıda, Qubada, Şamaxıda, Salyanda, Neftçalada, Lənkəranda və s. yerlərdə on minlərlə azərbaycanlının qanını tökdülər, ABŞ, Avropa və Rusiyadan olan himayədarlarının yardımı ilə

186 "Gəldim, gördüm,...mənimsədim" s. 5.

Qərbi Azərbaycan torpaqlarında özlərinə Ermənistan adlı dövlət yaradaraq, bu əraziləri azərbaycanlılardan təmizləmə siyasətinə başladılar, 1948-1951-ci illərdə Kremlin əli ilə yuz min nəfərdən çox azərbaycanlının Ermənistandan çıxarılmasına nail oldular, Dağlıq Qarabağı ələ keçirmək məqsədilə 1988-ci ildən Azərbaycana qarşı hərbi əməliyyatlara başladılar, Ermənistanda yaşayan azərbaycanlıların hamısını öz tarixi vətənlərindən qovdular, Xocalı soyqırımı kimi dəhşətli faciələrə imza atdılar, Baqramyan adına batolyon yaradaraq, Gürcüstan ərazisində, xüsusilə Qulripşi rayonunda gürcülərin qətliamını həyata keçirdilər və bu təcavüzkar siyasətlərini bu gün də davam etdirirlər. Bütün bunlar ermənilərin onlara öz torpaqlarında sığınacaq vermiş xalqlara olan "minnətdarlığıdır". Bu erməni xəyanətidir, xəyanət, yalan, saxtakarlıq və ikiüzlülük isə onların etnik xüsusiyyətləridir.



www.1905.az

## ƏDƏBİYYAT


1. "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı (26 mart 1998-ci il) // http://files.preslib.az/site/soyqirim/31mart_az.pdf

2. Babayev Z.B. Ermənilər və haylar. Erməni problemi. Bakı, 2012

3. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989

4. Ermənilərin köçürülməsi rusdilli mənbələrdə // http://1905.az

5. "Gəldim, gördüm,...mənimsədim" (Azərbaycan mədəni ənənələrinin mənimsənilməsi erməni ənənəsi haqqında). Bakı, 2010, s.3 //http://www.azembassy.com.ua/docs/356_Geldim,%20gordum,%20menimsedim%20(az,ru,eng).pdf

6. Xəlilov X.D. Qarabağın etnik tarixindən. // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1988, № 3

7. "Kiş" məbədı (I əsr) // http://www.scwra.gov.az/structure/56/?

8. Qumun unikal abidəsi. Qum bazilikası // http://www.anl.az/down/meqale/azadliq/2012/noyabr/276454.htm

9. Mahmudov Y. Şükürov K. Qarabağ: Real tarix, faktlar, sənədlər. Bakı, 2005.

10. Mehdiyev R.Ə. Gorus – 2010: absurd teatrı mövsümü. Bakı, 2010

11. Авдиев В.И. История Древнего Востока. М., 1953

12. Акопян А.А. Албания — Алуанк в греко-латинских и древнеармянских источниках. Ереван, 1987

13. Акопян Эд.А. "История Армении" Мовсеса Хоренации в оценке К. Патканяна. с.72. // http://lraber.asj-oa.am/2157/

14. Алиев И. Карабах в древности. // История Азербайджана по документам и публикациям. Баку, 1990

15. Алиев И. Лжеистория – очередная попытка оправдать агрессию. Баку, 2003

16. Алиев И. Нагорный Карабах: История. Факты. События. Баку, 1989

17. Армения в III-I вв. до н.э. //Всемирная история. Энциклопедия. Т.2., 1957 // http://interpretive.ru/dictionary/447/word/armenija-v-iii-i-v-do-n-ye

18. Арутунян Б.А. Историческая наука в Армении в 1988-1998 гг. Краткий очерк.//
= Herald of the Social Sciences, № 2, 2004

19. Ахундов Ф. Разрушители фальсификаций. Т.1,Баку, 2012

20. Боркгауз. Моисей Хоренский // http://krotov.info/lib_sec/22_h/or/ensky_1858.htm

21. Буниятов З.М. Азербайджан в VII – IX вв. Баку, 1965

22. Бэнэцяну В. Некоторые вопросы этногенеза армян. Историко-филологический журнал, 1961, № 2

23. Величко В.Л. Кавказ. Русское дело и междуплеменные вопросы. Баку, 1990

24. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. Т.1, Баку, 1991

25. Геродот. История, М., 2001

26. Глинка С.Н. Описание переселения армян Аддербиджанских в пределы России. М., 1831

27. Грибоедов А.С. Горе от ума, письма и записки. Баку, 1989

28. Джаукян Г.Б. О соотношении хайасского и армянского языков. // Историко-филологический журнал, Ереван, 1988. № 1

29. Дьяконов И.М. К праистории армянского языка (о фактах, свидетельствах и логике). Ист.-филол. журн. 1983. №4

30. Дьяконов И.М. Предыстория армянского народа. История Армянского нагорья с 1500 по 500 г. до н.э. Хетты, лувийцы, протоармяне. Ереван, 1968

31. Еремян С.Г. Раннефеодальные государства Закавказья в III—VII вв. Очерки истории СССР, (III—IX вв.), М., 1958

32. Зелинский С.П. "Три магала: Нахичеванский, Ордубадский и Даралагезский. Географо-статистическое и сельскохозяйственное описание". // "Сборник сведений о Кавказе", т. VII, Тифлис, 1880

33. История Армении Моисея Хоренского. М., 1858

34. История Древнего Востока. Под. ред. В.И. Кузищина. М., 2003

35. Кавказский календарь на 1852 г. Тифлис, 1851

36. Марджанлы М. Армянство. Россия. Кавказ. М., 2011

37. Мархулиа Г., Нуриева Ш. "Многострадальная Армения": мифы и реальность. Баку, 2011

38. Меликишвили. Г.А. Урартские клинообразные надписи. Вестник древней истории, 1953, № 1

39. Мнацаканян А.Ш. О литературе Кавказской Албании. Ереван, 1969

40. Мусульманский М. Почему армяне не являются автохтонами Каваза? // Irs, № 34, 2008

41. Новосельцев А.П. Хазарское государство и

его роль в истории Восточной Европы и Кавказа // http://gumilevica.kulichki.net/NAP/nap0114.htm#nap011text323

42. Патканов К.П. Ванские надписи и значение их для истории Передней Азии // Журнал Министерства Народного Просвешения. Январь 1874, часть CLXXI

43. Патканов К.П. Ванские надписи и значение их для истории Передней Азии // Журнал Министерства Народного Просвешения. Январь 1875, часть CLXXVII

44. Патканов К.П. Ванские надписи и значение их для истории Передней Азии // Журнал Министерства Народного Просвешения. Июнь 1875, часть CLXXIX

45. Петросян А. О происхождении армянского народа: проблема идентификации протоармян (критический обзор) // Армянский гуманитарный вестник. 2/3, 2009

46. Пиотровский Б. Ванское царство (Урарту). М., 1959

47. Пиотровский Б. Письмо в редакцию. Ист.-филол. журн. 1971. № 3

48. Под стягом России: Сборник архивных документов. М., 1992

49. Приложение к письму секретаря консульства в Алеппо надворного советника Лундеквиста на имя начальника штаба Кавказского военного округа, 1 октября 1879 г. // Türkiyede ermeni meselesi (Rus genelkurmay başkanlığı belgeleri). Ankara, 2013

50. Приложение к письму секретаря консульства в Алеппо надворного советника Лундеквиста на имя начальника штаба Кавказского военного округа, 10 октября 1879 г. // Türkiyede ermeni meselesi (Rus genelkurmay başkanlığı belgeleri). Ankara, 2013





51. Рапорт старшего делопроизводителя канцелярии Военно-Ученого Комитета Главного штаба Генерального штаба полковника Жилинского управляющему делами Военно-Ученого Комитета, 11 января 1895 г. // Türkiyede ermeni meselesi (Rus genelkurmay başkanlığı belgeleri). Ankara, 2013

52. Сборник сведений о Кавказе. Т. VII, Тифлис, 1880

53. Справка прокурора Эчмиадзинского Синода А. Френкеля, представленная в 1907 г. Святейшему Синоду // История Азербайджана по документам и публикациям. Баку. 1990

54. Сумбатзаде А.С. Азербайджанцы – этногенез и формирование народа. Баку, 1990

55. Тетвадзе Ш., Тетвадзе О. Армяне в Грузии (с древних времен до сегодняшнего дня). Тбилиси, 2008

56. Тихомиров М.Н. Источниковедение истории СССР с древнейших времен до конца XVIII в. М., 1962

57. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании. М.-Л., 1959

58. Туманян Э.Г. Древнеармянский язык. М.,1971

59. Улубабян Б.А. Очерки истории восточного края Армении (V — VII вв.). Ереван, 1982

60. Умеров Э.Ш. Мовсес Хоренаци -- письменный источник по истории государства "Magna Bulgaria" с II в. до н. эры по VII в. н. эры // Ученые записки Таврического национального университета имени В. И. Вернадского. Серия "Филология. Социальные коммуникации". Том 26 (65). №1, ч. 1. 2013

61. Халатьянц Г.А. Армянский эпос в "Истории Армении" Моисея Хоренского. М., 1896

62. Хачатрян В. Наири и Армина. Вестн. обществ, наук АН Арм. ССР. 1976, № 8

63. Чавчавадзе И.Г. Армянские ученые и вопиющие камни.Тифлис, 1902

64. Шавров Н.И. "Новая угроза русскому дело в Закавказье: предстоящая распродажа Мугани инородцам" // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1988, № 3

65. Шагинян А.К. Раннесредневековая география Армении и стран Южного Кавказа. СПб, 2014.

66. Шнирельман В.А. Войны памяти: мифы, идентичность и политика в Закавказье. М., 2003

67. Этническая одонтология СССР. М., 1979

68. Fréderic Macler, La Nation arménienne, son passé, ses malheurs, Paris, 1924

69. Nalbandian L., The Armenian Revolutionary Movement, Los Angeles, 1963

70. Pasdermadjian H., Histoire de l'Arménie, p. 23, Paris, 1949



# ƏLAVƏLƏR

## XIX əsrin 70-ci illərinin sonunda Bakı quberniyasında azərbaycanlı və erməni əhalinin nisbəti

| Qəzalar | Əhalinin ümumi sayı | Azərbaycan türkləri | Ermənilər |
|---|---|---|---|
| Bakı şəhəri | 15105 | 13526 | 747 |
| Bakı qəzası | 44284 | 10127 | - |
| Şamaxı şəhəri | 25087 | 18666 | 5177 |
| Şamaxı qəzası | 72714 | 54458 | 9661 |
| Göyçay qəzası | 60299 | 46536 | 10567 |
| Salyan | 10168 | 10168 | - |
| Cavad qəzası | 60400 | 59794 | - |
| Lənkəran şəhəri | 4779 | - | 232 |
| Lənkəran qəzası | 90603 | 45636 | - |
| Quba şəhəri | 11324 | 5994 | 62 |
| Quba qəzası | 134451 | 39145 | 681 |

*Mənbə: Сборник сведений о Кавказе. Т.VII, Тифлис, 1880*



www.1905.az

## XIX əsrin 70-ci illərinin sonunda Yelizavetpol quberniyasında azərbaycanlı və erməni əhalinin nisbəti

| Qəzalar | Əhalinin ümumi sayı | Azərbaycan türkləri | Ermənilər |
|---|---|---|---|
| Yelizavetpol şəhəri | 18505 | 10481 | 7835 |
| Yelizavetpol qəzası | 80082 | 54932 | 19861 |
| Nuxa şəhəri | 20917 | 17400 | 3501 |
| Nuxa qəzası | 73419 | 47866 | 10435 |
| Ərəş qəzası | 38776 | 27097 | 10317 |
| Cavanşir qəzası | 49005 | 37531 | 10115 |
| Şuşa şəhəri | 24552 | 10804 | 13504 |
| Şuşa qəzası | 80913 | 37351 | 43562 |
| Cəbrayıl qəzası | 41329 | 30638 | 8793 |
| Zəngəzur qəzası | 88685 | 35038 | 41095 |
| Qazax qəzası | 77601 | 48779 | 24777 |

*Mənbə: Сборник сведений о Кавказе. Т.VII, Тифлис, 1880*

## XIX əsrin 70-ci illərinin sonunda İrəvan quberniyasında azərbaycanlı və erməni əhalinin nisbəti

| Qəzalar | Əhalinin ümumi sayı | Azərbaycan türkləri | Ermənilər |
|---|---|---|---|
| İrəvan şəhəri | 11938 | 5805 | 5959 |
| İrəvan qəzası | 84174 | 46426 | 29789 |
| Naxçıvan şəhəri | 6877 | 4697 | 2157 |
| Naxçıvan qəzası | 58758 | 31406 | 26471 |
| Aleksandropol şəhəri | 19976 | 604 | 19129 |
| Aleksandropol qəzası | 87039 | 3751 | 78045 |
| Yeni Bəyazit şəhəri | 5363 | - | 5363 |
| Yeni Bəyazit qəzası | 67799 | 21087 | 44078 |
| Eçmiədzin qəzası | 83039 | 25758 | 51028 |
| Sürməli qəzası | 58487 | 29800 | 18096 |
| Şərur Dərələyəz qəzası | 51791 | 38776 | 12532 |
| Ordubad şəhəri | 3489 | 3153 | 336 |

*Mənbə: Сборник сведений о Кавказе. T.VII, Тифлис, 1880*



www.1905.az

## XIX əsrin 70-ci illərinin sonunda Tiflis quberniyasında azərbaycanlı, gürcü və erməni əhalinin nisbəti

| Qəzalar | Əhalinin ümumi sayı | Azərbaycan türkləri | Gürcülər | Ermənilər |
|---|---|---|---|---|
| Tiflis şəhəri | 89551 | - | 20390 | 37308 |
| Tiflis qəzası | 129432 | 32014 | 32898 | 37803 |
| Siqnax şəhəri | 9265 | - | 3498 | 5679 |
| Siqnax qəzası | 72063 | 3419 | 63322 | 3755 |
| Telavi şəhəri | 7022 | 8 | 1238 | 5170 |
| Telavi qəzası | 45390 | 1828 | 40717 | 2767 |
| Tionet qəzası | 32404 | - | 11728 | 304 |
| Qori şəhəri | 5015 | 1 | 2291 | 2469 |
| Qori qəzası | 119814 | 23 | 68018 | 11708 |
| Duşet şəhəri | 2041 | - | 763 | 1249 |
| Duşet qəzası | 55517 | - | 38107 | 2411 |
| Axalsix şəhəri | 13265 | 30 | 422 | 10702 |
| Axalsix qəzası | 30112 | 21972 | 2817 | 4713 |
| Axalkalak şəhəri | 3074 | - | 24 | 2960 |
| Axalkalak qəzası | 46835 | 4404 | 2785 | 33203 |

*Mənbə: Сборник сведении о Кавказе. T.VII, Тифлис, 1880*

## XIX əsrin 70-ci illərinin sonunda Dağıstan vilayətində azərbaycanlı və erməni əhalinin nisbəti

| Qəzalar | Əhalinin ümumi sayı | Azərbaycan türkləri | Ermənilər |
|---|---|---|---|
| Dərbənd şəhəri | 13775 | 9720 | 628 |
| Şəhər ətrafı | 2777 | 1998 | - |
| Temir-Xan Şura şəhəri | 5094 | 979 | 906 |
| Temir-Xan Şura dairəsi | 63016 | 1072 | - |
| Qunib dairəsi | 47916 | - | - |
| Qazıqumıx dairəsi | 36056 | - | - |
| Andi dairəsi | 41468 | - | - |
| Aqar dairəsi | 38910 | - | - |
| Qaytaq-Tabasa-ran dairəsi | 42868 | 9472 | - |
| Dargin dairəsi | 65450 | - | - |
| Kür dairəsi | 60482 | - | - |
| Samur dairəsi | 59819 | - | - |
| Petrovsk liman şəhəri | 3893 | - | 890 |

*Mənbə: Сборник сведений о Кавказе. T.VII, Тифлис, 1880*





## XIX əsrin 70-ci illərinin sonunda Bakı quberniyasında müsəlman və erməni qriqorian əhalinin nisbəti

| Qəzalar | Müsəlman | Erməni qriqorian |
|---|---|---|
| Bakı şəhəri | 13526 | 747 |
| Bakı qəzası | 44284 | - |
| Şamaxı şəhəri | 18666 | 5177 |
| Şamaxı qəzası | 55096 | 9661 |
| Göyçay qəzası | 47918 | 10567 |
| Salyan | 10168 | - |
| Cavad qəzası | 59794 | - |
| Lənkəran şəhəri | 3813 | 232 |
| Lənkəran qəzası | 84821 | - |
| Quba şəhəri | 5994 | 62 |
| Quba qəzası | 132828 | 681 |

*Mənbə: Сборник сведений о Кавказе. T.VII, Тифлис, 1880*

## XIX əsrin 70-ci illərinin sonunda Yelizavetpol quberniyasında müsəlman və erməni qriqorian əhalinin nisbəti

| Qəzalar | Müsəlman | Erməni qriqorian |
|---|---|---|
| Yelizavetpol şəhəri | 10481 | 7831 |
| Yelizavetpol qəzası | 55140 | 19653 |
| Nuxa şəhəri | 17400 | 3501 |
| Nuxa qəzası | 60651 | 10435 |
| Ərəş qəzası | 28459 | 10337 |
| Cavanşir qəzası | 38584 | 10116 |
| Şuşa şəhəri | 10804 | 13504 |
| Şuşa qəzası | 37351 | 43562 |
| Cəbrayıl qəzası | 32361 | 8793 |
| Zəngəzur qəzası | 47624 | 41045 |
| Qazax qəzası | 48779 | 24774 |

*Mənbə: Сборник сведений о Кавказе. T.VII, Тифлис, 1880*





## XIX əsrin 70-ci illərinin sonunda İrəvan quberniyasında müsəlman və erməni qriqorian əhalinin nisbəti

| Qəzalar | Müsəlman | Erməni qriqorian |
|---|---|---|
| İrəvan şəhəri | 5805 | 5959 |
| İrəvan qəzası | 53228 | 29784 |
| Naxçıvan şəhəri | 4694 | 2157 |
| Naxçıvan qəzası | 32046 | 26471 |
| Aleksandropol şəhəri | 604 | 18875 |
| Aleksandropol qəzası | 3771 | 74279 |
| Yeni Bəyazit şəhəri | - | 5363 |
| Yeni Bəyazit qəzası | 21269 | 44078 |
| Eçmiədzin qəzası | 31166 | 51028 |
| Sürməli qəzası | 36455 | 18096 |
| Şərur Dərələyəz qəzası | 39046 | 12532 |
| Ordubad şəhəri | 3153 | 326 |

*Mənbə: Сборник сведений о Кавказе. T.VII, Тифлис, 1880*

### XIX əsrin 70-ci illərinin sonunda Tiflis quberniyasında müsəlman, erməni qriqorian və pravoslav əhalinin nisbəti

| Qəzalar | Müsəlman | Erməni qriqorian | Pravoslav |
|---|---|---|---|
| Tiflis şəhəri | 4027 | 36315 | 40347 |
| Tiflis qəzası | 32284 | 37794 | 53661 |
| Siqnax şəhəri | - | 5679 | 3585 |
| Siqnax qəzası | 3420 | 3755 | 64419 |
| Telavi şəhəri | 8 | 5170 | 1817 |
| Telavi qəzası | 1828 | 2767 | 40787 |
| Tionet qəzası | 1164 | 304 | 30936 |
| Qori şəhəri | 1 | 2468 | 2546 |
| Qori qəzası | 24 | 11708 | 105989 |
| Duşet şəhəri | - | 1249 | 791 |
| Duşet qəzası | 321 | 2411 | 52775 |
| Axalsix şəhəri | 30 | 10702 | 559 |
| Axalsix qəzası | 22532 | 2293 | 2859 |
| Axalkalak şəhəri | - | 2960 | 87 |
| Axalkalak qəzası | 4648 | 28212 | 3697 |

*Mənbə: Сборник сведений о Кавказе. T.VII, Тифлис, 1880*



www.1905.az

### XIX əsrin 70-ci illərinin sonunda Dağıstan vilayətində müsəlman və erməni qriqorian əhalinin nisbəti

| Qəzalar | Müsəlman | Erməni qriqorian |
|---|---|---|
| Dərbənd şəhəri | 9720 | 535 |
| Şəhər ətrafı | 1998 | - |
| Temir-Xan Şura şəhəri | 1770 | - |
| Temir-Xan Şura dairəsi | 62527 | - |
| Qunib dairəsi | 47916 | - |
| Qazıqumıx dairəsi | 36056 | - |
| Andi dairəsi | 41468 | - |
| Aqar dairəsi | 38910 | - |
| Qaytaq-Tabasaran dairəsi | 33627 | - |
| Dargin dairəsi | 65450 | - |
| Kür dairəsi | 59035 | - |
| Samur dairəsi | 59651 | - |
| Petrovsk liman şəhəri | 689 | 890 |

*Mənbə: Сборник сведений о Кавказе. T.VII, Тифлис, 1880*

# MÜNDƏRİCAT

Oxuculara müraciət ........................................ 3

Giriş ........................................ 5

**I. ERMƏNİLƏRİN MƏNŞƏYİ HAQQINDA** .. 8

M. Xorenasidən başlayan erməni saxtakarlığı ........ 8
Ermənilərdən uzaq Hayasa ........................................ 15
Urartu və ermənilər ........................................ 24
Ermənilərin mənşəyi haqqında ........................................ 39

**II. CƏNUBİ QAFQAZA ERMƏNİ KÖÇLƏRİ** ..... 47

XVIII əsrədək olan dövrdə ermənilər və Cənubi Qafqaz ........................................ 47
XVIII əsrdə Cənubi Qafqazda erməni faktoru ... 59
XIX əsrin birinci yarısında ermənilərin Cənubi Qafqaza köçürülməsi ........................................ 66
XIX əsrin II yarısı – XX əsrin əvvəllərində Cənubi Qafqazda ermənilər ........................................ 80

**III. ERMƏNİ QRİQORİAN KİLSƏSİNİN MƏNİMSƏMƏ SİYASƏTİ** ........................................ 89

Erməni kilsəsi və alban irsi ........................................ 89
Qafqaz albanlarının qriqorianlaşması prosesi ....... 103
Cənubi Qafqazın Rusiya tərəfindən işğalı və erməni kilsəsi ........................................ 107





Nəticə ........................................ 115
Ədəbiyyat ........................................ 117
Əlavələr ........................................ 123

www.1905.az

**Aqil Şahmuradov**
Ermənilər Cənubi Qafqazda
(məskunlaşma tarixindən)

**Məsul redaktor**
Gündüz NƏSİBOV

**Bədii redaktor**
Dadaş MUSAYEV

**Texniki redaktor**
Mətanət BABAYEVA

**Orijinal maketin müəllifi**
Elviz İSMAYILOV

**Səhifələnmə**
Sevda AĞAYEVA
Qoca ABSƏLİMOV

CBS POLYGRAPHIC PRODUCTION
Tel 447-75-05 Faks 447-75-04

mətbəəsində çap olunmuşdur